# KİTABXANA.AZ

## ELMİ-NƏZƏRİ VƏ TƏCRÜBİ JURNAL

*Jurnal 2008-ci ildən nəşr olunur*

# №1(37) * 2022

**Jurnalın bu nömrəsi Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illik yubileyinə həsr edilir**

**Seriyanın istiqamətləri:**

- Kitabxanaşünaslıq
- İnformasiya elmi
- Kitabşünaslıq və nəşriyyat işi
- Dilçilik

**Bakı – 2022**

**№ 1 (37), dekabr 2022**

**Təsisçi və baş redaktor:** **Şəfəq İSLAMOVA**
tarix üzrə fəlsəfə doktoru

**Redaktor:** **Knyaz ASLAN**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Məsul redaktor:** **Elçin ƏHMƏDOV**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Redaksiya heyəti:**

**Xəlil İSMAYILOV,** tarix elmlər doktoru, professor
**Ələmdar BAYRAMOV,** filologiya üzrə fəlsəfə doktoru, dosent
**Nadir İSMAYILOV,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Sevda XƏLƏFOVA,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Mehmanəli MƏMMƏDOV,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Pərviz KAZIMİ,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Eldəniz MƏMMƏDOV,** tarix üzrə fəlsəfə doktoru
**Azadə ORUCOVA,** Respublika Elmi-Texniki Kitabxanası
**Zülfi TOMAN,** Türkiyə Milli Kitabxanasının direktoru
**Roman MOTULSKIY**, Belarus Milli Kitabxanasının direktoru
**Umutkan MUNALBAEVA,** Qazaxıstan Milli Akademik Kitabxanasının direktoru
**Aleksandr VERŞININ,** Rusiya Milli Kitabxanasının baş direktoru
**Vadim DUDA,** Rusiya Dövlət Kitabxanasının baş direktoru
**Tamara VİLEQJANİNA,** Yaroslav Mudrı adına Ukrayna Milli Kitabxanasının baş direktoru

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 2492. Qeydiyyat tarixi 16.01.2008.

Redaksiyanın ünvanı: AZ 1096, Bakı şəhəri, K.Balakişiyev 43/15
Telefonlar: 012 323 49 39 ;(+994 50) 558-98-59; (+994 77) 742-35-42
E-mail: shafaq.ace@gmail.com

# KİTABXANA.AZ

**SCIENTIFIC - THEORETICAL AND PRACTICAL JOURNAL**

The journal has been published since 2008

**The number of journal is dedicated to the 60th anniversary of the Librarian-information faculty of Baku State University**

# KİTABXANA.AZ

**НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ЭКСПЕРИМЕНТАЛЬНЫЙ ЖУРНАЛ**

Журнал издается с 2008 года

**Этот номер журнала посвящен 60-летию Библиотечно-информационного факультета Бакинского Государственного Университета**

# №1(37)
# 2022


**Directions of the serie:**

- Library science
- Information science
- Bibliology and publishing
- Linguistics

**Направления серии**:

- Библиотеведение
- Информационная наука
- Книговедение и издательское дело
- Языкознание

**№ 1 (37), dekabr 2022**

**FOUNDER AND EDITOR-IN-CHIEF**:
**SHAFAQ ISLAMOVA**
PhD in history
**Editor:**
**Knyaz ASLAN**
PhD in pedagogy, associate professor

**Responsible editor:**
**Elchin AKHMADOV**
PhD in pedagogy, associate professor

**Editorial staff:**

**Khalil ISMAILOV**, doctor of historical sciences, professor
**Alamdar BAYRAMOV**, PhD in philology, associate professor
**Nadir ISMAILOV,** PhD in pedagogy, associate professor
**Sevda KHALAFOVA**, PhD in history, associate professor
**Mehmanali MAMMADOV**, PhD in pedagogy, associate professor
**Parviz KAZIMİ,** PhD in history, associate professor
**Eldaniz MAMMADOV,** PhD in history
**Azade ORUCOVA,** Republican Scientific and Technical Library
**Zulfi TOMAN**, director of the National Library of Turkey
**Roman MOTULSKIY**, director of the National Library of Belarus
**Umutkan MUNALBAEVA**, director of the National Academic Library of Kazakhstan
**Aleksandr VERSHIN,** General Director of the National Library of Russia
**Vadim DUDA,** General director of the State Library of Russia
**Tamara Vilegjanina**, General Director of the National Library of Ukraine named after Yaroslav Mudriy

The journal is registered in the Ministry of Justice of the Republic of Azerbaijan. Certificate number 2492 (The date of registration 16.01.2008).
Editorial office address: AZ 1096, Baku city, K.Balakishiyev 43/15
Phones: 012 323 49 39 ; (+994 50) 558-98-59; (+994 77) 742-35-42.
Email: shafaq.ace@gmail.com

**УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:**
**Шафаг ИСЛАМОВА**
доктор философии по истории

**РЕДАКТОР:**
**Князь АСЛАН**
доктор философии по педагогике, доцент

**Ответственный редактор:**
**Эльчин Ахмедов**
доктор философии по педагогике, доцент

**Редакционная коллегия:**

**Халил ИСМАИЛОВ,** доктор исторических наук, профессор
**Аламдар БАЙРАМОВ**, кандидат филологических наук, доцент
**Надир ИСМАИЛОВ,** доктор философии по педагогике, доцент
**Севда ХАЛАФОВА**, доктор философии по истории, доцент
**Мехманали МАМЕДОВ**, доктор философии по педагогики, доцент
**Парвиз КАЗИМИ**, доктор философии по истории, доцент
**Эльданиз МАМЕДОВ,** доктор философии по истории
**Азада ОРУДЖОВА,** Республиканская научно-техническая библиотека
**Зульфи ТОМАН,** директор Национальной библиотеки Турции
**Роман МОТУЛЬСКИЙ,** директор Национальной библиотеки Беларуси
**Умуткан МУНАЛБАЕВА,** директор академической библиотеки Казахстана
**Александр ВЕРШИНИН,** генеральный директор РНБ
**Вадим ДУДА,** генеральный директор Российской государственной библиотеки
**Тамара Вылегжанина,** Генеральный директор Национальной библиотеки Украины имени Ярослава Мудрого

Журнал зарегистрирован в Министерстве Юстиции Азербайджанской Республики Свидетельство № 2492(Дата регистрации 16.01.2008)
Адрес редакции: AZ 1096, город Баку, К. Балакишиев 43/15
Телефоны: 012 323 49 39 (+994 50) 558-98-59; (+994 77) 742-35-42.
Электронная почта: shafaq.ace@gmail.com

## BAŞ REDAKTORDAN

***Əziz oxucular!***

“Kitabxana.az ” jurnalının 2022-ci il üçün ilk sayı müəyyən fasilədən sonra oxucuların diqqətinə təqdim edilir. Jurnalın missiyası çoxşaxəlidir. “Kitabxana.az ” ilk növbədə elmi-nəzəri və təcrübi jurnalıdır.

Jurnalda kitabxanaşünaslıq elminin nəzəri məsələləri, həmçinin kitabxana-informasiya fəaliyyətinin modernləşdirilməsinə stimul verə biləcək elmi tədqiqat işlərinin nəşri prioritet istiqamət olaraq nəzərdə tutulur. Jurnalda elm və təhsil sahəsində gedən proseslər, müasir cəmiyyətin inkişafının aktual məsələləri – dövlət-vətəndaş münasibətləri, etno-siyasi, dini münasibətlər, gənclər siyasəti, sosial və siyasi psixologiya, pedoqoqika elmi, informasiya texnologiyalarının tədqiqi ilə bağlı təhlillər dərc ediləcək əsas mövzular sırasındadır.

“Kitabxana.az ” jurnalı bu sahə ilə bağlı istənilən innovativ fikir və təkliflər üçün açıqdır. Azərbaycandan və başqa ölkələrdən olan tədqiqatçılara öz elmi baxış, mövqe və təhlillərinin nəticələrinin dərc edilməsi üçün beynəlxalq bir platformanın formalaşdırılmasını nəzərdə tutur. Ümid edirik ki, “Kitabxana.az” jurnalı ictimai və humanitar elm sahələrində elmi tədqiqatların canlanması və keyfiyyətli məzmun kəsb etməsində geniş oxucu kütləsi arasında əməli vasitəçi statusunu qazana biləcək.

Tədqiqatçı dostları jurnalın Redaksiya Heyəti adından əməkdaşlığa və jurnalda elmi müəllif məqalələri ilə çıxış etməyə dəvət edirik.

**Şəfəq İslamova**

**“Gələcəyin kitabxanası” İctimai Birliyinin sədri,**
**“Kitabxana.az” jurnalının təsisçisi**

**Elçin Yusif oğlu Əhmədov**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrasının müdiri,***
***pedoqogika üzrə fəlsəfə doktoru, dosent***
elçin.bdu@gmail.com

# DÖVLƏT KİTABXANA SİYASƏTİ

***Xülasə:*** *Məqalədə kitabxana - informasiya fəaliyyətinin formalaşmasında Dövlətin kitabxana siyasəti araşdırılır. Xüsusilə vurğulanır ki, kitabxanaların mütəxəssis kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazasının formalaşması dövlətin kitabxana siyasətinin prioritetini təşkil edir, həmçinin, cəmiyyətin formalaşmasında meydana gəlib təkmilləşən yeni dünya baxışı, yeni təfəkkür tərzi və digər məsələlər araşdırılmışdır.*

***Açar sözlər:*** *kitabxana, siyasət, dövlət, qanun, cəmiyyət, kitab nəşri.*

Respublikamızda cəmiyyətin hamisi olduğu kitabxana-informasiya müəssisələrinin fəaliyyətinin təkmilləşməsi istiqamətində uğurlu addımlar atılır. Bu ilk növbədə Dövlət kitabxana siyasətinin qarşıya qoyduğu tələblər ilə əlaqədardır. Dövlət kitabxana siyasəti dünya dövlətlərinin təcrübəsindən bəhrələnərək olduqca demokratik kitabxana siyasətinin əsasını təşkil edir. Dövlət kitabxana siyasətinin əsas motivində görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir" kəlamı dayanır. Hazırda ictimai həyatın müxtəlif sahələrinə uyğun olaraq iqtisadi, sosial, milli, aqrar, təhsil, din, mədəniyyət, kitabxana və s. siyasət mövcuddur.

Ümumimilli Liderin layiqli davamçısı dünya şöhrətli prezident İ.Əliyevin "Azərbaycan kitabxanaları xalqımızın milli sərvətidir" kəlamı bu gün dövlətin kitabxana siyasətinin istiqamətverici meyarıdır. Qüdrətli dövlət başçısı Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman xalqımızın, əsgərlərimizin, şəhidlərimizin 44 günlük mübarizəsi möhtəşəm qələbə ilə nəticələndi. Dövlətimizin uğurlu xarici və daxili

siyasəti örnək xarakterlidir. Cəmiyyətin ayrı-ayrı fəaliyyət sahələri müasir durumdan bəhrələnərək öz fəaliyyətini təkmilləşdirir. Dövlətin kitabxana siyasəti bu gün Azərbaycanda kitabxana-informasiya fəaliyyətini optimallaşdırması, modernləşdirilməsinə sitimul verir. Kitabxana işi sahəsində dövlət siyasəti çox mürəkkəb ictimai bir fenomendir. Öz ideoloji, sosial və siyasi əhəmiyyətinə görə müstəsna əhəmiyyətə malik bir hadisədir. Dövlət kitabxana siyasəti bir çox mürəkkəb, çoxtərəfli, çoxsəviyyəli, çoxşəkilli, çoxqütblü, çoxkomponentli, çoxsubyektli və çox obyektlidir. Müasir şəraitdə kitabxana işi sahəsində dövlət siyasətini müəyyənləşdirərkən respublikamızın müstəqilliyinin xalqımıza bəxş etdiyi milli dövlətçiliyimizin, milli ideologiyamızın, azadlıq və demokratiyanın nailiyyətlərini, son 30 ildə iqtisadi, sosial, mədəniyyət və təhsil sahəsində baş verən dəyişiklikləri, milli soykökümüzə qayıtmağımızı, milli mentalitetimizin möhkəmləndirilməsini, ümumiyyətlə, müstəqil, suveren Azərbaycan cəmiyyətinin inkişaf qanunauyğunluqlarını nəzərə almaq zəruridir. Belə ki, ötən dövrdə dövlət tamam təkminləşib, cəmiyyət əvvəlkindən tamamilə fərqlənən yolla inkişaf edir. Kitabxanaların vəzifələri, oxucular və kitabxanaçılar tamamilə dəyişmiş, yeniləşmişdir. Kitabxana işində demokratik prinsiplər tədricən dərinləşir və möhkəmlənir. Cəmiyyətin formalaşmasında meydana gəlib təkmilləşən yeni dünyabaxışı, yeni təfəkkür tərzi onların da dəyişməsinə şərait yaratmışdır. Respublikamızda əhaliyə kitabxana xidmətinin təşkili müxtəlif nazirliklər, idarə və müəssisələr, cəmiyyətlər tərəfindən həyata keçirildiyindən kitabxana şəbəkələrinin vəzifələri baxımından müxtəlif, bir-birindən fərqlənən kitabxana siyasətinin formalaşması qaçılmazdır.

Bütün kitabxana şəbəkələrinin ümumi qanunauyğunluqlarını müəyyənləşdirən dövlət siyasətinin formalaşması zəruri bir prosesdir. Əgər ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti bir nazirliyin, bir müəssisənin mənafeyini müdafiə edirsə, ümumdövlət kitabxana siyasəti bütün ölkənin və xalqın mənafeyinə, tələbat və sorğularına xidmət edir. Beləliklə, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti öz əsas prinsiplərini və vəzifələrini müəyyənləşdirərkən bilavasitə dövlət siyasətinə əsaslanmalı, onun mahiyyətini əks etdirməlidir. Dövlətin kitabxana siyasəti respublika miqyasında aparılan kitabxana işinin əsasını təşkil etdiyindən bu sahəyə dair hazırlanan bütün normativ-hüquqi sənədlər, Azərbaycan dövlə-

tinin kitabxana siyasətinə əsaslanmalı, demokratik prinsipləri özündə əks etdirən sənəd olmalıdır. Kitabxana işinə dair dövlət siyasətinin formalaşdırılmasında və vəzifələrin müəyyənləşdirilməsində ali qanunumuz olan Azərbaycan Respublikasının Konstitusiyası əsas qanunvericilik bazası rolunu oynayır. Məhz vətəndaşların mədəni sərvətlərdən, informasiyadan istifadə etmək hüququnu müəyyənləşdirən, ölkəmizin informasiya təhlükəsizliyini təmin edən konstitusiyamızda insanlarm mədəni sərvətlərdən istifadə etmək və məlumat əldə etmək sahəsində hüquq, vəzifə və azadlıqları geniş şərh edilmiş və onlarm qorunmasının hüquqi əsasları yaradılmışdır. İnsanların mədəni sərvətlərdən istifadə etmək, istədiyi məlumatı əldə etmək hüquqları və azadlıqları Konstitusiyanın 40-cı və 50-ci maddələrində şərh olunmuş, kitabxanaların hüquqları təsbit edilmiş, onların qarşısında insanlara kitabxana və informasiya xidmətinin yüksək səviyyədə, maneəsiz, qüsursuz və vaxtında təşkil edilməsi vəzifəsi qoyulmuşdur. Bu vəzifələrin yerinə yetirilməsi hər şeydən əvvəl kitabxana işinin dövlət təminatında olmasını, milli kitab sərvətini və informasiya vasitələrini toplaya bilməsini, kitabxana işinin demokratik əsaslarda qurulmasını tələb edir.

Məhz konstitusiyamızda təsbit edilmiş bu hüquqi normaları, ideyaları həyata keçirmək üçün 1998-ci ildə Milli Məclis ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Bu Qanun ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətinin əsasıdır. Azərbaycan Respublikasında müasir şəraitdə və yaxın gələcəkdə formalaşan kitabxana işi üzrə dövlət siyasəti, kitabxana işinə dair hazırlanan bütün qərarlar, sənədlər və sərəncamlar, kitabxana işinin inkişaf konsepsiyası, ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin kitabxana siyasəti bu qanuna əsaslanmalı, onun əsas prinsipləri və müddəalarının yerinə yetirilməsinə xidmət etməlidir.

Respublikamızda dövlət kitabxana siyasətinin həyata keçilirməsinin normativ-hüquqi bazasında "Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı", həmçinin 2007-ci ildə "Azərbaycanda kitabxana fəaliyyətinin yaxşılaşdırması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əhəmiyyətli rol oynayır.

2019-cu ilin yanvar ayının 15-də dövlət başçısının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi,

ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sistemi yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların (mədəniyyət mərkəzləri, klublar, musiqi məktəbləri, rəsm qaleriyaları və s.) fəaliyyətinin səmərəliyinin artırılması məqsədi ilə imzaladığı fərman dövlətin kitabxana siyasətini həyata keçilirməsinə əsaslı təsir göstərir. Burada dövlət kitabxana siyasətinin əsas atributlarından olan informasiya-kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla ölkədə kitabxana işinin yenidən qurulması məsələləri öz əsasını tapmışdır.

Hazırda respublikamızda dövlətin kitabxana siyasətinin təkminləşməsi üçün ciddi işlər aparılır, ölkəmizin şəraiti, kitabxanalarımızın iş təcrübəsi və kitabxana işinin gələcək perspektivləri elmi əsaslarla öyrənilir, ümumiləşdirmələr aparılır. Bunlar təxmini olaraq aşağıdakı məsələləri əhatə etməlidir:

- Kitabxana işinin informasiyalaşdırılması, kitabxanalarda yeni informasiya texnologiyalarının tədbiqi və inkişafı, elektron-məlumat bazasının formalaşdırılması və istifadəsi, yeni texnologiyaların tətbiqi, kitabxanaların işinin əlaqələndirilməsində şəbəkə texnologiyalarının yaradılması və inkişaf etdirilməsi, kitab nəşri sisteminin tamamilə yeniləşməsi, çoxlu miqdarda özəl nəşriyyatların yaradılması ilə əlaqədar kitabxanaların komplektləşdirilməsi probleminin həlli üçün yollar axtarılması, kitabxana kollektorunun işinin yenidən qurulması, onun fəaliyyət dairəsinin daha da genişlənməsi və təkmilləşdirilməsi, kitabxana fondlarının təhlükəsizliyinin təmin edilməsi və qorunması üçün tədbirlər görülməsi, kitabxana işini, onun hüquqi əsaslarla inkişafını tənzimləyən normativ hüquqi aktlar sisteminin yaradılması, kitabxana-informasiya müəssisələrində ali peşə təhsilli mütəxəssis kadrların yerləşdirilməsi, Respublikamızda kitabxana sisteminin vahidliyinin təmin edilməsi və onların işinin koordinə edilməsi üçün tədbirlərin hazırlanması, ölkəmizdə kitabxana işinin dünya standartları səviyyəsində təşkili məqsədi ilə beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, təcrübə mübadiləsinin aparılması. Qarşıda duran bu vəzifələrin daha da təkminləşdirilməsi Dövlət kitabxana siyasətinin kitabxana-informasiya fəaliyyətində peşəkarlığın artırılmasını uğurla təmin edəcək. Kadrların yerləşdirilməsində peşəkarlığın nəzərə alınması vacib şərtdir. İradrəetmənin optimallaşdırıması kadrların peşəkarlığından asılıdır. Dövlət başçısı məmurları işə təyin edərkən ilk növbədə onların

peşəkarlıqlarına, bilik və bacarıqlarına xüsusi əhəmiyyət verir. Kitabxana-informasiya fəaliyyətinə peşəkar kardların cəlb edilməsi Dövlət kitabxana siyasətinin əsas atributları olmalıdır. Kitabxana-informasiya təhsili almış bakalavrları, magistrantları, elmi rütbəsi olan fəlsəfi doktrantları peşəkar mütəxəssislər olaraq kitabxana-informasiya müəssisələrində yerləşdirilməlidir.

## ƏDƏBİYYAT


1. *Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri. - Bakı, 2006.- 106s.*
2. *Əhmədov E.Y.Azərbaycanda kitabxana-informasiya işinin hüquqi bazası : Dərs vəsaiti. – Bakı, 2012. - 215s.*
3. *Əhmədov E.Y..Dövlətin kitabxana siyasəti // Respublika. – 2022. - 10 mart, №52(7234).*
4. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu: Elektron resurs. - https://e-qanun.az*
5. *Kitabxanaşünaslığa giriş: Ellektron resurs.- http://elibrary.bsu.edu.az*
6. *Kitabxana işinə dair hüquqi normativ aktlar toplusu (ümumtəhsil müəssisələri kitabxanaları üçün). - Bakı, 2011.- 118s*


**Elchin Yusif oglu Ahmadov**

**LIBRARY POLICY OF THE GOVERNMENT**

***Summary:*** *The article examines the library policy of the State in the formation of the library - information activity. It is especially emphasized that equipping libraries with specialist personnel, forming their material and technical base is the priority of the state's library policy, and also, the new world view, new way of thinking and other issues that are formed and improved in the formation of society are investigated.*

***Keywords:*** *library, politics, state, law, society, book publishing.*

**Эльчин Юсиф оглы Ахмедов**

# ПОЛИТИКА ГОСУДАРСТВЕННОЙ БИБЛИОТЕКИ

***Резюме:*** *В статье рассматривается библиотечная политика государства в формировании библиотечно-информационной деятельности. Особо подчеркивается, что оснащение библиотек специализированными кадрами, формирование их материально-технической базы является приоритетом государственной библиотечной политики, а также нового мировоззрения, нового мышления и других вопросов, которые формируются и совершенствуются при формировании общество исследуется.*

***Ключевые слова:*** *библиотека, политика, государство, право, общество, книгоиздание.*

## KİTABŞÜNASLIQ VƏ NƏŞRİYYAT İŞİ

==========

**Knyaz İlyas oğlu Aslan**
***Bakı Dövlət Universiteti***
***Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri,***
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
knyazaslan@bsu.edu.az
*Orcid it: 0000-0003-2710-3758*

# XURŞİDBANU NATƏVANIN ƏDƏBİ İRSİ HAQQINDA SƏNƏD İNFORMASİYA MƏNBƏLƏRİ

***Xülasə:*** *Xurşidbanu Natəvan (Xurşidbanu Natəvan xanım Cavanşir-Usmiyeva; 1832-1897) çağdaş Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında özünəməxsus mövqeyi olan sənətkarlardan biridir.*

*Xurşidbanu Azərbaycanın mədəniyyət beşiyi Şuşada dünyaya gəlmişdir, xalq arasında isə "Xan qızı" ləqəbi ilə çağırmışlar.*
*İlk qələm təcrübələrini "Xurşid" imzası ilə yazmışdır. Sonralar isə o, özünə "köməksiz, zəif, xəstə" mənasını verən "Natəvan" təxəllüsünü götürmüş, müxtəlif məzmunlu qəzəlləri ilə məşhurlamışdır.*

*Şairin şeirləri öz sağlığında həm şifahi, həm də əlyazma şəklində yayılmışdır. Lakin bu şeirlərin əksəriyyəti sonralar itib-batmış, az bir hissəsi bu günümüzə gəlib çatmışdır.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Xurşidbanu Natəvan Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.*

*Məqalədə mövcud mənbələr əsasında Xurşidbanu Natəvanın çapdan çıxmış əsərlərinin nəşr tarixinə aydınlıq gətirilmiş, müəyyən dəqiqləşdirmələr aparılmış, eyni zamanda sənətkarın ədəbi irsini özündə əks etdirən sənəd informasiya mənbələri haqqında ətraflı məlumat verilmişdir.*

***Açar sözlər:*** *Qarabağ xanlığı, Şuşa şəhəri, Azərbaycan mədəniyyəti, Azərbaycan ədəbiyyatı, Qarabağ ədəbi mühiti, şair, rəssam, qəzəl*

Xurşidbanu Natəvan (Xurşidbanu Cavanşir; 1832-1897) çağdaş milli ədəbiyyatın və mədəniyyətin inkişafında özünəməxsus mövqeyi olan sənətkarlardan biridir. Azərbaycanın mədəniyyət beşiyi Şuşada dünyaya göz açan Xurşidbanu Qarabağ xanlığının qurucusu Pənahəli xan Cavanşirin nəticəsi, İbrahimxəlil xanın nəvəsi, Mehdiqulu xanın qızıdır. Ailə içində "Dürrü yekta" ("Tək inci"), yəni "Xanlığın yeganə varisi", xalq arasında isə "Xan qızı" ləqəbi ilə çağrılan bu istedadlı qız yeniyetməliyindən saray tərbiyəsi görmüş, görkəmli alim və sənətkarlardan dərs almış, Şərq dillərini öyrənmiş, şeirə, rəsmə, musiqiyə həvəs göstərmiş, şəxsi mütaliəsi ilə dünyagörüşünü xeyli zənginləşdirmişdir. Əsil-nəcabətli ailədə, iflasa uğrayan Xan ocağında böyüsə də sadə, çətin, lakin şərəfli ömür yolu keçmişdir. Xoşbəxt ailə qurmaq arzusu puç olan Xan qızı el-obaya təmənnasız xeyirxahlığı, qayğıkeşliyi, ədaləti, səmimiyyəti, qətiyyəti ilə ad-san qazanmışdır.

Xurşidbanu Natəvan ədəbi yaradıcılığa "Xurşid" (günəş) imzası ilə başlamış, sonralar "köməksiz" mənasını verən "Natəvan" təxəllüsünü götürmüş, fəlsəfi məzmunlu qəzəlləri ilə məşhurlamışdır. Xalq poeziyasını, aşıq şeirini, klassik irsi yetərincə mənimsəyən Natəvan milli ədəbi ənənələri öz poetik örnəkləri ilə şərəfləndirməyə nail olmuşdur.

Şairənin poeziyası məzmununa görə dörd qismə ayrılır: aşiqanə lirik şeirlər, təbiət gözəlliklərinə dair şeirlər, adlı-ünvanlı ithaf şeirləri, kədərli-hüznlü şeirlər.

Görkəmli ədəbiyyatşünas alim Məsud Əlioğlunun sözləri ilə desək, "Natəvanın zəngin, dolğun və mənalı yaradıcılığı ilə yanaşı, həyatı da başdan-başa poeziyadır. Bu həyatın məna, fikir, doğruluq və gözəllik dolu mərhələlərinə baş vurduqca insan qəlbən zənginləşir".

Şairənin qəzəlləri öz sağlığında həm şifahi, həm də əlyazma şəklində yayılsa da, onların əksəriyyəti sonralar itib-batmış, bu günə az bir hissəsi gəlib çatmışdır. Kitablarına daxil edilən şeirlərinin çoxu ailə düşmənlərinin təfriqəsi nəticəsində böyük oğlu Mehdiqulu xanın evdən baş götürərək uzaq vilayətlərə getməsinin həsrətinə, bu hadisədən sonra 16 yaşlı oğlu Mir Abbasın nakam ölümü ilə bağlı çəkdiyi sonsuz iztirablara həsr edilmişdir.

1930-cu illərdən indiyə qədər Xurşidbanu Natəvanın həyatı və yaradıcılığına dair Salman Mümtaz, Hənəfi Zeynallı, Əliabbas Müznib, Fazil Seyidov, Feyzulla Qasımzadə, Məsud Əlioğlu, Bəylər Məmmədov, Nəsrəddin Qarayev, Cəmil Tağıyev, Mustafa Çəmənli, Paşa Əlioğlu və başqaları əhatəli araşdırmalar aparmış, haqqında məqalələr, elmi əsərlər, kitablar nəşr etdirmişlər.

"Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 14 mart 2022-ci il tarixli Sərəncamında deyilir: "Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir "[1].

Xurşidbanu Natəvanın əsərləri ilk dəfə kitab şəklində 1928-ci ildə Azərnəşrdə (Azərbaycan Dövlət Nəşriyyatı) çap edilmişdir. "Natəvan (Xurşid Banu)" adlı bu kitab ərəb qrafikalı əski əlifba ilə "On doqquzuncu əsr Azəri ədəbiyyatı" seriyasında buraxılmışdır. Cəmi 82 səhifədən ibarət olan, 5 min nüsxə tirajla çıxan kitabın redaktoru Hənəfi Zeynallıdır. O, həm də şairənin həyat və yaradıcılığı barədə ümumi məlumat xarakterli ön söz yazmışdır. Kitaba Natəvanın 38 şeiri, eləcə də ona həsr edilmiş mənzumələr, qəzəllərinə yazılmış nəzirələr daxil edilmişdir[7].

Əlyazmaşünas alim, filologiya elmləri doktoru Paşa Əlioğlunun axtarışları nəticəsində məlum olur ki, həmin kitabın tərtibçisi 1938-ci ildə Stalin repressiyasının qurbanı olmuş görkəmli şair-tədqiqatçı Əliabbas Müznibdir. Lakin bəlli olmayan səbəblərdən onun adı titul səhifəsində qeyd edilməmişdir. Belə ki, Paşa Əlioğlu Əlyazmalar İnstitutunun fondunda "Natəvan Xuşidbanu" kitabının çap edilməmiş ikinci nəşrinin əlyazmasını tapmışdır. Onun məlumatına görə, 218 səhifəlik bu məcmuədə toplanan materiallar, Natəvanın şeirləri, həyat və yaradıılığı, ədəbi aləmdə nüfuzu, əsərlərinə yazılan nəzirələr barədə məlumatlar həcmcə birinci nəşrdən xeyli çoxdur.

Alim eyni zamanda həmin əlyazmanın xəttinin görkəmli ədəbiyyatşünas Əliabbas Müznibə məxsus olduğunu, tədqiqatçının 193-

cü səhifədə adını öz əli ilə yazdığını, "1934-cü ilin mayı" tarixini qoyduğunu, sonradan tədqiqatının davamı olaraq "Natəvanın həcv edilməsi və həcvin təsiri" adlı hissə də əlavə etdiyini müəyyənləşdirmişdir [13].

Bunlarla yanaşı, Paşa Əlioğlu Natəvanın indiyədək çapdan çıxan kitablarına daxil edilməmiş "And verirəm" və "Zeynəb" rədifli şeirləri mətbuat vasitəsilə oxuculara çatdırır [13].

Müqayisə üçün əlavə edək ki, elə 1928-ci ildə Azərnəşrdə məhz Hənəfi Zeynallının redaktorluğu ilə Əliabbas Müznibin toplayıb tərtib etdiyi "Aşıq Pəri və müasirləri. XIX əsrin birinci yarısı" adlı 116 səhifəlik kitabı çapdan çıxmış, orada Müznibin adı göstərilmişdir.

Beləliklə, ayrıca vurğulamalıyıq ki, 1928-ci il nəşri bir sıra xüsusiyyətlərinə görə Natəvanın ədəbi-bədii irsinin öyrənilməsi və araşdırılması baxımından mühüm əhəmiyyətə malikdir.

1938-ci ildə Azərnəşrin Bədii ədəbiyyat şöbəsi "Natəvan (Xurşid-banu). Şeirlər" adlı kitab nəşr etmişdir. Latın qrafikalı Azərbaycan əlifbasında çıxan kitabın əvvəlində rəssam Əmir Əmirzadənin çəkdiyi "Natəvan" portretinin ağ-qara rəngli reproduksiyası verilmişdir. Kitabın səhifələri bir-birini tamamlayan ornamentlərlə bəzədilmişdir. Tirajı 5 min nüsxə olan 68 səhifəlik kitabın redaktoru və "Bioqrafiya (1836-1897)" adlı ön sözün müəllifi Məmməd Rahimdir. Göründüyü kimi, məqalənin başlığında o, Natəvanın doğum tarixini nədənsə 1832-ci il deyil, "1836" kimi göstərmiş, lakin mətndə onu hansı mənbədən aldığını, hansı rəsmi sənədə əsaslandığını izah etməmişdir. Burada şairənin ölüm tarixi isə 1897-ci il olaraq düzgün qeyd olunmuşdur [8, s.3].

Yeri gəlmişkən, görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli də “Azərbaycan ədəbiyyatı tarixi materialları” əsərində Xurşidbanu Natəvanın təvəllüd tarixini 17 avqust 1837-ci il kimi göstərir. Lakin son tədqiqatlarda bu tarix bəzən 1830, əksər hallarda isə 1832-ci kimi təsdiqlənir.

Məmməd Rahim ön sözdə yazır: "Natəvan XIX əsrin məşhur Azərbaycan şairlərindəndir. Öz istedadı və yaradıcılığı ilə tanınmış olan bu şairə istər müasirlərinə, istərsə özündən sonra gələn bir sıra şairlərə təsir etmişdir. Əlimizə son dərəcə az qəzəlləri keçsə də, Natəvan

demək olar ki, ədəbiyyat tarixində özünə görə müəyyən yer tutmuşdur" [8, s.3].

Kitabda Natəvanın 39 qəzəli (Varımdı sinədə dərdü qəmi-nəhan, ölürəm; Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı; Şuri-eşqin başıma axırı sövda gətirir; Zəmanə saldi əcəb mohnətu məlalə məni və s.) verilmişdir. Sonra "Natəvana nəzirələr və Natəvan haqqında şeirlər", "Natəvanın "Məclisi-üns"dən ayrılıb Tiflisdə yaşaması haqqında", "Mirzə Fətəli Axundov Səbuhinin Natəvan haqqında Qasım bəy Zakirə məktubu", "Natəvanın qızı Xanbikənin şeiri", "Məclisi-üns"ün dağılması" başlıqları altında cəmi 10 əsər öz əksini tapmışdır [8].

1956-cı ildə Azərbaycan Dövlət Nəşriyyatı "Xurşid banu Natəvan" kitabını 20 min nüsxə tirajla çapdan buraxmışdır. Kiril qrafikası ilə nəşr edilən, 80 səhifədən ibarət olan bu kitabın, tərtibçisi və ön sözün müəllifi Fazil Seyidov, redaktoru Məmmədağa Sultanovdur.

Qəribə də olsa, bu kitabın tərtibçisi və ön sözün müəllifi, filologiya elmləri namizədi Fazil Seyidov şairənin anadan olduğu tarixlə bağlı Məmməd Rahimin 1938-ci il nəşrindəki məlumatı bir rəqəm fərqlə qeyd etmiş, daha doğrusu, "Xurşid banu Natəvan" başlığının altında mötərizədə onun olum-ölüm tarixlərini "1837-1897" kimi göstərmişdir.

Fazil Seyidov ön sözdə yazır: “Təəssüflə qeyd etmək lazımdır ki, Xurşidbanu Natəvanın əsərləri toplanmış bir divan şəklində hələ tapılmamışdır. Onun müxtəlif əlyazma cünglərdə və təzkirələrdə qeyd edilən əsərlərindən başqa, aftoqrafı ilə bəzi şeirləri öz albomunda yazılmışdır.

Oxucuların nəzərinə təqdim etdiyimiz bu şeirlər məcmuəsində Natəvanın indiyədək yarımçıq dərc edilən bəzi şeirləri bütünləşdirilmiş, indiyədək Natəvanın mətbu şeirlərində yol verilmiş nöqsanlar əlyazmalarına əsasən islah edilmişdir”[9, s.4-5].

Yeni nəşrdə Natəvanın 39 qəzəli, sonra isə onun haqqında yazılan şeir və mənzum məktublar ("Qasım bəy Zakirin Natəvan haqqında yazdığı şeirlər", "M.F.Axundovun Natəvan haqqında Qasım bəy Zakirə yazdığı məktub", "Mir Möhsün Nəvvabın Natəvana məktubu" və s.) öz əksini tapmışdır. Sonda şairənin əsərlərində rast gəlinən ərəb və fars sözlərinin lüğəti verilmişdir.

1981-ci ildə "Gənclik" nəşriyyatı kiril qrafikasında "Xurşidbanu Natəvan. 33 qəzəl" adlı kitabça çap etmişdir. Bu yaşıl cldli kitabçanın üz qabığında Natəvanın rəsmi, arxasında isə güllər içində iki bülbül təsvir olunmuşdur. Kitabın forzasında da həmçinin Natəvanın rəsmi, üzərində isə ağac və bülbüllər təsvir olunmuşdur. Nəfis tərtibatlı kitabçada qəzəllərdən sonra verilən rəsmlər oxucu zövqünü oxşayır. Titul səhifəsində isə Xan qızının portreti verilmiş, üzərində isə bu beyt yazılmışdır: "Səni aquşə çəkdi xaki-siyah, Eşqdən bağrım oldu qan, əfsus!" [10].

36 səhifə həcmində olan, 25 min nüsxə tirajla buraxılan kitabçada, adından da göründüyü kimi, Natəvanın 33 seçmə qəzəli öz əksini tapmışdır. Bu nəşr şairənin: "Səhərgəh nagahan gördüm dili-zarım nihan ağlar, Sirişki-alilə hərdəm çəkər ahü fəğan ağlar" - beyti ilə başlayan qəzəl i ilə açılır, "Nə ev xayalı, nə də fikri-aşiyanə mənə Ki, bəsdir unsi-fərağət misalı lanə mənə" - beyti ilə başlayan qəzəli ilə tamamlanır.

Şairənin növbəti kitabı 1984-cü ildə "Yazıçı" nəşriyyatı tərəfindən "Xurşidbanu Natəvan. Əsərləri" adı ilə kiril qrafikasında çap olunmuşdur. Nəşrin tərtibçisi və ön sözün müəllifi əslən Şuşadan olan, Natəvanın həyat və yaradıcılığının hərtərəfli tədqiq edən filologiya elmləri namizədi Bəylər Məmmədov, redaktoru Adil Cəmildir. Kitabın qara rəngli üz qabığında gül və bülbül rəsmləri təsvir olunmuş, titul səhifəsində şairənin portreti verilmişdir.

Annotasiyada qeyd olunur ki, Füzuli poeziyasından bəhrələnən Xan qızının qəzəllərindəki incə lirizm, dərin məzmun, yüksək emosiya onu bir sənətkar kimi zamanın yaddaşından silinməyə qoymamış və illər keçdikcə Natəvan lirikası öz təravətini saxlamışdır" [11].

Bəylər Məmmədov ön sözdə görkəmli şairənin həyatı, yaradıcılığı, milli mədənyyətimizə xidmətləri haqqında geniş söz açmışdır.

Tirajı 30 min nüsxə olan 100 səhifəlik kitabda Natəvanın 44 qəzəli, sonda isə şairənin qəzəllərdə işlətdiyi ərəb və fars sözlərinin lüğəti verilmişdir.

Bəylər Məmmədovun məlumatına görə, "Məşhur xatunlar" (1904), "Riyazül-aşiqin" (1910), "Şükufə" (1910), "Təzkireyi-Nəvvab" (1913), "Türkcə qəzəllər" (1917) və "Azərbaycan ədəbiyyatı tari-

xi materialları" (1926) təzkirə və kitablarında Natəvana dair oçerklər verilmiş, əsərlərindən nümunələr gətirilmişdir[6, s.17].

Alim qeyd edir ki, XX əsrin ilk yarısında Natəvanın şeirlər məcmuəsi bir neçə dəfə çapdan çıxmışdır. Onun bədii irsi 1937-ci ildən rus dilinə tərcümə olunaraq Moskvada, Leninqradda və Bakıda çıxan ədəbi jurnallarda, antologiyalarda işıqlandırılmışdır. Əvvəlki nəşrlərdən fərqli olaraq, bu dəfə oxuculara təqdim edilən kitabda şairənin əl-yazmalarına əsasən üslub və ifadə qüsurlarından təmizlənmiş, vəzn pozuntuları, beyt çatişmazlıqları nisbətən aradan qaldırılmışdır. Kitaba Natəvanın sonradan tapılan mənzumələri də daxil edilmişdir[6, s.17-18].

Kitabın 78-79-cu səhifələrində Qarabağın görkəmli ziyalısı, şair, rəssam, xəttat, naşir Mir Mövsün ağa Nəvvabın 1910-cu ilə aid olan fotoşəkli verilmiş, sonra isə Nəvvabın məktubuna Natəvanın beş bəndlik cavab şeiri dərc edilmişdir.

Bəllidir ki, Natəvan 1872-ci ildə Nəvvaba "Məclisi-fəramuşan" ("Unudulmuşların məclisi") ədəbi məclisini yaratmasına da köməklik göstərmişdir. Nəvvab da Natəvana qayğı ilə yanaşmış, "Məclisi-üns", "Məclisi-fəramuşan" ədəbi məclislərində birgə fəaliyyət göstərmiş, onunla ünsiyyət qurmuşdu. Nəvvab 1884-cü ilin əvvəlində Şuşada təşkil etdiyi mətbəədə bir çox Qarabağ şairlərinin kitablarını çap etmişdi. Bu dövrdə cavan oğlunu itirən Natəvan intəhasız sarsıntı keçirdiyinə, xəstələndiyinə görə bir müddət ədəbi məclisdən uzaqlaşmışdı. Nəvvab dərin rəğbət bəslədiyi şairəyə 7 bəndlik qoşma şəklində məktub göndərmiş, "Mənim qəsdim budur, banuyi-əzəm! Sizin əşarınız olsun müqəddəm" - deyə təmənnasız olaraq onun kitabını çap etmək arzusunu bildirmişdi.

Natəvan bu məktubdan ruhlanaraq, onun cavabında minnətdarlıq hissi ilə "Əya, Nəvvab, valayi-süxəndan, Yetişdi namənіz dilşad oldum" -misraları ilə başlanan mənzum cavab yazmışdı. Təəssüf ki, o, öz əsərlərini toplayıb Nəvvaba göndərməmiş, şeirlər toplusu nəşr olunmamışdı...

Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə həmin il "Lider Nəşriyyat" "Xurşidbanu Natəvan.

Əsərləri" kitabını çapa hazırlamışdır. Bu kitab 1984-cü ildə Bəylər Məmmədovun tərtib etdiyi və ön söz yazdığı nəşr əsasında təkrar çapdan buraxmışdır. Kitabın üz qabığı naxışlarla bəzədilmiş, həmçinin Xan qızının heykəlinin təsviri verilmişdir. Kitab "Klassik Azərbaycan ədəbiyyatı" seriyası ilə "Şərq-Qərb" mətbəəsində 25 min nüsxə tirajla çap olunmuş, respublika kitabxanalarına hədiyyə edilmişdir.

Cəmi 88 səhifə həcmində olan kitabda Natəvanın 44 qəzəli verilmiş, şeirlər mövzuya uyğun illüstrasiyalarla əhatə olunmuşdur [12].

"Xurşidbanu Natəvanın 180 illik yubileyinin keçirilməsi haqqında" Prezident İlham Əliyevin 3 aprel 2012-ci il tarixli Sərəncamına uyğun olaraq həmin il Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Təhsil" nəşriyyatında "Xurşidbanu Natəvan. Neçin gəlməz" adlı kitab işıq üzü görmüşdür. Cəmi 500 nüsxə tirajla 160 səhifə həcmində buraxılmış kitabın naşiri Bəhruz Axundov, tərtib edəni Mustafa Çəmənli, elmi redaktoru və ön sözün müəllifi Paşa Əlioğludur.

Annotasiyada verilən məlumata görə, Natəvanın dəfələrlə işıq üzü görmüş əsərlərinin əvvəlki nəşrlərindən fərqli olaraq bu yeni tərtib əslində kitab içində kitabdır. Bu topluya istedadlı şairənin şeirləri və öz əli ilə çəkdiyi rəsmləri ilə yanaşı, həyatından maraqlı əhvalatlar, müasirlərinin, eləcə də Natəvansevərlərin xatirələri və məqalələri toplanmışdır. Kitaba ayrı-ayrı şairlərin Natəvana həsr etdikləri şeirlərdən nümunələr, heykəltəraşların yaratdıqları abidələrin, rəssamların çəkdikləri tabloların reproduksiyaları da daxil edilmişdir[13].

Mustafa Çəmənli "Tərtibçidən" adlı giriş sözündə bu kitabın adına belə aydınlıq gətirir: "Xan qızı Natəvanın bu yeni nəşrində şairənin şeirləri, rəsmləri, həyatı, şəxsiyyəti və ədəbi irsi haqqında yazılmış xatirələrin də toplandığını nəzərə alaraq, onun məşhur qəzəllərindən birinin – "Neçin gəlməz" adı ilə nəşr olunmasını münasib bildik. Ad şərti olsa da, fikrimizcə, bu ad həm şairənin yaşantısını, həm də bütövlükdə onun lirikasının leytmotivini özündə daha aydın şəkildə əks etdirir"[13, s.10].

Paşa Əlioğlunun yazdığı "Xurşidbanu Natəvanın irsi" adlı məqalə isə şairənin həyat və yaradıcılığına ayna tutur. Müəllif kölgədə qalmış bir sıra faktları oxucuların diqqətinə çatdırmış, Natəvan haqqında təsəvvürləri daha da genişləndirmişdir[13, s.20].

Kitabın “Əsərləri” hissəsinə Natəvanın 45 qəzəli daxil edilmişdir.

“Məclisi-üns xatirələrdə” bölməsi isə Mirzə Rəhim Fənanın, Mir Həsən Mir Haşım oğlu Ağamirovun qeydlərini, eləcə də məclis üzvlərinin birgə yazdığı “Beytləşmə”ni əhatə edir. “Məclisi-üns” və “Məclisi-fəramuşan” ədəbi məclislərinin tanınmış şairlərinin şəkillərinin təqdim olunması da kitabın üstün cəhətlərindəndir.

Daha sonra “Gül dəftəri” bölməsi gəlir. Xatırladaq ki, tədqiqatçı Bəylər Məmmədov 1983-cü ildə belə bir məlumat vermişdi: "Natəvanın 1886-cı ildə tərtib etdiyi və hazırda Respublika Əlyazmaları fondunda (indiki M.Füzuli adına Əlyazmalar İnstitutu – K.A.) saxlanılan 227 səhifədən ibarət "Gül dəftəri" adlı məşhur albomunda on üç şeiri, naturadan çəkdiyi təsvirlər və müasirlərinin lirik parçaları toplanmışdır. Şairlərdən R.M.Fəna, M.Məmai, H.Yüzbaşıyev albomdakı tikmə və şəkillərə mənzumələr həsr etmiş və Xurşidbanunun sənətkarlığını Şərqin məşhur rəssamları, nəqqaşları ilə müqayisədə qiymətləndirmişlər" [11, s.16].

Bu barədə haqında söz açdığımız kitabın tərtibçisi Mustafa Çəmənli yazır: “2011-ci ildə M.Füzuli adına Əlyazmalar İnstitutuna gedib şairənin “Gül dəftəri” ilə tanış oldum... Təəssüflər olsun ki, dəfələrlə qəzəlləri Azərbaycan və rus dillərində çap olunan (1983) şairənin elm aləminə 1938-ci ilin mart ayından bəlli olan “Gül dəftəri”ndəki rəsmləri bu nəşrə qədər bütöv halda çap olunmamışdır... Bu rəsmlərin çapa yararlı olub-olmamasını müəyyənləşdirmək niyyəti ilə uzun illər kitab qrafikası ilə məşğul olmuş rəssam Abdulla Ələkbərovla Əlyazmalar İnistutunun direktor əvəzi, filologiya üzrə fəlsəfə doktoru Paşa Əlioğlunun yanında olduq və bir daha bu rəsmləri nəzərdən keçirdik. Abdulla müəllim bir mütəxəssis kimi rəsmlərin çapının mümkün olduğunu söylədi” [13, s.7-8].

Beləliklə, nəşri uzun illərdən sonra gerçəkləşdirilən “Gül dəftəri”ndən seçmələr, o cümlədən dəftərin cildinin üz və son səhifələrinin şəkli Natəvanın 2012-ci ildə işıq üzü görmüş “Neçin gəlməz” kitabına daxil edilmişdir [13, s.93-112].

Sonra “Natəvanın mülkü. Şuşa”, “Natəvan bulağı. Şuşa” rəsmləri verilmişdir. Səhifə 133-dən başlayaraq isə Qasım bəy Zakir, Səməd

Vurğun, Hüseyn Arif, Əliağa Kürçaylı, Hökumə Billuri və s. tərəfindən Xurşidbanu Natəvana həsr olunmuş şeirləri verilmişdir.

Kitabın cildində Natəvanın portreti təsvir olunsa da, titul səhifəsində rəssamın adı qeyd olunmamışdır. Halbuki 147-ci səhifədə "Xurşidbanu Natəvan" adlı həmin portret yenidən verilmiş, bu əsərin müəllifinin rəssam Altay Hacıyev olduğu göstərilmişdir. Titul səhifəsindən əvvəl Natəvanın ağ-qara təsvirli portreti də yerləşdirilmiş, şəklin altında isə şairin bir beyti verilmişdir. Bu portretin müəllifi də qeyd olunmamışdır. Həmin portretin "Xurşidbanu Natəvanın obrazı təsviri sənətdə" bölümündə verilməsi və onun rəssamın adının qeyd edilməsi məqsədəuyğun olardı.

Beləliklə, müxtəlif illərdə Azərbaycan nəşriyyatları tərəfindən Xurşidbanu Natəvanın əsərləri indiyə kimi cəmi 7 dəfə kitab şəklində çap edilmişdir ki, onun da 5-i sovet dövrünə aiddir. Üstəlik sovet dövründə nəşr edilmiş kitabların ümumi tirajı 85 min nüsxə, müstəqillik illərində çıxmış iki kitabın birlikdə tirajı isə 25 min 500 nüsxədir.

Müqayisə üçün qeyd edək ki, Pezidentin Sərəncamı ilə 2004-cü ildə "Lider Nəşriyyat" tərəfindən çap olunan kitab 1984-cü il nəşrinin təkrarı olduğundan Xurşidbanu Natəvanın ədəbi-bədii irsini tam və müfəssəl şəkildə özündə əks etdirmir. 2012-ci ildə "Təhsil" nəşriyyatının təqdim etdiyi kitab isə öz tematik məzmununa və əhatə dairəsinə görə daha genişdir.

Elə bu ərəfədə elektron mediada yayılan xəbərdə "Qarabağdan doğan Günəş və Ay. Xurşidbanu Natəvan. Fatma xanım Kəminə" kitabının işıq üzü gördüyü bildirilir. 2022-ci il iyulun 26-da Ankarada, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un qərargahında Azərbaycan Milli Məclisi Mədəniyyət Komitəsi, Azərbaycanın Türkiyədəki Səfirliyi və Türk Ədəbiyyatı Fondunun birgə əməkdaşlığı ilə həmin kitabın təqdimat mərasimi keçirilmişdir. Təqdimatda TÜRKSOY-un Baş katibi Sultan Raev, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri Aygün Attar, Ankara Keçiören Bələdiyyəsinin sədri Turqut Altınok və digər qonaqlar iştirak etmişlər.

Burada bir məqama da aydınlıq gətirmək lazım gəlir. Bir sıra müəlliflər "Məclisi-üns" ədəbi məclisinin əsasının 1872-ci ildə Xurşidbanu Natəvan tərəfindən qoyulmasını yazırlar. Əslində isə bu məslis Şuşada şair Mirzə Rəhim Fənanın təşəbbüsü ilə 1864-cü ildə görkəmli alim Mirzə Əbdülqasımın mədrəsəsində təşkil edilmişdi. Akademik Feyzulla Qasımzadənin də təsdiqlədiyi kimi, ilk vaxtlar cəmi dörd üzvü olan məslisin məşğələləri şair Hacı Abbas Agahın evində keçirilirdi. 1872-ci ildə isə Natəvan "Məclisi-üns"ü öz himayəsinə götürmüş, 20 ilə yaxın bu ədəbi məclisə uğurla rəhbərlik
etmişdir. Bu dövrdə otuza yaxın fəal şairi özündə birləşdirən məclisin şöhrəti Qarabağdan kənarda da yayılmışdı. Təsadüfi deyil ki, tədqiqatçı Bəylər Məmmədov Natəvanı "Məclisi-üns"ün ürəyi adlandırmışdır.

İftixarla vurğulamalıyıq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Xurşidbanu Natəvan Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir [3].

Vaxtilə Xan qızı yazırdı:

**Şuri-eşqin başıma axırı sövda gətirir,**
**Bu müşəxəssdi ki, eşq aşiqə qovğa gətirir.**
**Gül üzün görmək əgər mümkün olaydı bir dəm,**
**Hər zaman görmək onu nuri-mücəlla gətirir.**
**Sidqi-qəlb ilə nisar etmiş idin can nəqdin,**
**Natəvan, müjdə bu gün, qətlinə fərman gətirir.**

Amma bu gün unudulmaz şairəmizin ruhuna ehtiramla son misranı bu cür dəyişməyə özümüzü haqlı saya bilərik:

**Natəvan, müjdə bu gün, vəslinə fərman gətirir.**

Bu gün qürurla deyirik ki, Ali Baş Komandanımızın, Silahlı Qüvvələrimizin Qarabağ hünəri, Şuşa zəfəri, Vətən səfəri, Azadlıq səhəri azğın erməni quldurları tərəfindən abidələri güllələnmiş, məqbərələri dağıdılmış, qəbirləri təhqir edilmiş, evləri yağmalanmış, əlyazmaları, kitabları, əşyaları yandırılmış neçə-neçə Natəvanlarımızın, Üzeyirbəylərimizin, Bülbüllərimizin narahat ruhlarını əbədi rahatlığa qovuşdurdu...

Natəvan o zamanlar ürək sızıltısı ilə deyirdi:

**Rəqib töhməti etdi məni cüda, ey dust!**
**Bu zülmü gördü rəva, görməsin səfa, ey dust!**
**Çağırram Allahımı, hali-Natəvan ilə**
**Məgər ki, tez verə həqq düşmənə cəza, ey dust!!**

Bu gün vüqarla deyirik ki, əziz şairə nənəmiz, azğın düşmən çoxdan gözlənilən cəzasını aldı, "Dəmir yumruq"la başı əzildi. İndi Prezident İlham Əliyevin Sərəncamı ilə elan olunmuş "Şuşa ili" çərçivəsində əsası Xan qızının ulu babası Pənahəli xan tərəfindən qoyulmuş Şuşa şəhərində – Türk Dünyasının mədəniyyət paytaxtında 190 yaşlı Xan qızının yubileyinin təntənəli şəkildə qeyd ediləcəyini ümidlə gözləyirik. Görkəmli şairəmiz Xurşidbanu Natəvanın ədəbi-bədii irsinin tam şəkildə araşdırılması, əsərlərinin mükəmməl nəşri bu yubileyə ən layiqli töhfə ola bilər.

## ƏDƏBİYYAT

*1. Xurşidbanu Natəvanın 180 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: İlham Əliyev: 3 aprel 2012-ci il, № 2122 / https://e-qanun.az/framework/23227*

*2. Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 14 mart 2022-ci il tarixli // https://president.az/az/articles/view/55616*

*3. "Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları"nın və "Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı"nın təsdiq edilməsi haqqında": Azərbaycan Respublikası Nazirlər Kabineti: 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərar / https://nk.gov.az/az/document/3685*

*4. Əlioğlu, Paşa. Natəvanın iki qeyri-mətbu şeiri // 525-ci qəzet, 2012, 8 sentyabr.*

*5. Qasımzadə, Feyzulla XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. - Bakı: Maarif, 1974. - 488 s.*

*6. Məmmədov, Bəylər. Xurşid Banu Natəvan. - Bakı: Yazıçı, 1983. - 158 s.*

*7. Natəvan, Xurşidabanu. Şeirlər. – Bakı: Azərnəşr, 1928. - 82 s.*

*8. Natəvan, Xurşidabanu. Şeirlər. – Bakı: Azərnəşr, 1938. - 68 s.*

*9. Natəvan, Xurşidabanu. Əsərləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1956. - 72 s.*

*10. Natəvan, Xurşidabanu. 33 qəzəl. - Bakı: Gənclik, 1981. - 100 s.*

*11. Natəvan, Xurşidabanu. Əsərləri. - Bakı: Yazıçı, 1984. - 100 s.*

*12. Natəvan, Xurşidabanu. Əsərləri. - Bakı: Lider Nəşriyyat, 2004. - 88 s.*

*13. Natəvan, Xurşidabanu. Neçin gəlməz. - Bakı: Təhsil, 2012. - 160 s.*

***Knyaz Ilyas oglu Aslan***

## *SOURCES OF INFORMATIONABOUT THE LITERARY HERITAGE OF KHURSHIDBANU NATAVAN*

***Summary:*** *Khurshidbanu Natavan (Khurshidbanu Natavan khanim Javanshir-Usmiyeva; 1832-1897) is one of the artists who has a unique position in the development of contemporary Azerbaijani literature and culture.*

*Khurshidbanu was born in Shusha, the cultural cradle of Azerbaijan, and was called "Khan's daughter" among the people.*

*He wrote his first pen experiments under the signature "Khurshid". Later, he took the nickname "Natevan" which means "helpless, weak, sick" and became famous with his ghazals of various contents.*

*The poet's poems were spread both orally and in manuscript during his lifetime. However, most of these poems were later lost and only a few have survived.*

*According to the Resolution No. 211 of the Cabinet of Ministers of the Republic of Azerbaijan, dated May 7, 2019, Khurshidbanu Natavan was included in the list of authors whose works were declared state goods in the Republic of Azerbaijan.*

*Based on the available sources, the article clarified the publication date of Khurshidbanu Nateva's out-of-print works, made certain clarifications, and at the same time gave details about the information sources of the document containing the literary heritage of the artist.*

***Key words:*** *Karabakh Khanate, Shusha city, Azerbaijani culture, Azerbaijani literature, Karabakh literary environment, poet, artist, ghazal.*

***Князь Ильяс оглы Аслан***

# *ИСТОЧНИКИ ИНФОРМАЦИИ О ЛИТЕРАТУРНОМ НАСЛЕДИИ ХУРШИДБАНУ НАТАВАН*

***Резюме:*** *Хуршидбану Натаван (Хуршидбану Натаван ханым Джаваншир-Усмиева; 1832-1897) - один из художников, занимающих уникальное место в развитии современной азербайджанской литературы и культуры.*

*Хуршидбану родилась в Шуше, культурной колыбели Азербайджана, и в народе называлась «ханской дочерью».*

*Свои первые опыты с пером он написал под подписью «Хуршид». Позже он взял прозвище «Натеван», что означает «беспомощный, слабый, больной», и прославился своими газелями различного содержания.*

*Стихи поэта распространялись как в устной, так и в рукописной форме еще при его жизни. Однако большая часть этих стихов впоследствии была утеряна, и до нас дошли лишь немногие.*

*Согласно Постановлению № 211 Кабинета Министров Азербайджанской Республики от 7 мая 2019 года, Хуршидбану Натаван включена в список авторов, произведения которых объявлены государственными товарами в Азербайджанской Республике.*

*На основе имеющихся источников в статье уточнена дата публикации вышедшего из печати произведения Хуршидбану Натева, сделаны некоторые уточнения, а вместе с тем даны подробности об источниках информации документа, содержащего литературное наследие художницы.*

***Ключевые слова****: Карабахское ханство, город Шуша, азербайджанская культура, азербайджанская литература, карабахская литературная среда, поэт, художник, газель.*

**Sevda Feyruz qızı Quliyeva**
***Bakı Dövlət Universiteti***
***"Kitabşünaslıq və nəşriyyat işi" kafedrası,***
***Filologiya üzrə fəlsəfə doktoru***
*sevda.bdu @gmail.com*

# HEYDƏR ƏLİYEV VƏ KİTAB NƏŞRİ

***Xülasə:*** *Kitab nəşri hər bir xalqın mədəniyyətində, milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında və gələcək nəsillərə çatdırılmasında, insanların ictimai həyatında mühüm yer tutan faktorlardan biridir. Məqalədə Ümumilli Lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu və kitab nəşri sahəsindəki əvəzsiz xidmətləri tədqiq edilmişdir. Ulu öndər Heydər Əliyevin fəaliyyəti zamanı dövrün mühüm hadisələrindən biri kimiyeni nəşriyyatların təsis edilməsi, kitab nəşri repertuarında milli ədəbiyyatın geniş yer tutması məsələləri ümumiləşdirilərək kompleks şəkildə şərh edilmişdir.*

***Açar sözlər****: Ümumilli Lider, kitab, nəşr, elm, təhsil, mədəniyyət.*

**Giriş**. XX əsrin 70-80-ci illərində respublikamızda baş verən ümumi milli yüksəliş xalqımızın tarixi keçmişinə marağı artırmış, milli mənəvi həyatda dirçəlişə səbəb olmuşdur. Kitab nəşri və milli mətbuatın inkişafı sahəsində mühüm işlər görülmüş, kütləvi informasiya vasitələri şəbəkəsi genişlənmiş, xalqın milli dirçəlişində, ideya-siyasi tərbiyəsində onun rolu artmışdır. 1970-ci ildə respublikada 234 qəzet, jurnal və məcmuə nəşr edilirdi. "Qobustan", "Sovet Türkologiyası", "Azərbaycan təbiəti" kimi jurnalların nəşrə başlaması respublika mətbuatına yeni ab-hava gətirmiş milli əhval-ruhiyyənin başlandığından xəbər verirdi. Dövrün mühüm hadisələrindən biri də kitab nəşri sahəsində baş verən yeni proseslər olmuşdur. Bu illərdə yeni nəşriyyatlar fəaliyyətə başlamış, cəmiyyətdə kitaba olan tələbatın artması ilə əlaqədar onların tirajı çoxalmış, kitab çapı texnologiyası xeyli təkmilləşmişdir. Xalqımızın tarixinə, milli mədəniyyətinə, təhsilinə və elminə dair kitablar çoxluq təşkil edirdi. Senzuranın fəaliyyət göstərməsinə

baxmayaraq respublikada Heydər Əliyev tərəfindən yaradılmış münbit ab-hava bu orqana da öz təsirini göstərmişdir. O vaxta qədər deyilməsinə və yazılmasına qadağa qoyulan bir çox milli problemlərə baxış təzələnmiş və liberallaşmışdır.

**Əsas hissə.** Bu dövrdə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda hər il 10-12 min nüsxə tirajla 1200-1300 adda kitab nəşr edilirdi. 70-80-cı illərdə 20 cildlik "Azərbaycan Ədəbiyyatı Kitabxanası", 50 cildlik "Dünya Uşaq Ədəbiyyatı Kitabxanası", 100 cildlik "Dünya Ədəbiyyatı Kitabxanası" nəşr edilmişdir. Nəşriyyat işi sahəsində ən mühüm hadisə xalqımızın tarixində ilk dəfə Azərbaycan Sovet Ensiklopediyasının çapdan çıxması olmuşdur. Sovet dövründə bu nəşrin çapına dörd dəfə-1934, 1938, 1959 və 1965-ci illərdə təşəbbüs göstərilmiş, lakin hər dəfə müvəffəqiyyətsizliyə uğramışdır. respublikamızda yeni ab-havanın yaranmasında, xalqımızın öz soykökünə qayıtmasında, tarixi hadisələrə düzgün qiymət verilməsində mühüm işlər gördü. Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə İçəri şəhərdə Azərbaycan Sovet Ensiklopediyası üçün müvafiq bir bina tikilmiş, onun maddi-texniki bazası möhkəmləndirilmiş, hər bir cildin tirajı isə nəzərdə tutulmuş 50 mindən 80 minə qaldırılmışdır [3, s.34].

Ulu öndər Heydər Əliyev M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında olarkən nəşriyyat işinin əhəmiyyətindən danışaraq demişdir ki, *"Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti bunu əsas vəzifələrimdən sayıram"*[6, s. 7].

Heydər Əliyev 1995-ci ilin iyunun 3-də Milli Kitabxanaya gələrək "Vətənə, dövlətə, xalqa sədaqət andı" kitabının təqdimat mərasimində iştirak etdi. O zaman M.F.Axundov adına Dövlət Kitabxanasının fəaliyyətini və orada çalışan insanların əməyini yüksək qiymətləndirən Ulu öndər qeyd etmişdir ki, *"Azərbaycan Respublikasının mədəniyyət mərkəzlərindən biri olan M.F.Axundov adına Dövlət Kitabxanasına gəlmişik. Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənə-*

*viyyat, bilik, zəka mənbəyidir. ... Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya və burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm"*[5, s. 8].

90-cı illərin əvvəllərindən fəaliyyətə başlayan özəl nəşriyyatların bir çoxu hər cür çətinliyə baxmayaraq öz maddi-texniki bazasını möhkəmləndirərək, kitab çapı işində öncül mövqeyə çıxmaqla dövlət nəşriyyatlarını üstələyirlər. Müstəqillik dövründə respublikamızda kitab nəşriyyatı sahəsində əldə edilən ən böyük nailiyyətlərdən biri Azərbaycan dilində kitab çapına xüsusi qayğı və diqqət yetirilməsidir. Təxmini hesablamalara görə, çap edilən kitabların 85-90 faizi Azərbaycan dilindədir. Bunun da Azərbaycan kitabxana fondlarının milli kitablarla zənginləşdirməsində böyük əhəmiyyəti vardır[3, s. 74].

Ümumilli Lider Heydər Əliyevin fəaliyyəti zamanı dövrün mühüm hadisələrindən biri də yeni nəşriyyatların təsis edilməsi, kitab nəşri repertuarında milli ədəbiyyatın geniş yer tutması olmuşdur. Azərbaycanın müasir nəşriyyat sferasında önəmli yeri və özünəməxsus dəst-xətti olan "Təhsil" nəşriyyatı 1993-cü ildən fəaliyyət göstərir. Müəssisədə peşəsinin sirlərini dərindən bilən 80 nəfərə yaxın işçi çalışır. Müstəqillik illərində Azərbaycanda kitab nəşrinin inkişafında, xüsusilə təhsil quruculuğu konsepsiyasının əsasını təşkil edən dərsliklərin və digər elmi-metodik ədəbiyyatların hazırlanmasında "Təhsil" nəşriyyatının xüsusi əməyi vardır. Nəşriyyat fəaliyyət göstərdiyi müddətdə 6500-dən çox adda və 33 milyon nüsxədən çox kitab, o cümlədən dərslik, dərs vəsaiti və elmi-metodik ədəbiyyat nəşr etmişdir. Nəşriyyatın çap məhsulları ölkə və bir çox beynəlxalq miqyaslı müsabiqələrin qalibi olmuş, dünya və Avropa sərgilərində uğurla nümayiş etdirilmişdir [8].

"Qanun" nəşriyyatı 1995-ci il 6 oktyabr tarixindən fəaliyyət göstərir."Qanun" nəşriyyatı bütün sahələrdə: bədii ədəbiyyat, fəlsəfə, tarix, iqtisadiyyat, tibb, coğrafiya, elmi-fantastika, uşaq ədəbiyyatı, din, mətbəx və sağlamlıqla bağlı kitablar nəşr etməklə fəaliyyətini ilbəil genişləndirir. "Qanun" nəşriyyatının gənclərlə bağlı başladığı "birinci kitab" və "ən yeni ədəbiyyat" seriyası cəmiyyətdə populyarlıq qazanmışdır. "Qanun" nəşriyyatı bir çox Nobel mükafatı laureatının: Gabriel Garcia Marquez, Orhan Pamuk, Herta Müller, J.M.G. Le Clezio, Jose Saramago, Albert Camus və s. ilə yanaşı, Ernhard Schlink,

George Orwell, Marc Levy, Paulo Coelho, Dan Brown, Richard Branson, David Eagleman, Yuval Noah Harari, Eckhart Tolle, Salman Rushdie, J.R.R.Tolkien, Rhonda Berne, Stephen Hawking, Franz Kafka kimi dünyaca oxunan yazarların əsərlərini türk, rus, ingilis, alman, fransız dillərindən Azərbaycan dilinə tərcümə etmişdir[9].

"Çaşıoğlu" nəşriyyatı 1995-ci il tarixdən fəaliyyət göstərir. Fəaliyyəti dövründə yüzlərlə elmi, bədii və tədris vəsaitlərini nəfis tərtibatda çap etmişdir. Nəşriyyat dəfələrlə yerli və beynəlxalq təşkilatların keçirdikləri tenderlərin qalibi olmuşdur. Nəşriyyat istənilən poliqrafiya məhsullarını istehsal etmək imkanına malikdir[10].

Fəaliyyətdə olduğu dövrdən Xəzər Universitetində Nəşriyyat 1995-ci ildən (Khazar University Press) fəaliyyət göstərir. Xəzər Universiteti Nəşriyyatı-universitetin kitab, jurnal və digər çap məhsullarını, eləcə də kənardan müraciətləri dəyərləndirən və nəşrə hazırlayan bir qurumdur. Nəşriyyatın fəaliyyət dairəsinə dərslik, monoqrafiya, konfrans materialları, elmi-tədqiqat jurnalları, tərcümə layihələri (ingilis və başqa dillərdən Azərbaycan dilinə və həmçinin, Azərbaycan və rus dillərindən ingilis və başqa dillərə tərcümə olunmuş kitab və məqalələr), eləcə də bədii ədəbiyyat nəşri daxildir[11].

"Qeyrət" nəşriyyatı 1997-ci ildən fəaliyyətə başlamışdır. "Qeyrət" nəşriyyatı monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri və metodik vəsaitlər nəşr edir. Tədris prosesi ilə əlaqədar bütün materiallar (jurnallar, blanklar, formalar və fənn proqramları) bu nəşriyyatda nəşr edilib struktur bölmələrə çatdırılır. Həmçinin "Elmi əsərlər" jurnalı və "Fikir" informasiya bülleteni habelə elmi konfransların materialları da "Qeyrət" nəşriyyatında çap olunur [12].

"Aspoliqraf" nəşriyyatı 2002-ci ildən fəaliyyət göstərir. Nəşriyyat ən müasir və güclü poliqrafiya bazasına malikdir. İndiyədək 20 milyon nüsxədən çox kitab nəşr etmişdir. 2009-cu ildə "İlin nəşriyyatı" adına layiq görülmüşdür. 10-a yaxın kitabı müxtəlif illərdə "İlin kitabı" statusu qazanmışdır. Beynəlxalq sərgilərdə uğurla iştirak etmişdir. "Atlantlar" kitabı 2006-cı ildə III Beynəlxalq "Kitab sənəti" müsabiqəsinin qalibi olmuşdur [8].

Respublikamızda Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə kitab nəşrinin inkişafında, fəaliyyətində, nəşriyyat işinin hüquqi bazasının yaradılmasında, tənzimlənməsində və inkişafında mühüm rol oynayan hadisələrdən biri də bu sahəyə dair normativ-

hüquqi aktların, qanunların, qərar və sərəncamların qəbul edilməsi olmuşdur. Bunlara misal olaraq, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, (1996-cı il 05 iyun, 115 nömrəli) qanununu, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”Azərbaycan Respublikasının qanununu (1998-ci il, 03 aprel 460 nömrəli), “Mədəniyyət” haqqında Azərbaycan Respublikasının qanununu (1998-ci il), “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının qanununu (1998-ci il), Nazirlər Kabinetinin “Radio və televiziya verilişləri, nəşriyyat və poliqrafiya fəaliyyəti üzrə lisenziya verilməsi qaydalarının təsdiq edilməsi haqqında” (1998-ci il 16 aprel, 84 nömrəli), “Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında” (1996-cı il) qərarlarını qeyd edə bilərik.

Kitabşünas alim, professor, mərhum Bayram Allahverdiyev öz tədqiqatlarında qeyd edir ki, Ümumilli Liderimiz Heydər Əliyevin çoxşaxəli fəaliyyəti içərisində mədəniyyət və incəsənətin inkişafı maarifin, təhsilin dünya səviyyəsinə qaldırılması xüsusi yer tutur. Görkəmli şəxsiyyətlərin, tanınmış ziyalıların, incəsənət xadimlərinin, görkəmli şair və yazıçıların yubileylərinin qeyd edilməsində Heydər Əliyevin çıxışı ədəbiyyat və incəsənətin, kitab və kitabçılıq işinin inkişafına istiqamət vermişdir [1, s.6].

Ulu Öndər Heydər Əliyev “Kitabi Dədə Qorqud” Ensiklopediyasında “Milli varlığımızın mötəbər qaynağı” adlı giriş yazısında qeyd edir ki, son illərdə müstəqilliyimizin imkanlarından istifadə edərək, tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çoxlu işlər görülmüşdür. Sözsüz ki, bu istiqamətdə qarşımızda duran mühüm problemlər çoxdur. “Kitabi Dədə Qorqud” Ensiklopediyasının nəşri də həmin ali məqsədə xidmət edən bir amil olacaqdır[4].

Ulu öndər Heydər Əliyevin kitabxanaya, kitaba, kitab nəşrinə xüsusi diqqət və qayğısının bariz nümunəsi kimi onun tərəfindən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi kitabların müxtəlif dillər üzrə statistik göstəricilərini qeyd edə bilərik (Bax: cədvəl 1).

**Cədvəl 1**

**Ümumilli Lider Heydər Əliyev tərəfindən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına hədiyyə edilən kitabların statistikası**

| Dillər üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | Türk | Rus | İngilis | Fransız | Ərəb | Fars |
| 131 | 2 | 107 | 18 | 1 | 1 | 3 |

Yuxarıdakı cədvəldə qeyd edilən statistik göstəricilərdən məlum olur ki, Ümumilli Lider Heydər Əliyev tərəfindən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına hədiyyə edilən kitablardan 131-i Azərbaycan, 2-si türk, 107-si rus, 18-i ingilis, 1-i fransız, 1-i ərəb və 3-ü isə fars dilindədir[4, s.277].

**Nəticə.** Hazırda respublikamızda dövlətin kitabxana işi sahəsində mütərəqqi işlərin həyata keçirilməsi üçün ciddi işlər aparılmalı, ölkəmizin şəraiti, kitabşünaslığın iş təcrübəsi və kitabçılıq işinin gələcək perspektivləri elmi əsaslarla öyrənilməli, ümumiləşdirmələr aparılmalıdır. Bunlar təxmini olaraq aşağıdakı məsələləri əhatə etməlidir:

➢ Kitabşünaslıq fəaliyyətinin müasir tələblər səviyyəsində informasiyalaşdırılması, kitabxanalarda yeni informasiya texnologiyalarının tədbiqi və inkişafı, elektron-məlumat bazasının formalaşdırılması və istifadəsi, kitabxanaların işinin əlaqələndirilməsində şəbəkə texnologiyalarının yaradılması və inkişaf etdirilməsi;

➢ Müstəqillik şəraitində kitab nəşri sisteminin tamamilə yeniləşməsi, çoxlu miqdarda özəl nəşriyyatların yaradılması ilə əlaqədar kitabxanaların komplektləşdirilməsi probleminin həlli üçün yollar axtarılması, kitabxana kollektorunun işinin yenidən qurulması, onun fəaliyyət dairəsinin daha da genişlənməsi və təkmilləşdirilməsi;

➢ Ölkəmizdə nəşriyyat işinin dünya standartları səviyyəsində təşkili məqsədi ilə beynəlxalq əlaqələrin möhkəmləndirilməsi.

Respublikamızda kitabxana işinin mütərəqqi ideyalarla inkişafı, kitab nəşri, kitabçılıq fəaliyyəti mühüm tarixi ənənələrə malikdir. Ulu öndər Heydər Əliyev tərəfindən bu sahədə həyata keçirilən davamlı və dayanıqlı işlər bu gün də Ulu öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan bütün

torpaqlarımız şanlı ordumuz tərəfindən işğaldan azad edildi. Bununla da, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. İşğaldan azad edilən ərazilərdə kitabxana-informasiya müəssisələrində kitabxana işinin təşkili, yeni nəşriyyat sistemlərinin yaradılması, nəşriyyatların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində müəyyən çətinliklər və problemlər təbii ki, olacaqdır. Əminəm ki, müasir kitabxanaçılar, kitabşünas alimlər, bu sahə üzrə fəaliyyət göstərən peşəkar mütəxəssislər bu işin öhdəsindən layiqincə gələcəkdir.

## *ƏDƏBİYYAT*

*1. Allahverdiyev, B. Heydər Əliyev və Azərbaycanda kitab nəşri məsələləri // - Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, Humanitar elmlər seriyası, - 2013. № 2, - 106-113.*

*2. Əhmədova, L.Heydər Əliyev irsinin kitabxanalarda təbliği /tərt. ed. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva.- Bakı, 2018.- 53 s.*

*3. Xələfov,A.A. Heydər Əliyev vəAzərbaycanda kitabxana işi / A.A.Xələfov. – Bakı: Azərnəşr, - 2006.- 312 s.*

*4. Süleymanov, R. Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti. Monoqrafiya / R.Süleymanov. - Bakı: "Ləman" Nəşriyyat Poliqrafiya, - 2020.-360 s.*

*5. Tahirov, K. Azərbaycanda kitabxana işinin inkişafına Heydər Əliyev qayğısı // Xalq qəzeti. - 2010, 7 may. -s.8.*

*6. Tahirov, K. Kitaba və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi // 525-ci qəzet. - 2016, 7 may. -s.7.*

### *İnternet resursları*

*7.http://www.anl.az/el/emb/A.Xelefov/eserleri/kitablar/xa_aki.pdf*

*8.https://az.wikipedia.org*

*9.https://az.wikipedia.org/wiki/Qanun_(n%C9%99%C5%9Friyyat)*

*10.https://az.wikipedia.org/wiki/%C3%87a%C5%9F%C4%B1o%C4%9Flu 11.http://khazar.org/az/item/7*

*12.https://ndu.edu.az/qeyret-nesriyyati/ 13.https://az.wikipedia.org/wiki/Aspol*

**Sevda Feyruz gizi Guliyeva**

# HEYDAR ALİYEV AND BOOK PUBLİSHİNG

***Summary:*** *Book publishing is one of the important factors in the culture of every nation, in the preservation of national and spiritual values and their transmission to future generations, in the public life of people. The article examines the invaluable services of National Leader Heydar Aliyev in the field of library construction and book publishing, which are an integral part of Azerbaijani culture. During the activity of national leader Heydar Aliyev, the establishment of new publishing houses as one of the important events of the period, the issues of national literature in the repertoire of book publishing were summarized and comprehensively commented.*

***Keywords:*** *National leader, book, publication, science, education, culture.*

**Севда Фейруз кызы Гулиева**

# ГЕЙДАР АЛИЕВ И КНИГОПЕЧАТАНИЕ

***Резюме:*** *В общественной жизни людей, в культуре каждого народа издание книг является одним из важных факторов – сохранении национальных и духовных ценностей для будущего поколения. В данной статье говорится об участии общенационального лидера Гейдара Алиева в создании библиотек, издательств, и их роли в развитии азербайджанской культуры. В период деятельности общенационального лидера Гейдара Алиева одним из важных событий было создание новых издательств, где и была заложена основа для развития национальной литературы.*

***Ключевые слова:*** *общенациональный лидер, книга, издание, наука, образование, культура.*

## KİTABXANAŞÜNASLIQ

==========

**Şəfəq İsrafil qızı İslamova**
***AMEA İqtisadiyyat İnstitutunun kitabxana müdiri,***
***tarix üzrə fəlsəfə doktoru***
shafaq.ace@gmail.com

# ÖLKƏLƏRARASI QARŞILIQLI MƏDƏNİYYƏT ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA KİTABXANA SİSTEMİNİN TƏSİR İMKANLARI

**Xülasə:** *Məqalədə ölkələrarası mədəniyyət əlaqələrinin genişləndirilməsində kitabxana sistemlərinin humanist missiyası nəzərdən keçirilmişdir. Məqalədə eyni zamanda ölkələrarası qarşılıqlı mədəni əlaqələrin inkişafına yönəlmiş kitabxana xidmətlərinin təkmilləşdirilməsinin əsas istiqamətləri təhlil olunaraq mövcud problemlər müəyyənləşdirilmiş, onların aradan qaldırılması məqsədilə təklif və tövsiyələr irəli sürülmüşdür.*

***Açar sözlər:*** *kitabxana sistemi, mədəni əlaqələr, mədəni inteqrqasiya, dünya kitabxana şəbəkəsi, informasiya texnologiyaları.*

Müasir mədəni-iqtisadi proseslər kitabxana sisteminin fəaliyyətinin bu günü və gələcəyi problemini aktuallaşdırmış, onların gələcək inkişaf perspektivlərini müəyyən etmişdir. Son illər bu mövzu ilə bağlı demək olar ki, mübahisələr davam etməkdədir. XXI əsrdə beynəlxalq kitabxana şəbəkəsi necə olmalıdır? Bu sual bu günə qədər açıq qalır.

Bu gün kitabxanaların vəzifəsi dəyişir. Kitabxanalar maarifləndirmə funksiyasını və intellektual sərvət toplamaq və artırmaq funksiyasını yerinə yetirməklə yanaşı, oxucuları yalnız öz fondunda olan müxtəlif kitab çeşidləri ilə təmin edə bilməz. Müasir dövrdə kitabxana sistemi dünya ictimaiyyətinin malik olduğu bütün məlumatlara pulsuz çıxış imkanı verən informasiya mərkəzinə çevrilmişdir.

Kitabxanaların fəaliyyəti müəyyən edilmiş norma və dəyərləri son illərin yeni sosial-mədəni tendensiyaları ilə ziddiyyət təşkil edir.

Bununla əlaqədar olaraq kitabxanaların sosial funksiyaları, rolu, əsas missiyaları kimi məsələləri daim diqqət mərkəzindədir.

Cəmiyyətdə baş verən dəyişikliklər müasir kitabxana sisteminin transformasiyasında əsas amillər hesab olunur. Kitabxana sisteminin bu sınaqdan necə tab gətirəcəyi bütün kitabxana ictimaiyyətinin taleyindən asılıdır.

Cəmiyyətin strukturunda baş verən dəyişikliklərdən asılı olaraq, kitabxana şəbəkəsi bəşəriyyətin inkişafının inteqrativ əks olunması sistemi, kitabların toplanması, biliklərin təsnifatı, elm subyektlərinin sistemləşdirilməsi, dünyaya baxış tərzi kimi səciyyələndirilə bilər [7, s. 13].

Tələblərin formalaşması və ödənilməsi prosesinə cəlb olunmaqla "kitabxana cəmiyyət qarşısında onun üçün zəruri olan sosial funksiyalar vasitəsilə mədəniyyəti formalaşdırmaq vəzifəsini yerinə yetirir [10, s.168].

Kitabxanalar sosial-mədəni institut kimi insan həyatının bütün sahələrinə daxildir. Şübhəsiz ki, o, nəinki müəyyən bir fəaliyyət növünə olan ehtiyacı ödəməyə, həm də ehtiyacın özünü formalaşdırmağa, daxili aləmi və xarici mühitin komponentlərini şüurlu fəaliyyətlə dəyişməyə qadirdr.

Mədəni müxtəliflik, iqtisadi və sosial böhran şəraitində kitabxanalar mədəni və informasiya birliyini təmin etmək üçün azsaylı sosial-mədəni qurumlar arasında əhəmiyyətli yer alır. Belə dəyişiklik dövründə əsas vəzifə kitabxananın öz missiyanızı müəyyən etməkdir [9, s. 36].

Buna görə də kitabxananın missiyası cəmiyyətin özünün xəbərdar olub-olmamasından asılı olmayaraq, sosial məqsəd kimi qəbul edilir[9, s.7]. Missiya əsasən qısa olur, təşkilatın məqsədini ifadə edir və onun fəaliyyət göstərdiyi sektorla əlaqədar olur. Dəqiqliklə müəyyən olunmuş missiya təşkilat üçün əhəmiyyətli və əhəmiyyətsiz olanları fərqləndirir, hansı sahələrdə və necə xidmət göstəriləcəyini əks etdirir.

Qeyd etmək çox vacibdir ki, kitabxanaların missiyası hamı üçün eynidir, lakin onun həyata keçirilməsi fərqlidir. Professor A.V.Sokolovun fikrincə, "missiyanı müəyyənləşdirmək və missiyanızı itirməmək asan deyil və lakin cazibədar perspektivlər bəzən unikallığın bir parçasını itirməyə məcbur edir" [12, s.2].

Mütəxəssislərin fikrincə, kitabxananın ənənəvi missiyası - savad, bilik və mədəniyyət gətirmək - daim inkişaf edən informasiya məkanında texnogen cəmiyyətin yaranması ilə də azalmayıb. "Əslində kitabxananın vəzifələrinin dairəsi genişlənmişdir və indi daha çox aspektlərə malikdir" [5, s.33].

Şübhəsiz ki, kitabxananın ilk növbədə kitablara yönəlmiş köhnə formatı, eləcə də kitablar vasitəsilə informasiyanın ötürülməsi yolları həmişə keçmişdə qalıb. Kitabxananın ənənəvi modeli dəyişikliklərə məruz qalır ki, bu da bəzən bir çox alimlər tərəfindən sistemin böhranı kimi qəbul edilir.

Bununla belə, dəyişən dünya kitabxanaları transformasiya ehtiyacı qarşısında qoyur. Kitabxana təkcə kitablar toplusuna çevrilmir, həm də günümüzün sosial-mədəni proseslərini dərk etməkdə mühüm rol oynayır. "Mövcud sosial-mədəni şəraitdə kitabxanaların fəaliyyətinin yenilənməsi onların fəaliyyətinin zəruri şərtinə çevrilir"[4, s.3].

Şübhəsiz ki, kitabxananın bir çox funksiyaları zamanla yox olmur, və yaxud əksinə, bir-birini gücləndirir. Kitabxananı kitab deposuna çevirmək, onu müasir mədəniyyətin hüdudlarından kənarda qoymaq deməkdir. Buna görə də kitabxanaya konservativ və qeyri-innovativ mühit kimi baxılması "XXI əsrdə kitabxanalar kimə lazımdır?" silsiləsindən bir sıra suallar doğurur.

Təbii ki, tanınmış alim, professor A.V.Sokolov düzgün qeyd edir ki, müasir informasiya cəmiyyətində çoxları faydalı missiya və ya funksiyaları yerinə yetirən kitabxanaların gələcəyini görmür[14, s.8]. Bununla belə, "kitabxanaçılar informasiya funksiyasına deyil, informasiya cəmiyyəti üçün həyati əhəmiyyətə malik olacaq" ifadəsi kifayət qədər haqlıdır və əsaslandırılmışdır [3].

Rusiyanın bir çox aparıcı kitabxana sahəsində olan tanınmış mütəxəssisləri bu qərarla razılaşırlar. Məsələn, İ.İ.Tixomirova humanizmdən danışarkən deyir ki, "təbiətcə humanist olan bütöv sosial institutların qorunub saxlanması vacibdir" [14, s.20]. O, qeyd edir: "informasiya texnologiyalarına can atmaqda humanist məqsədini hələ də itirməmiş belə qurumlara bizim bəzən bəşəriyyətin ehtiyatı adlandırılan kitabxananı da daxil etmək haqqımız var" [2, s. 19].

Kitabxanaların humanist missiyası, qloballaşma proseslərinə reaksiyadır. Məlum olduğu kimi, cəmiyyətin hazırkı vəziyyətinin səciyyəvi xüsusiyyətlərindən biri "subkulturaların rəngarəng ansamblı

kimi" təqdim edilən multikultural dünya modelidir[17, s.45]. Azərbaycan icmasının multikultural inkişafa yönəldilməsi, cəmiyyətdə baş verən sosial-siyasi, sosial-iqtisadi, texniki və texnoloji dəyişikliklərlə əlaqədar Azərbaycanda sosial-mədəni dinamikanın reallıqlarını əks etdirməsinin nəticəsidir. Sürətli həyat dəyişiklikləri təkcə bütövlükdə cəmiyyətin deyil, hər bir fərdin şüurunun "artıq yüklənməsinə" kömək edir.

Bundan əlavə, qlobal iqtisadi qeyri-sabitlik və əhalinin miqrasiyası şəraitində müxtəlif mədəniyyətlərin və fərqli kimliklərin daşıyıcılarının birgə yaşaması məsələsi xüsusilə aktuallaşır. Bu məcburi birgə yaşayışa reaksiya həm bütün dünyada ksenofobiyanın və ekstremizmin böyüməsində özünü göstərir. Bəşəriyyət bu mənfi tendensiyaya qarşı millətlərarası qarşılıqlı münasibət mədəniyyəti ilə getməlidir. Bu vəziyyətdə kitabxana cəmiyyət üzvləri arasında sosial-mədəni qarşılıqlı əlaqənin təşkili ilə xüsusi sosial gərginliyi aradan qaldıra bilir. Nəticədə cəmiyyətdə psixoloji iqlimdə (psixososial fonda) yaxşılaşma müşahidə olunar.

Eyni zamanda, kitabxana cəmiyyət üzvlərinin inkişafını həyata keçirir, onları ölkənin mədəni potensialı ilə tanış edir, məqsədyönlü fəaliyyətə töhfə verir, sosial-mədəni fəaliyyətin müxtəlif subyektlərinin fəaliyyəti və sosial-mədəni komponentlər vasitəsilə sosial yeniləşmə proseslərini stimullaşdırır.

Başqa sözlə, bu şəraitdə kitabxana müxtəlif mədəni icmalar, qruplar, ayrı-ayrı şəxslər üçün təkcə bəşəriyyətin milli yaddaşının daşıyıcısıdır. Bu da kitabxana missiyasının humanist məqsədindən irəli gəlir [12, s.5]. Bunun sayəsində yeni sosial-mədəni məkanda kitabxanalar cəmiyyətin gələcək inkişafı üçün zəmin yaradır.

Buna uyğun olaraq, kitabxananı sosial-mədəni siyasətin alətlərindən biri hesab etmək olar. Onun məqsədi "sosial inkişafın, insanların mənəvi və dəyərli qarşılıqlı əlaqələrinin ən mühüm aspektlərini qorumaq və tənzimləməkdir"[1, s.105-106]. Nəticədə kitabxana millətlərarası qarşılıqlı əlaqə mədəniyyətinin formalaşması subyektlərindən birinə çevrilir.

Daha əvvəl qeyd edildiyi kimi, sosial inkişafın qeyri-sabitliyinin səbəblərini cəmiyyət üzvlərinin müasir dünyada baş verən dəyişikliklərə uyğunlaşma səviyyəsinin aşağı olmasında axtarmaq lazımdır. Buna görə də mədəni (etnik) müxtəliflik kontekstində kitabxana siste-

minin millətlərarası qarşılıqlı əlaqə mədəniyyətinin formalaşmasına töhfə verəcək məqsədyönlü iş aparmasına zərurət vardır.

Mədəni dəyərlərin əsası kimi çıxış edən kitabxana şəxsiyyətin yaradıcılıq fəaliyyətini stimullaşdırmağa, vətənpərvərlik şüurunu formalaşdırmağa qadirdir. Bundan əlavə, bir çox üstünlüklərə malik olan kitabxana müxtəlif mədəni (etnik) qrupların nümayəndələri, o cümlədən miqrantlarla ünsiyyət mədəniyyətinin inkişafına üstünlük verir.

Kitabxana istifadəçilərə xidmət göstərməklə onlara mədəni nümunələri mənimsəməyə kömək edir. Müasir informasiya texnologiyaları mədəni dəyərləri çox sayda istifadəçilərin mülkiyyətinə çevirməyə imkan verir və məlumatın qorunması və dəyişdirilməsinin müasir üsulları bu prosesə bir neçə nəsil insanların daxil edilməsi reallığını yaradır. Beləliklə, müxtəlif mədəniyyətlərin vahid məkanda birgə yaşayış imkanı yaranır[7, s.116].

Yuxarıda deyilənləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar: müasir şəraitdə kitabxana sistemi sosial-mədəni institut kimi sosial-iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynaya bilir. Qloballaşma şəraitində kitabxana sisteminin əsas vəzifələrindən biri millətlərarası qarşılıqlı əlaqə mədəniyyətinin formalaşdırılması olmalıdır. Ölkəmizdə bu fəaliyyətin əsas istiqamətləri milli kimliyin, vətənpərvərliyin, vətəndaşlığın, tolerantlığın, yaradıcı fəaliyyətin və millətlər arasında qarşılıqlı əlaqə (ünsiyyət) mədəniyyətinin inkişafıdır. Məhz buna görə də kitabxana sisteminin ölkəmizdə regionlar üzrə inkişafı istiqamətində davamlı olaraq məqsədəuyğun tədbirlərin həyata keçirilməsi vacibdir.

## ƏDƏBİYYAT

*1. Астафьева О.Н. Синергетический подход к исследованию социокультурных процессов: возможности и пределы: монография / Н. Астафьева .- М.: МГИДА, 2002.- 295 с.*

*2. Басов С.А. Гуманизм: в поисках безупречной системы ценностей // Библиотечное дело.- 2011.- № 17 (154).- с. 16-19.*

*3. Ванеев А.Н. Миссия библиотеки // Библиотечная энциклопедия / Рос. гос. б-ка .- М.: Пашков дом, 2007 .- с. 648.*

*4. Головко С.И. Библиотечная деятельность: принципы обновления: науч.- метод. Пособие. - М.: Либерея-Бибинформ, 2008.- 127 с. - (Библиотекарь и время. XXI век; вып. № 83).*

*5. Кюллёнен К. Кликай мышкой, веди блог, находи, зажигай – поддерживай свои навыки на современном уровне / К. Кюллёнен, П.Саллмен // Новости Междунар. Федерации Библ. Ассоц. и Учреждений.- 2011.- № 6 (93) .- с. 33-36.*

*6.Маркова Т.Б. Библиотека в контексте культуры: философско- культурологический анализ: дис. ... д-ра филос. наук: 24.00.01.- СПб., 2008 .- 326 с.*

*7.Матвеева Е. А. Библиотека как фактор сохранения национальной идентичности в эпоху глобализации: дис. ... канд. филос. наук: 09.00.01 .- Омск, 2004 .- 146 с.*

*8. Матлина С.Г. О миссии, подвигах, славе ... и о буднях: «высокое» и повседневное в работе библиотеки // Библиотечное дело.- 2009.- № 7 (97).- с. 6-9.*

*9. Равинский Д.К. Экзистенциальный аспект: библиотека как «скорая помощь»// Библиотечное дело.- 2009.- № 7 (97).- с. 36-39.*

*10. Российское библиотековедение: XX век. Направления развития, проблемы и итоги: опыт моногр. иссл./ сост. Ю. П. Мелентьева; Рос. гос. б-ка .- М.: Фаир-Пресс, 2003 .- 432 с.*

*11. Соколов А.В. Библиотечный гуманизм и гуманистическая миссия библиотек в информационном обществе // Библиотечное дело.- 2011.- № 17 (154).- с. 8-15.*

*12.Соколов А.В. Миссия и мутации библиотек. Раздумья интеллигента-книжника // Библиотечное дело.- 2009.- №14.- с.2-10.*

*13.Сыщук О.В. Формирование мультикультурной модели социо-системы с точки зрения синергетического принципа (на примере США) // Вопросы культурологи. - 2009.- № 12.- с. 43-45.*

*14.Тихомирова И. И. Новый вектор развития российских библиотек, или Гуманно мыслить научить // Библиотечное дело.- 2011.- № 17 (154). - с.20-23.*

**Shafaq İsrafil gizi Islamova**

**THE POSIBILITIES OF INFLUENCE OF THE LIBRARY SYSTEM IN THE FORMATION OF THE CROSS-COUNTRY MUTUAL CULTURAL RELATIONS**

***Summary:*** *The article considers the humanistic mission of library systems in the expansion of cross-country cultural ties. The article also analyzes the main directions of improving library services aimed at the development of interstate cooperation, identifies existing problems, put forward proposals and recommendations to overcome them.*

***Keywords:*** *library system, cultural relations, cultural integration, world library network, information technologies.*

**Шафаг Исрафил кызы Исламова**

**ВОЗМОЖНОСТИ ВЛИЯНИЯ БИБЛИОТЕЧНОЙ СИСТЕМЕ В ФОРМИРОВАНИИ ВЗАИМНЫХ КУЛЬТУРНЫХ СВЯЗЕЙ МЕЖДУ СТРАНАМИ**

***Резюме:*** *В статье рассмотрена гуманистическая миссия библиотечных систем в расширении межстрановых культурных связей. В статье также проанализированы основные направления совершенствования библиотечного обслуживания, направленные на развитие межгосударственного взаимодействия, выявлены существующие проблемы, выдвинуты предложения и рекомендации по их преодолению.*

***Ключевые слова:*** *библиотечная система, культурные связи, культурная интеграция, всемирная библиотечная сеть, информационные технологии.*

**Əlizadə Şəmil oğlu Nəcəfov**
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru***
elizade.necefov@bk.ru

# *AZƏRBAYCAN ELMİNİN İFTİXARI*

***Xülasə:*** *BDU-nun Kitabxanaçılıq-informasiya fakultəsinin 60 illiyi ilə əlaqədar Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elminin inkişafında, yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasında müstəsna xidmətləri olmuş professor Abuzər Xələfov haqqında xatirələrdən bəhs edilir.*

***Açar sözlər:*** *kitabxanaçı, universitet, fakültə, kadr, təhsil.*

Müasiri olduğumuz XXI əsrin ən böyük zəka sahiblərindən biri də mənim əziz müəllimim, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcısı, tarix üzrə elmləri doktoru, professor, əməkdar elm xadimi Abuzər Alı oğlu Xələfovdur. Bu il onun rəhbərlik etdiyi, elmi-pedaqoji fəaliyyətini və bütün şüurlu ömrünü həsr etdiyi BDU-nun "Kitabxanaçılıq-informasiya" fakültəsinin yaradılmasının 60 ili tamam olur. Buna görə də bu əlamətdar gündə Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elminin inkişafında, yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasında müstəsna xidmətləri olmuş professor Abuzər Xələfov haqqında bəzi xatirələrimi qeyd etməyi vacib hesab edirəm. Çünki professor A.Xələfovdan danışanda Kitabxanaçılıq fakültəsini, bu fakültədən söz düşəndə isə onun yaradıcısı olan professor A.Xələfovu xatırlamamaq mümkün deyil.

Hesab edirəm ki, fakültənin 60 illik yubileyi ərəfəsində professor Abuzər Xələfov barəsində yazmaq da yerinə düşər. Çünki, onun bütün elmi-pedaqoji fəaliyyəti bu fakültə ilə bağlı olmuşdur. Hətta həyatının son anlarında belə o öz yetirmələrinə vəsiyyət etmişdir ki, fakültənin qorunub saxlanılmasına həmişə xüsusi diqqət yetirsinlər.

Tale elə gətirmişdir ki, 1975-1980-cı illərdə mən də Azərbaycan Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq və informasiya fakültə sinin əyani şöbəsində təhsil almışam. İkinci kursdan M.F.Axundov adına təqaüd almışam. 1983-1987-ci illərdə isə bu

fakültə nin qiyabi aspiranturasında təhsil aldığım illərdə prof. Abuzər Xələfov başda olmaqla fakültənin bütün professor-müəllim heyətinin qayğıkeşliyi ilə əhatə olunmuşam. Müdafiə işimi də professor A.Xələfovun rəhbərliyi ilə bu fakültənin "Kitabxanaşünaslıq" kafedrasında yerinə yetirmişəm.

Fakültənin ilk dekanı professor A.Xələfov olmuşdur. Tarix elmləri doktoru, professor, "Şöhrət" və "Şərəf" ordenli A.Xələfov 1962-1970 və 1979-1993-cü illərdə, 24 il bu fakültəyə rəhbərlik etmişdir. 1963-cü ilən ömrünün sonuna kimi isə "Kitabxanaşünaslıq" kafedrasının müdiri olmuşdur.

Professor A.Xələfovun çoxsaylı yetirmələrindən biri də mənəm. Abuzər müəllim haqqında düşünərkən xəyal məni bir qədər ötən zamanlara, XX əsrin 70-ci illərinə qaytarır....

...Əziz müəllimlə mənim tanışlığım da elə həmin vaxtda başlamışdır. Müəllim-tələbə münasibəti, ağsaqqal-gənc münasibəti, kafedra müdiri-aspirant münasibəti və ən əsası dost və qardaş münasibəti, bütün bunları ustadımdan görmüşəm. Zəhmətini çiyinlərimdə çəkə bilmədiyim bu insanın mənim taleyimdə rolu o qədər böyük olub ki, fəxrlə deyə bilərəm ki, bu günkü nailiyyətlərimə görə Abuzər müəllimə borcluyam. Tələbəlik illərində məni elmə va ictimai işlərə ilk olaraq alışdıran və istiqamət verən ustadım oldu. Fakültənin əlaçı tələbəsi olduğum üçün, M.F.Axundov adına təqaüd alırdım. Diplom işimin elmi rəhbəri də Abuzər müəllim olmuşdur. Alimlik müdafiəsində də elmi rəhbərim məhz Abuzər müəllim oldu. Alim kimi yetişməyimdə ona borcluyam.

..1980-ci ildə Universitetin sonuncu kursunda olanda, təyinat bölgüsündə Abuzər müəllim bölgüdə iştirak edən BDU-nun rektoru, professor Faiq Bağırzadəyə dedi ki, Faiq müəllim, bu Əlizadə bizim fakültəni əla qiymətlərlə, M.F.Axundov adına təqaüdlə bitirir, komsomol katibidir, özü də çox fəal bir tələbədir. Elmə böyük həvəsi var, indi onu hansı rayona göndərsək ilişib qalacaq orda. Aspiranturaya belələrini götürməliyik, elə bir qərar verin ki, biz onu fakültədə saxlaya bilək... Mərhum rektor da Abuzər müəllimin fikrini təsdiqlədi, fakültədə saxlamaq mümkün olmasa da (o vaxtkı qanunlar buna imkan vermirdi) təyinatım Şuşa Pedaqoji Texnikumuna verildi və mənim gələcək elmi istiqamətim də müəllimimin əliylə müəyyənləşdirildi.

Aspiranturaya 1983-cü ildə yenə də professor A.Xələfovun tövsiyəsi ilə qəbul olundum, elmi rəhbərim də özü oldu.

Abuzər müəllimin köməyi ilə dissertasiyanın mövzusunu müəyyənləşdirdik. Burada da yenə onun müdrikliyi zamanı qabaqladı. Dedi ki, Əlizadə, Dağlıq Qarabağın mədəni-maarif işlərinin araşdırılması ilə bir erməni məşğul olur. Sən onu qabaqla və bu bölgənin kitabxana işinin tarixini dissertasiya işinə mövzu seç. Belə də oldu.

İllər isə ötürdü. Aspiranturamı qurtaran kimi müdafiə edə bilmədim. Lakin bu işə də Abuzər müəllim istiqamət verdi. Onun səyi və zəhməti ilə Rusiyalı alimlərinin (Karategina və Dvorkinanın) də daxil olduğu birdəfəlik müdafiə şurasında, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi( 1923-1988-ci illər" mövzusunda dissertasiya işini müdafiə edərək, tarix elmləri namizədi, indi fəlsəfə doktoru adlanan, alimlik dərəcəsini aldım...

Professor A.Xələfov təkcə mənim elmi yaradıcılığımla deyil, mənəvi ata kimi həm də ailə problemlərimlə də ciddi maralanırdı. O bilirdi ki, həyat yoldaşım ağır xəstədir. Hər dəfə görüşəndə, ya telefonla danışanda, onun vəziyyəti ilə mütləq maraqlanırdı. Eyni zamanda övladlarımın taleyi ilə ciddi məşğul olmağı tapşırır, onların təhsili ilə maraqlanır, toylarında və digər tədbirlərimizdə iştirak etmişdir.

Məlum Qarabağ hadisələri dövründə müəllimim Şuşadakı, ümumən Qarabağdakı hadisələrlə və bizim vəziyyətimizlə müntəzəm maraqlanaraq əlaqə saxlayıb, oradakı real vəziyyət barədə Respublika rəhbərliyinə davamlı olaraq məlumatlar verirdi.

Professor A.Xələfov çox təqvalı və iffətli bir şəxsiyyət olmaqla bərabər, həm də bir neçə dəfə İslam dünyasının ən müqəddəs ziyarətgahlarında olmuşdur. Hacı, Kərbəlayı titulu daşımışdı. Dini dəyərlərə çox hörmətlə yanaşan Abuzər müəllim həm də, bu istiqamətdə keçirilən dünya və respublika əhəmiyyətli tədbirlərin iştirakçısı olmuşdur.

Qəribədir, dəfələrlə şahidi olmuşam ki, iş prosesində bir qədər əvvəl ondan çoxlu danlaq və tənbeh almış insan yenə də çox cəsarətlə, elə həmin gün hər hansı bir ehtiyacıyla bağlı Abuzər müəllimə müraciət edib və kömək istəmişdir, o da öz köməyini əsirgəməmişdir.

Bəli, Abuzər müəllim hər kimi tənbeh edirdisə, onu öz övladı kimi tənbeh edirdi. Tənbeh olunanlar da bunu yaxşı bilirdi. Bu mənada o, Bakı Dövlət Universitetində çox-çox insanları, müxtəlif illərdə qərəzdən, böhtandan, şərdən qoruyub, işdən qovulmaqdan xilas edib, haqlarının

özlərinə qaytarmağa nail olub. Universitetin ağsaqqallar şurasının sədri olduğu illərdə belə halları daha çox müşahidə etmişəm.

Fakültənin elmi şurasında yarıtmaz işinə görə danladığı bəzi adamları universitetdən kənarda, başqa ictimai yerlərdə, yeri gələndə isə tərifləyərdi.

Keçən əsrin 60-cı illərindən professor A.Xələfovun BDU-da xüsusi məktəbi, "Kitabxanaçılıq-informasiya" fakültəsi fəaliyyət göstərir. Müasir kitabxanaçılıq-informasiya məktəbi onun dövründə formalaşıb, inkişaf etmiş, çoxsaylı kadrlar hazırlanmış və bütün respublikada həm tarixi- nəzəri, həm də praktiki sahədə inkişaf etmiş bu günkü səviyyəyə gəlib çatmışdır. BDU-nun hazırkı Kitabxanaçılıq-informasiya fakültəsində elmi-pedaqoji fəaliyyətlə məşğul olan insanların böyük əksəriyyəti onun yetirmələridir.

Professor Abuzər Xələfovun bütün elmi-pedaqoji fəaliyyəti "Kitabxanaçılıq-informasiya" fakültəsi ilə bağlı olmuşdur. Fakültənin isə fəaliyyətə başlamasının 60 ili tamam olur. Bu münasibətlə fakültə nin bütün professor- müəllim və tədris köməkçi heyyətini təbrik edir və gələcək işlərində onlara yeni-yeni uğurlar arzulayıram!

***Alizade Shamil* oglu *Najafov***

***PRIDE OF AZERBAIJAN SCIENCE***

***Summary:*** *In connection with the 60th anniversary of the library and information faculty of BSU, the memories of professor Abuzar Khalafov, who had exceptional services in the development of the science of librarianship and bibliography in Azerbaijan, and in the training of highly qualified librarians, are mentioned.*

***Keywords:*** *librarian, university, faculty, personnel, education.*

***Ализаде Шамиль оглы Наджафов***

***ГОРДОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ НАУКИ***

***Резюме:*** *В связи с 60-летием библиотечно-информационного факультета БГУ упоминаются воспоминания профессора Абузара Халафова, имевшего исключительные заслуги в развитии библиотечно-библиографической науки в Азербайджане, подготовке высококвалифицированных библиотекарей.*

***Ключевые слова:*** *библиотекарь, вуз, факультет, кадры, образование.*

**Mehmanəli Əkbər oğlu Məmmədov**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrasının dosenti,***
***pedaqogika üzrə fəlsəfə doktoru***
m.mehmanali@gmail.com

**Günay Sabir qızı Musayeva**
***Kitabxanaşünaslıq kafedrasının magistrantı***
musayevag20@gmail.com

# RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASINDA YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

***Xülasə:*** *Məqalədə qlobal inkişafın əsas şərtlərindən biri müasir texnologiyalardan bilik və informasiyaların ötürülməsidir.Bu gün informasiya-kommunukasiya texnologiyalarının inkişafı nəticəsində, bütün sahələrdə yeni alətlər və müxtəlif formalı mexanizmlər icra olunur. İnformasiya texnologiyalarının tətbiq olunduğu müəssisələrdən biri də kitabxanalardır.Bu gün müasir kitabxana öz elektron sənəd fondunu zənginləşdirərək, günün istənilən vaxtında elektron materialları kitabxana kənarından oxucularına çatdıra bilir. Göründüyü kimi İKT-nın tətbiqi kitabxanaların əsas strukturunu, funsiyalarını dəyişdirərək onu çoxşaxəli bir təsisata çevirir.*

***Açar sözlər:*** *Elmi-texniki kitabxana, informasiya texnologiyaları, elektron kitabxana, elektron kataloq, avtomatlaşmış kitabxana-informasiya sistemi, onlayn xidmət.*

Müasir dövrdə kitabxanaların yüksək səviyyədə inkşaf etməsinin vacib istiqamətləri kitabxanaların kompüterləşdirilməsi, elektron kataloqların yaradılması, yüksək ixtisaslı kitabxanaçı kadrların yetişməsi və yeni informasiya texnologiyaların tətbiqi hesab olunur.Bu sahədə Azərbaycanda fəaliyyət göstərən kitabxanalardan biri kimi Respublika Elmi-Texniki kitabxanası bir sıra işlər görmüşdür. İlk növbədə RETK-da müasir dövrün tələblərinə uyğun olaraq yeni informasiya texnologiyalarının tətbiqinə dair bir sıra fikirlər irəli sürülmüşdür:

- Fondun oxucuları maraqlandıran kitablarla təmin olunması və sistemləşdirilməsi;

- Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi və daha da təkmilləşdirilməsi;
- Oxucularla işin günün tələbləri əsasında təşkil edilməsi və onlara yüksək səviyyədə xidmət göstərilməsi;
- Kitabxananın tələb olunan texniki-proqram vasitələrlə təmin olunması və yeni informasiya texnologiyalarının tətbiqi;
- Kitabxananın vahid internet şəbəkəsinə qoşulması və istifadəçilərə onlayn xidmətin təşkili.

Hazırda Respublikamızda bütün kitabxana-informasiya şəbəkələrində avtomatlaşdırma 2 istiqamətdə aparılır:

1.Ənənəvi kitabxananın informasiya təminatına kömək etmək;

2.İstifadəçiləri internet vəsitəsi ilə tələb olunan materiallarla təmin etmək.

Elmin, texnikanın sürətli inkşafı, kitabxana işi sahəsində yeniliklərin əldə olunmasına, yeni informasiya texnologiyalarının tətbiqinə, cari zamana uyğun informasiya mənbələrinin əldə edilməsinə və bu mənbələrin oxuculara çatdırılmasına təsir göstərmişdir.Əldə olunan bu naliyyətlər nəticəsində informasiyanın toplanması, emalı, saxlanması, ötürülməsi və istifadəçilərə çatdırılması məqsədi ilə texniki vasitələrin tətbiqi əsasında avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri yaradıldı.

Müstəqillik illərindən başlayaraq, RETK dövrün ən qabaqcıl kitabxanası olmaqla yanaşı, maddi-texniki bazası baxımından fərqlənən kitabxana kimi fəaliyyət göstərmiş və göstərməkdədir[3]. Kitabxana "İnformasiyanın seçilmiş yayılmasının avtomatlaşdırılmış sistemi"ni (İSY), həmçinin 70-ci illərdən başlayaraq ilk dəfə regional avtomatlaşdırılmış kitabxana–informasiya sistemini işləyib, hazırlamışdır. "İnformasiyanın seçilib yayılması" sistemi dinamik sistem olub, tələbatçıların fərdi məlunat sorğularını təmin edir.Sistemin əsas bazasını fonda daxil olan sənədlərin biblioqrafik və referativ məlumatları təşkil edir.Onu da qeyd edək ki,'İnformasiyanın seçilib yayılması sistemi"nin həm Respublika Elmi-Texniki Kitabxanasında, həm də ölkəmizdə fəaliyyət göstərən digər texniki kitabxanalarda tətbiq olunması nəticəsində kitabxana-informasiya proseslərinin avtomatlaşdırılmasının əsası qoyuldu. Hal-hazırda kitabxanada "Kitabxana proseslərinin avtomatlaşdırması"şöbəsi fəaliyyət göstərir. Şöbənin müdiri isə Aygül Hacıyevadır.

Ümumiyyətlə, dövrün ən vacib problemlərindən biri kitabxana proseslərinin avtomatlaşdırılmasıdır. Hansı ki, bu gün kitabxanalarda yeni texniki və proqram vasitələrin tətbiqi informasiyanın keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

RETK-da "Kitabxana-biblioqrafiya"proseslərinin kompleks avtomatlaşması sistemi hazırlanmışdır. Sistem 7 yarımsistemdən təşkil olunmuşdur Sistem yalnız Respublika Elmi-Texniki Kitabxanası və onun filiallarında deyil, hətta digər elmi-texniki kitabxanalarda kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-tədqiqat işi aparmağa imkan verir. Sonralar bu sistemin "Kitabxana xidməti" altsistemi yaradıldı. "Kitabxana xidməti" altsistemində abonentlərin sorğularını əks etdirən tələbnamələr baş kitabxanaya göndərilir, yoxlanılır və sistemə daxil edilərək, sənəd-məlumat bankının informasiya bazasında təşkil edilir. Sistemdə abonentlərin sorğularını kodlaşdırmaq, təsnifləşdirmək və işləmək üçün informasiya axtarış dilləri tətbiq edilirdi. Məsələn, Universal Onluq Təsnifatı, Beynəlxalq İxtira Təsnifatı, texniki-iqtisadi informasiya təsnifatları[1].

"Kitabxana xidməti" altsistemi 3 avtomatlaşdırılmış sistemdən ibarətdir:

1."Abononet" sistemi-texnoloji və idarəetmə funksiyalarını yerinə yetirir.

2."Kitabxanalararası abonoment" (KAA) avtomatlaşdırılmış sistemi. Bu sistemdə KAA ilə bağlı əməliyyatlar maşın texnologiyası əsasında həll edilir.

3."Oxucu sorğularının təhlili" sistemi. Bu sistemdə 2 proses istisna olmaqla, (oxucu tələbnamələrin kitabsaxlayıcıya verilməsi və sənədlərin kitabxanalardan kitab verilişi məntəqələrinə çatdırılması) kitabxana xidmətinin bütün texnoloji və uçot təhlil proseslərini avtomatlaşdırır[1].

Respublika Elmi Texniki Kitabxanası XX əsrin 90-cı illərində oxuculara soraq-məlumat sahəsində avtomatlaşdırılmış sistemlərin tətbiqinə dair işlər gör-müşdür. Kitabxananın qarşısında duran məqsədlərdən biri"Yeni kitablar" avtomatlaşdırılmış sisteminin yaradıması idi.Nəticədə kitabxananın 4000-dən çox ədəbiyyatların təsvirini əks etdirən məlumatlar disklərə yazılmışdır. İkinci məqsəd isə "Elmi-texniki kitabxanaların hesabatı"nın avtomatlaşdırılması sisteminin yaradılması-

dır.Yəni kitabxana statistik hesabat formalarını hazırlayaraq onları fərdi kompüterin yaddaşına köçürürdü.

XX əsrin sonları XXI əsrin əvvəllərində kitabxana işində kompüter texnikasının tətbiq olunması və yeni kommunikasiya texnologiyalarından istifadə edilməsi nəticəsində xidmət işi, komplektləşdirmə, kitabişləmə, fondun qorunması sahəsində bir sıra naliyyətlər əldə olundu. Bu məqsədlə 1999-cu ildə Dövlət Elm və Texnika Komitəsi kitabxananı müasir kompüter texnikası və bir sıra texnoloji avadanlıqlarla təchiz etdi. Kitabxanada kompüter texnologiylarının tətbiqi kitabxana əməkdaşlarının sürətli işləməsinə, lazımsız iş yerlərinin boşalmasına şərait yaratmışdır. Bundan başqa, istifadə olununan texnoloji avadanlıqlar kitabxana–informasiya proseslərini avtomatlaşdırmasını və kitabxananın internet şəbəkəsinə qoşulmasını daha da asanlaşdırmasına gətirib çıxartdı.

2000-ci ildə Respublika Elmi-Texniki Kitabxanası elektron kataloq və məlumat bazasının yaradılması işinə başladı. 2001-ci ildə kitabxana tərəfindən texnikaya dair 6000-dən çox ədəbiyyatı seçilib, elektron kataloqa işlənmişdir. 2003-cü ildə kitabxananın veb saytını və serverini, elektron kataloqunu yaratmaq üçün internet sisteminə keçid üzrə layihə hazırlanmışdır.

Bu gün Respublika Elmi-Texniki Kitabxanası ənənəvi funksiyaları ilə yanaşı, virtual informasiya mərkəzinə çevrilməkdədir. Bu isə kitabxananın maddi resurslarının elektronlaşdırılması,oxucuların internet xidməti vasitəsi ilə kitabxanaya getmədən həmin resurlardan istifadə etmək imkanını yaradır. Kitabxananın kompüter şəbəkəsinə qoşulması üçün vacib olan resurslar bunlardır:

1) internet;
2) kompüter texnikası;
3) lokal kompüter şəbəkəsi və s.

Son illər ərzində RETK-da tətbiq olunan texnologiyalar və əldə olunan yeniliklərə yeni kitabların alınması, əldə olunmuş ədəbiyyatların elektron yaddaşa köçürülməsi,lokal kompüter şəbəkəsinin yaradılması və tətbiqi, oxuculara onlayn xidmət işinin təşkili, İRBİS-64 avtomatlaşdırılmış kitabxana informasiya sisteminin tətbiq olunması aiddir. Buna əsasən kitabxana işinin avtomatlaşdırması və onun fondlarının müasir informasiya daşıyıcılarına köçürülməsi kimi yeni tədbirlər görülmüşdür.İnternet xidməti həm oxuculara xidmət işində kitabxananın imkanlarını genişləndirmiş, həm də tələb olunan vəsaitləri oxucula-

ra asanlıqla çatdırmaq şəraitini yaratmışdır. Kitabxana ”İnternet” sistemi vasitəsi ilə respublika və xarici ölkələrin kitabxanaları ilə informasiya mübadiləsi aparır. İnternet resurslarından istifadə nəticəsində kitabxananın veb saytı yaradılmış və bu saytdan istifadə nəzərə çarpacaq şəkildə yaxşılaşdırılmışdır. Onu da qeyd edək ki, kitabxananın saytında onun elektron kataloqu ilə yanaşı, kitabxananın tarixi və ümumi məlumat, xüsusi günlərlə bağlı keçirdiyi tədbirlər və onların qısa xülasasi, fotoşəkillər yerləşdirilmişdir.

2012-ci il iyun ayının 19-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 654 saylı fərmanına əsasən, Əqli Mülkiyyət Agnetliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının saytı retk.az yenidən işlənilib, hazırlanmış AZSTATENET DATA Mərkəzində yerləşdirilmişdir. Kitabxananın elektron katalaloqu, retk.copat.gov.az saytında yerləşir və 24 saat ərzində istifadəçilərə təmənnasız xidmət göstərir. Kitabxananın retk.copat.gov.az saytında olan bəzi ədəbiyyatlar elektron kitablar bölməsində pdf formatında öz əksini tapmışdır. Bundan əlavə, hər ayın sonu kitabxananın elektron kataloqunda məlumatların yenilənməsi əməliyyatları həyata keçirilir.

RETK-nın ən mühüm yeniliklərindən biri də kitabxanada “Yeni informasiya texnologiyaları” şöbəsinin yaradılmasıdır. “Yeni informasiya texnologiyaları” şöbəsi cari dövrün tələblərinə uyğun yeni məlumatların alınmasını, toplanmasını, işlənməsini, mühafizəsini və ondan istifadə olunması kimi prosesləri yerinə yetirir. Şöbə hətta elektron avadanlıqların istifadəçilər və şöbələr arasında bölüşdürülməsini həyata keçirir və lazım olan sənədləri hazırlayıb, digər şöbələrə təqdim edir. Şöbənin başlıca vəzifəsi kitabxananın elektronlaşdırılması işinin başa çatdırılmasıdır. Ancaq kitabxananın fondu çox olduğu üçün bu iş xeyli vaxt tələb edir. Onu da qeyd etmək olar ki kitabxananın“İnformasiya texnologiyaları” şöbəsi yeni layihə işləmişdir. Bu layihə aşağıdakı formada öz əksini tapmışdır:

1.Fondun, normativ-texniki sənədlərin elektron kataloqa köçürülməsinin təsnifləşdirilməsi;

2.Dövri nəşrlərin sistemin yaddaşına daxil edilməsi;

3.Sistemin yaddaşına daxil edilmiş ədəbiyyatların skanerdən keçirərək pdf formatında işlənməsi;

4.Şöbədə informasiya texnologiyası mütəxəsislər qrupun yaradılması;

5.Rəqəmsal formata salınmış sənədlərin retk.copat.gov.az saytında yerləşdirilməsi;

6.Kitabxana əməkdaşlarının elektron resusrların toplanması və sistemləşdirilməsi işi ilə məşğul olması;

7.Dövrün tələblərinə uyğun ölkənin daxili və xarici siyasətini, neft-qaz ədəbiyyatını əks etdirən elektron resurslar şəklində portalların yaradılması;

8.Kitabxanada elm və texnikanın fəaliyyətini əks etdirən elektron resurslar bazasının yaradılması və geniş mütəxəssis qruplarını cəlb etməklə həmin portalların, konfransların təşkil edilməsi[3].

2016-cı ildə Respublika Elmi-Texniki Kitabxanasında İRBİS 64-Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi alınmış və tətbiq olunmuşdur. Ümumiyyətlə, İRBİS-64 AKİS XX əsrin 90-cı illərinin sonlarında Rusiya Dövlət Elmi-Texniki Kitabxanasının əməkdaşları tərəfindən yaradılıb. İRBİS -64 AKİS fondun komplektləşdirilməsindən tutmuş, kitab verilişinə qədər bütün kitabxana proseslərinin avtomatlaşdırırlmasını təmin edir. İRBİS-64 AKİS Azərbaycan da daxil olmaqla, dünyanın 20-dən çox ölkəsində fəaliyyət göstərən kitabxanalarda tətbiq edilir. Bu gün informasiya istifadəçiləri kitabxananın veb səhifəsi vasitəsi ilə onun elektron kataloqundan istifadə edə bilələr.

Hazırda kitabxanada tətbiq olunan İRBİS AKİS-in üstünlüklərinə aşağıdakılar daxildir:

1.Bütün tip lokal şəbəkələrdə işləyir;

2.Veb texnologiyası və Z39.50 protokolu ilə uzlaşır;

3.UNİMARC, USMARC, MARC 21, RUSMARC formatlarına uyğundur;

4.Korporativ kitabxana sistemlərinə və texnologiyalarına inteqrasiya edilə bilir;

5.İRBİS AKİS Beynəlxalq AKİS-lərə konvertasiya edilə bilir;

6.UOT, KBT, DÜİ təsnifat sistemləri ilə web formatda İSO, XML, UTF8, Windows-1251, CP 866 və digər formatlarla uzlaşır;

7.İRBİS AKİS-də Komplektləşdirici", "Kataloqlaşdırıcı" "Oxucu", "Kitabverilişi" və "İnzibatçı" Avtomatlaşdırılmış iş yerləri fəaliyyət göstərir;

8.İRBİS həm lokal şəbəkədə (internetə çıxışı olmadan), həm də online (web – Elektron kataloq) şəklində fəaliyyət göstərir;

9.İRBİS AKİS-in uzaq məsafədən modullarının idarə edilməsi funksiyaları vardır [2].

Kitabxanaya daxil edilmiş hər bir material İRBİS-64 AKİS-də Kataloqlaşdırma modulunda Elektron kartoteka bazasına daxil edilir. Oxucu RDR bazasında isə kitabxanaya üzv olan oxucular qeydiyyatdan keçirilir.

Hazırda Kitabxanada İRBİS-64 AKİS-in fəaliyyat göstərdiyi modullara daxildir:

1.Web şlyuz;
2.Kataloqlaşdırma AİY;
3.Kitabişləmə AİY;
4.Oxucu RDR AİY;
5.Kitab verilişi AİY;
6.Komplektləşdirmə AİY[3].

Bundan başqa, Respublika Elmi-Texniki Kitabxansında elektron kataloqun, elekton kitabxananın təkmilləşdirilməsi və tətbiqi bağlı işlər görülür. Bu gün elektron kitabxanalar müasir dövrün başlıca tələblərindən biri kimi virtual informasiya mühitin yaradılmasına, distant təhsilin inkişafına, cəmiyyətin informasiyalaşdırılmasına xidmət edir. Bundan əlavə, kitabxanada fondun rəqəmsallaşdırılması ilə bağlı müvafiq işlər görülmüşdür. Kitabxanada PDF formatında olan rəqəmsal ədəbiyyatlar başqa disklərə online şəkildə yazılaraq xüsusi yeşiklərdə saxlanılır. Buna əsasən hər bir oxucu bu disklərdən kitabxananın oxu zalındakı kompüterlər vasitəsi ilə istifadə edə bilər. Zaman və məkandan asılı olmayaraq hər biri oxucu kitabxananın elektron kataloqundan istifadə edə bilər.

Respublika Elmi-Texniki Kitabxanası elektron kitabxanaların təcrübələrinə uyğun olaraq aşağıdakı yenilikləri yerinə yetirir:

1.Hər hansısa bir əsərin rəqəmsallaşdırılması;
2.Rəqəmsal formada olan əsərlərin nüsxəsinin yaradılması;
3.Rəqəmsal formada elektron sənəd mübadiəsi;
4.Sənədlərin elektron çatdırılması;
5.Sənədlərin serverə, kompüterin sərt diskinə yazılması;
6.Rəqamsal əsərlərin məlumat bazasının yaradılması;
7.Elektron kitabxana resurslarının yaradılması;
8.Rəqəmsal əsərlərin lokal rəqəmli şəbəkələrdə yerləşdirilməsi;
9.Rəqəmsal formada olan sənədlərin çapı.

2011-ci il 24 noyabr tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Elektron xidmət növlərinin siyahısının təkmilləşdirilməsi və siyahıda olan, lakin tətbiq ediməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi ilə bağlı 191 nömrəli qərarı təsdiq edildi. 2018-ci ildə isə elektron xidmət növlərinin siyahısına dəyişikliklər edilmiş və Əqli Mülkiyyət Agentliyi tərəfindən elektron xidmətin siyahısına 7 xidmət əlavə edilmişdir. Bu xidmətlərin Elektron hökümət portalı vasitəsi ilə fəaliyyət göstərməsi üzərində işlər aparılmışdır. Buna nəzərən, Respublika Elmi-Texniki Kitabxanası göstərdiyi xidmətlərin bir hissəsinin Elekton hökümət portalında fəaliyyət göstərməsi üçün müvafiq tədbirlər görmüşdür. Elektron hökümət portalı müasir texnologiyaların imkanlarından, informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək, vətəndaşlara göstərilən xidmətlərin yeni formada tətbiq edilməsini təmin edir.

2018-ci ildə kitabxananın fəaliyyətinin tam şəkildə elektronlaşdırılması və kitabxana sisteminin inkişaf etməsi üçün ALİSA (Automatid Library İnformation System of Azebaijan) sistemi kompleks bir layihə kimi yaradılmışdır. Bu sistem kitabxana oxucu münasibətlərini və kitabxanadaxili prosesləri avtomatlaşdırıldı. Proqramın yaradılmasının və tətbiq olunmasının başlıca məqsədləri aşağıdakılar olmuşdur:

1.Kitabxanadaxili proseslərin avtomatlaşdırılması;

2.Online xidmətin yaradılması;

3.İstənilən kitabxananın ALİSA sisteminə qoşulması;

4.Oxuculara daha dolğun və operativ şəkildə xidmət işinin göstərilməsi.

Qeyd etmək lazımdır ki, ALİSA sistemində kitabxananın bütün fəaliyyəti nəzərə alındı.Onun ən böyük üstünlüyü online rejimdə işləməsi idi. Həmçinin sistemə dünyanın istənilən nöqtəsindən daxil olmaq mümkün idi[4].

Əqli Mülkiyyət Agentliyi və onun tabeliyində Respublika Elmi-Texniki Kitabxanası və digər müəssisələrdə informasiya texnologiyalarının həlləri, informasiya mübadiləsi və şəbəkə rejminin qurulması istiqamətlərində işlər görülmüşdür. Bu məqsədlə həm Agentlik, həm də kitabxanada informasiyaların fasiləsiz alınması, işlənməsi, ötürüməsi və təhlükəsizliyinin təmin edilməsilməsində bir çox nəticələr əldə olunmuşdur. Sözsüz ki, bu işlərin daha da təkmilləşdiriliməsi üçün görülən tədbirlər hələ də davam edir.

## *ƏDƏBİYYAT*


1. *Məmmədov M.Ə. Azərbaycanda texniki kitabxanaların inkişafı: Monoqrafiya. - Bakı: "Avropa" nəşriyyatı, 2016.- s.201-244.*
2. *Məmmədov M.Ə Respublika Elmi-Texniki Kitabxanası müasir mərhələdə// Kitabxanaşünaslıq və informasiya : Elmi-nəzəri və təcrübi jurnal.- 2019, №2. - s.75-77.*
3. *Məmmədov M.Ə Müstəqillik illərində Respublika Elmi-Texniki Kitabxanasının maddi-texniki bazasının vəziyyəti//Kitabxanaşünaslıq və informasiya:Elmi nəzəri və praktiki jurnal.-2015, №1 (16). - 63 s.*
4. *Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentıiyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının 2018-ci il hesabatları.*
5. *https://retk.copat.gov.az/*


**Mehmanali Akbar oglu Mammadov,**
**Gunay Sabir gizi Musayeva**

**THE APPLICABILITY OF NEW INFORMATION TEXNOLOGIES IN THE REBUBLIC SCIENTIFIC-TECHNICAL LIBRARY**

***Abstract:*** *In the article, one of the main conditions for global development is the transfer of knowledge and information from modern technologies.Today, as a result of the development of information and communication technologies, new tools and mechanisms of various forms are being implemented in all areas. One of the enterprises where information technology is applied is libraries. Today, the modern library is able to enrich its electronic document fund, delivering electronic materials to its readers from the edge of the library at any time of the day. As can be seen, the application of ICT changes the basic structure and functions of libraries, turning it into a multifaceted institution.*

***Key words:*** *scientific and technical library,information technologies,electronic library,electronic catalog,automated library information system,online sevice.*

**Мехманали Акпер оглы Мамедов,**
**Гюнай Сабир кызы Мусаева**

# ВНЕДРЕНИЕ НОВЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИИ В РЕСПУБЛИКАНСКОЙ НАУЧНО-ТЕХНИЧЕСКОЙ БИБЛИОТЕКЕ

***Резюме:*** *В статье отмечается, что одним из основных условий глобального развития является передача знаний и информации от современных технологий. Сегодня в результате развития информационно-коммуникационных технологий во всех сферах реализуются новые инструменты и механизмы различной формы. Одним из предприятий, где применяются информационные технологии, являются библиотеки. Сегодня современная библиотека, обогащая свой Фонд электронных документов, способна в любое время суток доставлять электронные материалы со стороны библиотеки своим читателям. Как видно, внедрение ИКТ изменяет основную структуру библиотек, их функции, превращая ее в многогранный институт.*

***Клочевые слова:*** *Научно-техническая библиотека, informasiya texnologiyaları, электронная библиотека, электронный каталог, автоматизированная библиотечная информационная система, интернет сервис.*

**Nazlı Əli qızı Həsənova**
***Bakı Dövlət Universiteti***
***İnformatika kafedrasının dosenti,***
***texnika üzrə fəlsəfə doktoru***
ictnazli@gmail.com

***Firuzə Əliyeva Allahqulu qızı***
***Bakı Dövlət Universiteti***
***İnformatika kafedrasının müəllimi***
f.aliyevainf@mail.ru

# MÜASIR KİTABXANALARIN RƏQƏMSAL İNFORMASİYA FƏZASINA İNTEQRASİYASI

*Məqalədə bulud texnologiyalarının kitabxana işinə tətbiq edilməsi ilə elektron resursların informasiya fəzasına inteqrasiyası məsələsinə baxılmışdır. Kütləvi kitabxanalarda bulud texnologiyalardan istifadənin müxtəlif növləri tədqiq olunmuşdur. Bulud texnologiyalarına əsaslanan müstəqil proqram təminatına əlçatanlığın təmin edilməsi və kitabxanaların fəaliyyətində faydalı alətə çevrilməsi araşdırılmışdır.*

***Açar sözlər:*** *yeni nəsil kitabxanalar, informasiya fəzası, virtual mühit, bulud xidmətləri, kitabxanaların proqram təminatı.*

Müasir kitabxanaların vahid informasiya fəzasına inteqrasiyası şəxsi unikal resursların yaradılması və inkişaf etdirilməsi, müxtəlif mədəniyyət ocaqlarının prosesə cəlb edilməsi, kitabxanalararası əlaqələrin gücləndirilməsi, elektron resursların istifadəçiləri ilə iş üçün yeni formaların axtarışı və mövzu əhatəsinin genişləndirilməsi başa düşülür. Müasir kitabxanaların inteqrasiyası onların fəaliyyətlərindəki ümumi işlər, problemlər və istiqamətlərlə şərtlənir. Məsələn, universitet kitabxanaları lazımi informasiyaların operativ əldə edilməsi üçün universal informasiya mərkəzi olmaqla universitetdə tədris və elmi-tədqiqat proseslərini, elmi, metodik və tədris resurslarının nüvəsini təmin edirlər.

Yeni nəsil kitabxanalarda mövcud olan və gözlənilən özəlliklər aşağıdakılardır:

- Kitabsız kitabxanalar;
- Avtomatlaşdırılmış sistemlərlə dəstəklənən kitabxanalar;
- Elektron verilənlər bazalarına aktiv giriş imkanlarının olması;
- Rəqəmsal xidmətlərin verilməsi;
- Ənənəvi kitabxanalarda tələb olunan həddindən artıq səssizliyin gərəkli olmaması;
- "Yaşıl" kitabxanalar (Yenilənə bilən enerji mənbələrini istifadə edən kitabxanalar);
- Sosial kitabxanalar (Sosial xarakterli tədbirlərin keçirilməsinə şərait yaradan və ofis kimi istifadə oluna bilən kitabxanalar);
- Yüksək ixtisaslı və aktiv kitabxanaçılar.

R. David Lankesə görə kitabxanaların yeni missiyası cəmiyyətin inkişafı üçün biliklərin yaradılmasına kömək etməkdir. "Dünya kitabxana ətrafında qurulur" - məşhur paradiqmanın transformasiyası nəticəsində "Kitabxana ona lazım olan hər yerə gedə bilir" - fikri formalaşmışdır. R. David Lankes kitabxanaları qruplaşdırır: *qənaətbəxş* kitabxanalar yalnız kitabxana fondlarının yaradılması ilə məşğul olurlar. Real tələb olunan kolleksiyalar isə kitabxana rəflərində olmaya bilər. Eyni zamanda oxucu icmalarına kifayət qədər diqqət yetirilmir; *yaxşı* kitabxanalar xidmətlər yaradır və təqdim edir. Yaxşı xidmətlərin mövcudluğu yaxşı fondlar qədər zəruridir, lakin kifayət deyil; *çox yaxşı* kitabxanalar tələbələr və alimlər üçün icmaların qurulmasını təmin edirlər. Onları bir komandada birləşdirir və yeni üzvlərlə genişləndirirlər[3].

Texnologiyaların inkişafı artdıqca kitabxanalar da dəyişir: kitabxana materialları, multimedia, məlumat əldə etmək üçün vasitələr, binaların təbiəti və s. İnformasiya sistemlərinə rəqəmsal qurğular, əməliyyat sistemləri, rəqəmsal multimedia, şəbəkələr və serverlər, audio visual sistemlər və s. daxil olmaqla məlumat əldə etmək üçün istifadə olunur və həmçinin kitabxanalardakı məlumatların rəqəmsallaşması prosesi həyata keçirilərək rəqəmsal məlumat bazaları yaradılır. Müasir kitabxanalar üçün trendlər və texnologiyalar siyahısına bulud hesablamaları (Cloud computing), QR kodu, Yaşıl Kitabxana konsepsiyasını, Süni intellekti (Artificial Intelligence), Virtual reallığı

(Augmented Reality), Mobil xidmətləri, Robototexnikanı, İKT tətbiqlərini və s. aid edə bilərik.

Kitabxanaların rəqəmsal informasiya fəzasına inteqrasiya etməsi üçün kitabxana proseslərinin avtomatlaşdırılması, şəbəkədə korporativ qarşılıqlı əlaqə vasitəsilə kitabxana idarəçiliyinin optimallaşdırılması, istifadəçilər üçün onlayn kitabxana xidmətlərinin
inkişaf etdirilməsi, hibrid kitabxana fonduna keçidin təmin edilməsi, rəqəmsal kitabxanaların və arxivləşdirmə üçün verilənlər bazalarının yaradılması, informasiya resurslarının yeni növləri ilə işləmək bacarıqlarının formalaşması, istifadəçilərə məsləhət və təlimlərin təqdim edilməsi imkanlarının mümkünlüyü zəruridir.

Kütləvi kitabxanalar şəbəkəsi biliklərin toplanması və ötürülməsində, insanların informasiyaya sərbəst çıxışının təmin edilməsi hüquqlarının təmin edilməsində, cəmiyyətdə rəqəmsal və informasiya uyğunsuzluğunun aradan qaldırılmasında, kontentin inkişaf etdirilməsi və ona bərabər hüquqlu çıxışın təqdim edilməsində, informasiya və kommunikasiya texnologiyaları sahəsində savadlılıq səviyyəsinin yüksəldilməsi və informasiya mədəniyyətinin yüksəldilməsində aparıcı rol oynayır. Lisenziyalı proqram təminatına tələblərin sərtləşdirildiyi, maliyyənin azaldıldığı şəraitdə kitabxanalar bahalı lisenziyalı proqramlar almalı, proqramçıların əməyini ödəməli, fərdi kompüterlərin texniki xüsusiyyətlərini yaxşılaşdırmalıdır ki, bu da təbii olaraq, kütləvi kitabxanaların kiçik büdcəsinə təsir göstərir. Həmçinin informasiyalaşdırma şöbəsi, sistem administratoru və şəxsi serverə sahib olmaq kimi imkanlar hər kitabxanaya uyğun olmaya bilər. Belə bir vəziyyətdə ən yaxşı həll bulud hesablamalarından istifadə ola bilər.

Bulud texnologiyalarında istifadəçilərə müxtəlif xidmətlərin təqdim olunması üç baza modeli (SaaS, PaaS, IaaS) və digər törəmə modellər əsasında həyata keçirilir. Baza modelləri birlikdə SPI model adlanır, burada SPI – Software, Platform, Infrastructure (as a Service) modellərinin baş hərflərindən formalaşmışdır: SaaS (Software as a Service), PaaS (Platform as a Service), IaaS (Infrastructure as a Service).

*SaaS modeli* proqram təminatını xidmət kimi təqdim edir. Bu zaman buludda yalnız istifadəçinin verilənləri deyil, həmin verilənlərə

aid olan proqram təminatı da saxlanılır. İstifadəçinin işi üçün yalnız web-brauzer tələb olunur.

*PaaS modeli* xidmət kimi platforma təqdim edir. Başqa sözlə, hesablamalar və verilənlərin ötürülməsinin artan imkanları əməliyyat sistemini də buluda verir, bununla da onun iş qabiliyyətini mütəxəssislərə həvalə edir. İstifadəçinin kompüterində yalnız proqram əlavələri qalır.

*IaaS modeli* bulud texnologiyaları konsepsiyası əsasında kompüter infrastrukturunun xidmət kimi təqdim edilməsidir. Bu səviyyədə istifadəçi baza hesablama resurlarını əldə etmiş olur. DATA-mərkəzlərin xüsusi xidməti sayəsində istifadəçi hesablama gücünü artırmış olur. İnfrastrukturu istifadəçiyə servis şəklində təqdim etdikdə, bu servisin istifadəçiyə hansı üsullarla təqdim olunması, fiziki resursların harada yerləşməsi, neçə serverin işlək vəziyyətdə olması, bu serverlərdə neçə prosessorun olması istifadəçi üçün heç bir əhəmiyyət kəsb etmir. İstifadəçi, sadəcə, əlyetən olan resurslar toplusunu görür və oradan ona lazım olan miqdarda resursu əldə edir.

Kütləvi kitabxanalarda bulud texnologiyalardan istifadənin müxtəlif növləri reallaşdırıla bilər:

- Şəxsi bulud (*Private cloud*) bir kitabxana daxilində xidmətlərin təqdim edilməsi üçün istifadə edilir. Bu halda kitabxana eyni zamanda həm sifarişçi, həm də xidməti təqdim edən olur;
- Ümumi bulud (*Public cloud*) zəruri proqram təminatı ilə infrastrukturun yerləşdirilməsi və kitabxananın hüdudlarından kənarda müraciət mexamizminin təqdim edilməsi imkanını verir;
- Hibrid bulud (*Hybrid cloud*) iki və daha çox fərqli bulud növündən (şəxsi bulud və ümumi bulud) ibarət olur;
- İctimai bulud (*Community cloud*) kitabxanaların ümumi məqsədləri olan konkret istifadəçi qrupları tərəfindən istifadəsi üçün nəzərdə tutulmuşdur [1].

Kütləvi kitabxanalar üçün bulud yaddaşının istifadəsi mövcud xidmətlərin qənaətbəxş olmadığı lazımi xidmətlərin təqdim edilmədiyi halda, həmçinin kitabxana xərclərini optimallaşdırmaq və ya azaltmaq lazım olduğu hallarda məqbul həll yolu ola bilər. Bu texnologiyalar müxtəlif üsullarla istifadə edilə bilər: şəxsi giriş üçün yaddaş imkanla-

rı (bir kitabxanaçı tərəfindən istifadə olunur); məhdud giriş üçün yaddaş imkanları (kitabxana işçiləri və ya müəyyən bir istifadəçi qrupu tərəfindən istifadə olunur); açıq giriş yaddaş imkanları (kitabxananın bütün istifadəçiləri tərəfindən istifadə olunur). Belə xidmətlərin üstünlükləri müxtəlif ola bilər: istifadəçilərin işçi stansiyalarında proqram təminatının quraşdırılmasına ehtiyac yoxdur
(proqram təminatına adi brauzer vasitəsilə daxil olmaq mümkündür); sistemin kitabxanada yerləşdirilməsi xərclərinin azaldılması; texniki dəstək və proqram təminatının yenilənmələrinə çəkilən xərclərin azaldılması; icra sürətinin artması; işçilərin əksəriyyəti artıq veb-xidmətlərdən istifadə etdiklərinə görə rahat intuitiv interfeys əlverişli olur; çox platformalılığın dəstəklənməsi [2].

Bulud yaddaşının istifadəsi ilə yanaşı, bulud texnologiyalarına əsaslanan müstəqil proqram təminatına əlçatanlığın təmin edilməsi də kitabxanaların fəaliyyətində faydalı alətə çevrilə bilər. Müstəqil proqram təminatına malik istifadəçilər onun məhdudiyyətsiz quraşdırılması, işə salınması, pulsuz istifadəsi, öyrənilməsi, yayılması və təkmilləşdirilməsi, habelə nüsxələrin və modifikasiya nəticələrinin yayılması hüquqlarına malikdir. Hazırda kitabxana-informasiya sistemləri üçün Koha, DSpace, NewGenlib, Fedora, Eprints və başqaları kimi pulsuz proqram təminatı mövcuddur.

Populyar proqramlar olaraq Koha, DSpace və Eprints qeyd edilə bilər. DSpace rəqəmsal aktivləri idarə etmək üçün alətləri özündə birləşdirən müstəqil proqram təminatı paketidir; kollektiv arxivlər üçün əsas rolunu oynayır və kontentin rəqəmsal formada saxlanması üçün platforma olaraq istifadə olunur [6]. Eprints - açıq giriş əlçatanlığı olan arxivləri yaratmaq üçün müstəqil proqram təminatı paketi olub, metaverilənlərin əldə edilməsi üçün açıq arxiv təşəbbüsü protokolu ilə uyğun gəlir (Open Archives Initiative Protocol for Metadata Harvesting). Bu pulsuz proqram təminatı elektron sənəd
dövriyyəsi sistemlərində reallaşdırılan bir çox imkanları təmin edir, lakin ilk növbədə kollektiv arxivlər və rəqəmsal kitabxanalar yaratmaq üçün istifadə olunur.

AKİS-lərin proqram təminatından gözlənilən imkanların çoxunu Koha təqdim edə bilir:

- Kitabxanaçılar və oxucular (kitabxana ziyarətçiləri) üçün sadə və aydın interfeys;
- Müxtəlif Web 2.0 alətləri (teq buludları, RSS lentləri);
- Müxtəlif resurslardan (Amazon, Google Books və s.) informasiyanın aqreqatlaşması imkanları ilə müasir əlaqələndirilmiş kataloqun yaradılması vasitələri;
- Sadə və genişləndirilmiş axtarış imkanları;
- Oxucu bildiriş sistemi ilə sənəd dövriyyəsinin və oxucuların idarə edilməsi (e-poçt, şəxsi hesab, SMS);
- Daxili müştəri Z39.50 ilə kataloqlaşdırma modulu;
- Tam gəlir sistemi, xüsusilə büdcə xərcləri və qiymətlərə aid məlumatlar (o cümlədən satıcılar və valyuta konvertasiyası);
- Kiçik bir kitabxana üçün tam gəlir sistemi;
- İstənilən sayda alt bölmə, ziyarətçi, ziyarətçi kateqoriyaları, nümunələr, nümunə kateqoriyaları və digər məlumatlar ilə işləmək bacarığı;
- Jurnal və ya qəzetlər üçün dövri nəşrlər sistemi;
- Ziyarətçilər üçün oxunmuşlar siyahıları;
- SIP2.0 protokolu ilə RFID avadanlıqlarının istifadəsi, eləcə də ştrixkoddan istifadə;
- İnterfeys daha çox dillərə tərcümə edilmişdir;
- Əsas kitabxana standartları dəstəklənir: MARC21, UNIMARC (RUSMARC), Z39.50, SRU/SW;
- Avtonom sənəd dövriyyəsi moduluna malikdir;
- Ştrixkodları və kitabxana kartlarını çap etmək imkanına malikdir;
- Sürətli axtarış üçün tam mətnli indeksləşdirmə sistemi vardır;
- İstənilən meyarlar üzrə analitik hesabatların yaradılması mümkündür.

Bulud yaddaşı və müstəqil proqram təminatından əlavə, kütləvi kitabxanalar bir çox başqa xidmətlərdən də istifadə edə bilərlər. Google şirkəti müxtəlif xidmətləri təqdim edir: Gmail e-poçtu, təqvim, Hangouts video konfransı və söhbət xidməti, Google+ sosial şəbəkəsi, YouTube video hostinqi. Google Docs isə sənədləri, cədvəlləri, təqdi-

matları, fotoşəkilləri, anketləri və veb formaları birbaşa istənilən cihazdan brauzerdə yaratmağa, redaktə etməyə və saxlamağa, həmçinin faylları digər istifadəçilərlə asanlıqla paylaşmağa imkan verir.

Microsoft şirkəti istifadəçilərə Office365 xidmətini təklif edir. Bu, qlobal bulud əsaslı ilk ofis proqramları xidmətidir. Office365 vaxta, pula qənaət etməyə və qiymətli resursları yerləşdirməyə kömək etmək üçün bulud məhsuldarlığının gücünü təqdim edir. Bu xidmət bizə tanış olan Microsoft Office işçi stol dəstini və Microsoftun yeni nəsil kommunikasiya və əməkdaşlıq alətlərinin bulud əsaslı versiyalarını, o cümlədən Office Online və Microsoft Skype, OneDrive buludunu bir araya gətirir. Beləliklə də istifadəçilər internet bağlantısı olan hər yerdə öz resurslarından istifadə edə bilərlər.

Microsoft şirkətinin yeni proqram təminatı olan Sway – elektron təqdimatların yaradılması vasitəsidir. Bu proqram intuitiv interfeysə malik krosplatformalılığı dəstəkləyir, yəni müxtəlif aparat platformaları və əməliyyat sistemləri ilə işləmək imkanına malikdir. Proqram Word, PowerPoint faylları ilə işləyir və işə başlamazdan əvvəl hazırlıq tələb etmir. Tətbiqin əsas üstünlükləri bunlardır: universallıq - bir neçə proqramın istifadəsini tələb etmir, bütün əməliyyatlar (mətndən tutmuş animasiyalı qrafikaya qədər) Sway mühitində yaradılır; əlçatanlıq – maketlər bir neçə istifadəçi üçün işləmə müddətində belə əlçatan olur, hətta istifadəçilərin Microsoft hesabı və ya proqram təminatı olmasa belə, onlar məlumatlara baxa və redaktə edə biləcəklər; brauzer platforması - hazır təqdimatlar veb səhifələr kimi dərc olunur, təqdimatları fləş disklərdə saxlamağın mənası yoxdur; sosial şəbəkələrlə inteqrasiya - işləyərkən faylları həmkarlarınıza göndərmək və nəticəni paylaşmaq imkanı vardır; proqnozlaşdırma - proqram görülən əməliyyatları optimallaşdırır, təqdimat üzərində işi sürətləndirir, eyni növ əməliyyatları təkrarlamağa ehtiyac qalmır - alqoritmi ehtimal edərək, proqram istifadəçi üçün hər şeyi edir.

Kitabxanalar peşəkar video və təqdimat slaydlarını yükləməyə imkan verən pulsuz xidmət olan Slideshare imkanına da diqqət yetirməlidirlər. YouTube kanalından fərqli olaraq, bu resursda diqqət təqdimata yönəldilir. Kitabxanalar onlayn qrafik redaktorların, onlayn kitab formatlarının, audio və video faylların, jpg-dən pdf-ə konvertorla-

rın xidmətlərindən istifadə edirlər. Kitabxanalar üçün faydalı ola biləcək onlayn nəşriyyat xidmətləri Issuu və Calameo qeyd edilə bilər. Bu onlayn platformalar pdf sənədlərinin (portfoliolar, kitablar, jurnallar, qəzetlər və s.) veb nəşrlərini yaratmaq, saxlamaq və onlara baxmaq imkanı təqdim edir [4].

Infogr.am, Pictochart və Padlet kimi bulud xidmətləri kitabxanaların kontentini zənginləşdirməyə kömək edir. *Infogr.am* Google Analytics-dən istifadə edərək rəngli diaqramlarla, iyerarxik strukturlu xəritələrlə, taymerlər və statistika ilə infoqrafika yaratmaq üçün platformadır. Xidmət həm kiçik mətn blokları, həm də Excel və Google Drive ilə yüklənə bilən böyük məlumat dəstləri ilə işləmək üçün əlverişlidir. *Pictochart* infoqrafika yaratmaq üçün başqa bir vasitədir, kitabxanalar üçün sosial şəbəkələrdə rəngarəng yazıların yaradılması, xidmətlərin vizual təqdimatı üçün faydalı olacaqdır. Saytın ayrı-ayrı qrafik elementlərindən (düymələr, simgələr), bannerlərdən, reklam posterlərindən (tədbirlərin elanları və s.) istifadə olunur. *Padlet* mətn mesajları, fotoşəkillər, keçidlər və s. istifadə edərək digər istifadəçilərlə əlaqə saxlamağa imkan verərək qeydlərin və layihə üzrə əməkdaşlıq mübadiləsinin həyata keçirildiyi pulsuz xidmətdir. Bu xidmətdən həmçinin bülleten lövhəsi kimi istifadə etmək olar.

İnformasiya texnologiyalarının inkişafı, bir çox texnologiyaların kitabxana işində tətbiq edilməsi kitabxana əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsini də tələb edir. Müasir dövrün tələblərinə uyğun olaraq kitabxanaçının missiyası, bu missiyaya nail olmaq üsulları və öz işlərində rəhbərlik etmək üçün istifadə etdikləri dəyərlər də dəyişir. Kitabxanaçının missiyası özündə və müxtəlif birliklərdə biliklərin yaradılmasını asanlaşdırmaqla cəmiyyətin informasiyalaşdırılmasına töhvə verməkdir. Kitabxanaçılar diqqəti kolleksiyalar və ya obyektlərə deyil, daha çox öyrənərək bilik əldə etməyə və insanlara yönəldirlər. Kitabxanaçını müəyyən edən ikinci amil onların öyrənməyi asanlaşdırmaq üçün istifadə etdiyi üsullardır. Kitabxanaçılar insanları öyrənməyə və müəyyən tədbirlərdə iştirak etməyə həvəsləndirir və motivasiya edirlər:

1) Bəzi istifadəçilər (məsələn tələbələr) kitabxanaya ona görə

gəlirlər ki, müəyyən edilmiş bir tapşırığa aid informasiya axtarırlar və nəticənin qiymətləndirilməsini istəyirlər – bu xarici motivasiyadır. Bəzi insanlar isə kitabxanaya şəxsi inkişaf üçün özləri istədikləri və ya maraq dairələrinə uyğun informasiya axtardıqları üçün gəlirlər – bu daxili motivasiyadır. Kitabxanaçı bu motivasiya növlərinin hər biri ilə necə işləmək üçün təlim keçməlidir və istifadəçilərin niyə kitabxanadan istifadə etdiyini başa düşməlidirlər.

2) Kitabxanaçılar məlumatlara və insanlara əlçatanlığı təmin edirlər: kitab və informasiya materiallarına əlçatanlığın təmin edilməsi imkanı peşəkar hazırlığın çoxdankı əsasını təşkil edir və onu genişləndirmək lazımdır; kitabxanaçılar istifadəçiləri yalnız verilənlər bazası və ya arxiv materialları ilə təmin etməyi deyil, digər insanlarla da əlaqələndirmə imkanına malik olmalıdırlar. Kitabxanaçılar həmçinin insanların yaratdığı məhsullar üçün auditoriya tapmağa kömək edirlər, yəni təkcə oxucu üçün kitab tapmaq deyil, müəllif üçün nəşriyyat tapmaq da önəmlidir.

3) Kitabxanaçılar müxtəlif sistemlər və resurslar haqqında bilik və ya əsas anlayışların təminatını təşkil edirlər: internet heç bir kompüter bacarığı olmayanlar üçün faydasız bir mənbədir. Eyni şəkildə, həyat əhəmiyyətli vacib tibbi məlumat, yalnız həkimin başa düşəcəyi dildə təqdim edilirsə və terminlərdən ibarətdirsə, xəstə üçün faydalı deyildir. Kitabxanaçılar sahəvi biliklərə malik olub müxtəlif birliklərə necə öyrətməyi və təlimat verməyi bacarmalıdırlar.

4) Kitabxanaçıların ixtisaslarının artırılması və onlara hərtərəfli metodiki köməklik göstərilməsi məqsədilə bir çox iri kitabxanaların veb səhifələrində metodik otaqlar yaradılır. Bu virtual metodik kabinet bir anda bir neçə problemi uğurla həll edə bilər: normativ-hüquqi sənədlərə geniş çıxışın təmin edilməsi; məlumat mübadiləsi məqsədi ilə dialoq qurmaq üçün vasitə kimi; kitabxanaçılar üçün faydalı ola biləcək əlaqə sisteminin təqdim edilməsi[3].

Cəmiyyət, mühit dəyişdikcə, kitabxanalar da dəyişir. Y.L.Şrayberq deyir: “Müasir kitabxananın funksiyalarının genişləndirilməsi, informasiya cəmiyyətində kitabxanaların qorunması və səmərəli inkişafı üçün yeni motivasiyaların tapılması ilə bağlı bütöv konsepsiyalar, proqramlar və layihələr yaranır və yaranmaqda davam edir. Və tama-

milə aydındır ki, bütün bunlar yalnız İnternetin xidmət növlərinin köməyi ilə mümkündür”[5]. Beləliklə, bulud texnologiyaları mövcud maneələri - coğrafi, txnoloji, sosial - dəf etməyə kömək edir və kitabxanalar maddi (məsələn, kompüter yaddaşı) və maliyyə (məsələn, kompüterlərin sazlanması ilə məşğul olan işçilərin sayı) resurslarına qənaət etməklə kitabxananın rəqəmsal informasiya bazalarının daha çox istifadəçiyə əlçatan olmasını təmin edir.

## *ƏDƏBİYYAT*


1. *Atıcı, B., & Akgün, M. (2021). Content analysis of the researches on using cloud computing in education. International Journal of Turkish Literature Culture Education, 10(1), p.272-284.*
2. *G. D. Shin, K. Jeon, and H. E. Lee, “Public library needs assessment to build a community-based library: Triangulation method with a social media data analysis,” Libr. Inf. Sci. Res., vol. 44, no. 1, Jan. 2022, doi: 10.1016/J.LISR.2022.101142.*
3. *R. David Lankes, The New Librarianship Field Guide, The MIT Press (May 6, 2016), 259 p.*
4. *Протопопова Е. Э. Функционирование библиотек в облачной телекоммуникационной среде / Е. Э. Протопопова // Науч. и техн. б-ки. – 2016. – № 2. – с. 42–54.*
5. *Шрайберг Я. Л. Электронная информация, библиотеки и общество: что нам ждать от нового десятилетия информационного века: Ежегод. докл. конф. «Крым», год 2011 / Я. Л. Шрайберг. – Москва : ГПНТБ России, 2011. -80 с.*
6. *Лукашина А. А. Використання хмарних технологій у діяльності бібліотек ВНЗ: досвід наукової бібліотеки НУК ім. Адмірала Макарова. – Режим доступа: http://eir.nuos.edu.ua/xmlui/bitstream/handle/123456789/1861/Lukashyna.pdf?sequence=1*

*Nazli Ali gizi Hasanova,*
*Firuza Allahgulu gizi Aliyeva*

## *INTEGRATION OF MODERN LIBRARIES INTO THE DIGITAL INFORMATION SPACE*

***Summary:*** *The article considers the possibility of integrating the electronic resources of libraries into the information space using cloud technologies in library activities. Various types of use of cloud technologies in public libraries have been investigated. The provision of availability of independent software based on cloud technologies and its transformation into a useful tool in the work of libraries has been investigated.*

***Keywords****: new generation libraries, information space, virtual environment, cloud services, library software.*

***Назлы Али кызы Гасанова,***
***Фируза Аллахгулу гызы Алиева***

## *ИНТЕГРАЦИЯ СОВРЕМЕННЫХ БИБЛИОТЕК В ЦИФРОВОЕ ИНФОРМАЦИОННОЕ ПРОСТРАНСТВО*

***Резюме :*** *В статье рассматривается возможность интеграции электронных ресурсов библиотек в информационное пространство с применением облачных технологий в библиотечной деятельности. Исследованы различные типы использования облачных технологий в публичных библиотеках. Исследовано обеспечение доступности независимого программного обеспечения на основе облачных технологий и превращение его в полезный инструмент в работе библиотек.*

***Ключевые слова:*** *библиотеки нового поколения, информационное пространство, виртуальная среда, облачные сервисы, библиотечное программное обеспечение.*

**Aygün Seyfəddin qızı Əliyeva**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrası, müəllim***
**aygun20@mail.ru**

# FASİLƏSİZ PEŞƏ TƏHSİLİ SİSTEMİNİN YARADILMASI

**Xülasə:** Məqalədə fasiləsiz təhsil sisteminin alt sistemi kimi peşə təhsilinin mahiyyəti və struktur quruluşu haqqında məlumat verilir, əsas prinsipləri və mühüm əlamətləri işıqlandırılır. Eyni zamanda vətəndaşın biliyə, bacarığa, əxlaqi dəyərlərə, onların seçdiyi ixtisasın artıılrma tələblərinin təminində peşə təhsilinin fasiləsiziliyi əsaslandırılır.

***Açar sözlər:*** *fasiləsiz təhsil, peşə təhsili, baza peşə təhsili, şəxsi təhsil.*

Fasiləsizlik sosial-iqtisadi inkişafın həlledici faktoruna və şəxsiyyətin bütün inkişaf mərhələlərində onun həyat və peşə fəaliyyətində zəruri şərtə çevrilir. Bu faktorun dərk edilməsi təhsil sisteminin inkişaf etdirilməsi dünya elmi birliyini yeni axtarışlara sövq etmişdir. Tədrircən təhsil anlayışının özü dəyişməyə başlamışdır. Təhsil əvvəllər tədris məqsədlərinin həyata keçirilməsi üçün yaradılmış uzun müddətli və təşkilatı proses hesab edilirdisə, hazırda "formal təhsil" anlayışına nisbətən daha geniş mənada "təhsil" anlayışının istifadə edilməsi ideyası meydana gəlmişdir. Avropa Birliyi ölkələrində formal təhsil artıq biliklərin translyasiyası prosesi deyildir, hazırda öyrənməyə və müstəqil olaraq bilikləri əxz etməyə daha çox diqqət yetirilir, faktların öyrənilməsi zərurəti azalır, informasiyaya giriş tələbatı, axtarış aparmaq bacarığı, informasiyanın məzmununun açılması və onun biliyə çevrilməsi məsələsinə geniş yer verilir.

Müasir insan cəmiyyyətdə gərəkli olmaq üçün fasiləsiz olaraq ümummədəni inkişafı və mütəxəssis kimi formalaşması baxımından fasiləsiz təhsil almağa məcburdur. Bir çox xarici ölkələrdə fasiləsiz təhsil prosesinin özünəməxsus yeni inkişaf tendensiyaları və modelləri işlənib hazırlanmışdır. Fasiləsiz təhsilin sisteminin ümumi qəbul edilmiş modelləri içərisində əsas etibarilə onun 4 tərkib hissəsi fərqləndi-

rilir: ümumi təhsil, ilkin və orta peşə təhsili, ali təhsil, əlavə təhsil və yaşlıların təhsili [1].

Peşə təhsili FT-sisteminin alt sistemidir. Təhsil aspekti baxımından peşə təhsilinin fasiləsizliyi vətəndaşın biliyə, bacarığa, əxlaqi dəyərlərə, onların seçdiyi ixtisasın ixtisasartırma tələblərinə cavab verməsidir.

Fasiləsiz təhsilin sistemi dövlət və qeyri-dövlət təhsil ocaqlarının kompleksini təşkil edir, onlar təhsilin hər bir hissəsinin (növünün) birliyini təmin edir, dövlətin tələbatını, qoyulan məsələlərin ümumtəhsil, texniki peşə hazırlığının inkişafına yönəldilir.

Fasiləsiz təhsilin mühüm əlamətlərindən biri də onun bütövlüyüdür. Bu, hər bir insanın yaşından, əvvəl hansı peşəyə yiyələnməsindən, yaşayış yerindən, cinsindən asılı olmayaraq onun hərtərəfli, harmonik inkişafına şəraitin yaradılması kimi sosial-pedaqoji yönümə malikdir [10, s.17].

Bu zaman onun şəxsi imkanlarını, maraqlarını və dəyərlərini nəzərə almaq lazımdır. Fasiləsiz təhsilin bütövlüyü ona yeni inteqral imkanlar yaradır. Bu inteqral imkanlar əsasən davamlılıq və dinamikliklən ibarətdir.

Eyni zamanda peşə təhsili ibtidai, orta, ali, diplomdan sonrakı xüsusi təhsilin formal və qeyri-formal mərhələlərindən ibarət olduğundan o, FT sistemi kimi qiymətləndirilir. Təhsilin bütün bu mərhələləri fasiləsiz peşə (professional) təhsili sistemi ilə reallaşdırılır[2].

Fasiləsiz peşə təhsilinin quruluşunda aşağıdakı prinsipləri nəzərə almaq lazımdır:

- çoxsəviyyəlilik;
- tamamlayıcı;
- manevr etmə.

Birinci prinsip professional baza təhsilinin mərhələ və pillələrinin çoxluğunu nəzərdə tutur. İkincisi- baza və diplomdan sonrakı professional (peşə) təhsilin qarşılıqlı tamamlanmasını nəzərdə tutur. Üçüncü prinsipin əsas xüsusiyyəti fərdin istəyindən asılı olaraq istədiyi kurslara getmək, müxtəlif ali təhsil müəssisələrinin məşğələlərində iştirak etmək və paralel olaraq iki və daha çox təhsil müəssisəsində ayrı-ayrı ixtisaslarda təhsil almaq imkanında təzahür olunur.

Professional FT-in proqramı cəmiyyətin tələblərinə uyğun elm və biliklərin daim yenilənməsinə və ixtisasın təkmilləsməsinə, peşə bacarığın yüksəldilməsinə yönələrək çevik, mobil olmalıdır.

Professional FT-sistemi özündə peşə baza təhsili, ixtisas təkmilləşdirməsi, professional özunutəhsil, distant təhsil kimi alt sistemləri birləşdirməlidir. Bu sistemin strukturunu aşağıdakı sxemdə görmək olar.




**Baza peşə təhsili** fundamental təhsil olub, fənlərin öyrənilməsində nəzəriyyə və təcrübənin əlaqələndirilməsi ilə xarakterizə edilir. Onun əsas vəzifəsi idrakı peşə maraqlarını təmin
etməkdir. Professional baza təhsili təhsilin səviyyəsindən asılı olmayaraq (peşəkar, qeyri-peəşkar və ya az peşəkar) ilkin (başlanğıc) peşə təhsili kimi başa düşülür.

Baza təhsili orta və ali dərəcəli diplom verən kollec, texnikum və ali məktəblərdə tədris edilir. Bu təhsil müəssisələrinin əsas məqsədi gələcək mütəxəssisi ixtisası üzrə baza bilikləri ilə təmin etməkdir. Fasiləsiz peşə təhsili gələcəkdə digər təhsil müəssisələrində təhsil almaq üçün başlanğıc mərhələdir.

Ali məktəb təhsili, ali məktəbdən əvvəl və sonrakı təhsil peşə baza təhsilinə aiddir.

Ali məktəbə qədərki təhsilə ibtidai və orta təhsil daxildir ki, onun əsas məqsədi müəyyən bir peşənin ictimai mənası və məzmununu açmaq ona sabit maraq oyatmaqdır.

Ali məktəb cəmiyyətdəki rolunu müvəffəqiyyətlə yerinə yetirəcək yüksək ixtisaslı mütəxəssislər hazirlayir.

Ali məktəbdən sonrakı təhsil isə elmi-pedoqoji kadrların hazırlığına, mütəxəssislərin elmi, mədəni səviyyələrinin təkmilləşməsinə və onları yeni əmək fəaliyyətinə istiqamətləndirməyə yönəlmişdir.

**İxtisasın təkmilləşdirilməsinə** (əlavə təhsil) fasiləsiz baza təhsilinin ikinci mərhələsi kimi baxmaq olar. Təkmilləşdirmənin əsas məqsədi ixtisasın daha da yüksəldilməsi, çatışmazlıqların aradan qaldırılması, yeni müasir elmi nəzəriyyələrin əldə olunmasıdır.
Həmçinin ixtisasın dəyişdirilməsi, yəni əlavə təhsil almaq da bura daxildir.

**Professional özünütəhsil** fasiləsiz təhsilin əsas elementlərindən biridir. Bu tədris müəssisələrindən kənar müstəqil olaraq əldə edilən təhsildir.Özünütəhsil əsasən istehsalat tələbati ilə şərtlənir və onun formaları olduqca fərdi xarakter daşıyır. Bu prosesin müvəffəqiyyətli olması üçün maddi imkan, müstəqil təhsili təşkil etmək bacarığı, ixtisaslaşdırılmış köməyin olması vacibdir. Özünütəhsil müstəqil, qismən müstəqil ola bilər. Əgər fərdin heç bir müəllimlə əlaqəsi olmursa o zaman müstəqil, əgər fərd müəllimlə, konsultantla kommunikasiya vasitəsilə (İNTERNET) əlaqə yaradırsa, o zaman qismən müstəqil təhsil adlanır.

**Distant təhsil** fasiləsiz təhsil sistemində ikili xarakter daşıyır. Bir tərəfdən o, texnoloji proses olub, fasiləsiz təhsilin aparıcı alt sistemi kimi çıxış edir (virtual universitet). Ənənvi təhsil mümkün olmadıqda, DT kütləvi təhsil üçün geniş şərait yaradır.

Digər tərəfdən DT fasiləsiz təhsilin qeyri-ənənvi forma və metodlarını ifadə edir. Burada informasiyanın ötürülməsi texniki vasitələrin köməkliyilə həyata keçirilir. Bu halda təhsil prosesi fərdiləşir və daha proqressiv, yəni kağızsız texnoloji təhsil formasına keçir.

## *ƏDƏBİYYAT*

*1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu.- Bakı: Hüquq ədəbiyyatı, 2010.*

*2. Azərbaycan Respublikasında fasiləsiz pedaqoj təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası // Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2007, №6. - 30 iyun.*

*3. Fasiləsiz təhsil haqqında Avropa Birliyinin Memorandumu. Lissabon, dekabr, 2000-ci il.*

*4. Yaşlıların təhsili haqqında Hamburq Bəyannaməsi // Təhsil gündəmi. - 2003. - 26 sentyabr.*

*5. Azərbaycanda "Ömürboyu təhsil" və "Yaşlıların təhsili" seminar-müzakirələrin materialları. - Bakı: Təhsil, 2005, 126 s.*

*6. Əhmədov E.Y. Biliklər cəmiyyəti kitabxana işinin modernləşdirilməsinə təsir edən amil kimi // "Kitabxana. az" jurnalı. - Bakı. - 2009, № 5.*

*7. Rzayev S., Əhmədova A. Şəxsi təhsil mütaliəsi və kitabxanalarda onun təşkili // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal. - Bakı, 2011, № 2. - s. 23-27*

*8. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxana işi // Bakı Universiteti Xəbərləri, - 2004, № 3. - s.316-327.*

*9. Xələfov A.A. Kitabxana və cəmiyyət. - Bakı: Azərnəşr, 2011. - 307 s.*

*10. Нгуен Т.Д. Создание системы непрерывного профессионального образования // Научные и технические библиотеки. - 2007, № 10. - с. 15-22.*

*11. Савина А.К. Непрерывное образование за рубежом:От идеи к концепции // Отечественная и зарубежная педагогика. - 2015, № 3 (240). - с. 49-64.*

**Aygun Seyfeddin gizi Aliyeva**

**CREATION OF A SYSTEM OF PROFESSIONAL CONTINUOUS EDUCATION**

***Summary:*** *The article presents information about the essence and structure of professional education as a subsystem of continuous education, its main principles and important features are high-*

*lighted. At the same time, the continuity of professional education is substantiated in the provision of knowledge, skills, moral values of the citizen, requirements of professional development in the chosen specialty.*

***Keywords:*** *continuous education, professional education, basic professional education, self-education.*

**Айгюн Сейфеддин кызы Алиева**

## СОЗДАНИЕ СИСТЕМЫ ПРОФЕССИОНАЛЬНОГО НЕПРЕРЫВНОГО ОБРАЗОВАНИЯ

**Резюме:** *В статье представлены сведения о сущности и структуре профессионального образования как подсистемы непрерывного образования, выделены его основные принципы и важные особенности. В тоже время обосновывается преемственность профессионального образования в обеспечении знаний, умений, нравственных ценностей гражданина, требований профессионального развития по избранной специальности.*

***Ключевые слова:*** *непрерывное образование, профессиональное образование, базовое профессиональное образование, самообразование.*

**Zöhrə Cavanşır qızı Camalova**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrası, müəllim***
zohre1956@mail.ru

# KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN ELMİ-TƏCRÜBİ MƏSƏLƏLƏRİ

***Xülasə:*** *Məqalədə kitabxana-informasiya xidməti, vəzifələri, mütaliənin şəxsiyyətin formalaşmasında rolundan bəhs edilir.*

***Açar sözlər:*** *kitabxana, informasiya xidməti, mütaliə mədəniyyəti, mütaliə, texnologiya.*

Kitabxana-informasiya xidməti - kitabxana fəaliyyətinin əsas sahələrindən biri olub, ənənəvi kitabxana sisteminin təkmilləşmiş və müasirləşmiş formada inkişafını tələb edən fəaliyyət dairəsidir. Müasir informasiyalaşmış cəmiyyətin tələblərindən irəli gələrək, informasiyanın vaxtında,tam,operativ və dolgun ödəyərək tələbatçılara çatdırmaqla informasiyanın yayılmasını və bütövlüyünü təmin edir.

Kitabxana xidməti - kitabxanaşünaslıq fənləri sistemində özünəməxsus yer tutmaqla, oxucuların informasiya tələbatını ödəməklə, mütaliənin məzmun nöqteyi-nəzərdən təşkilinin yüksək səviyyəsini əhatə edərək,informasiya xidmətinin bir qolunu əhatə edir.Kitabxana xidməti-kitabxana işinin planlaşdırılması, kataloq-kartoteka sisteminin təkmilləşdirilməsi və oxucuların istifadəsinə verilməsi,oxucuların xidmət prosesinin təkmilləşməsinin ən mühüm istiqamətini müəyyənləşdirir. Kitabxana xidməti-sosial cəmiyyətdə formalaşan istifadəçilər (oxucular) sosiallaşır,"mütaliə sosiologiyası" adlı bir fənnin yaradılmasına zərurət yaradır.Bu prosesdə kitabın sosial-mənəvi təsiri,mütaliənin fərdi və ictimai məzmunu öyrənilir. Oxucularda mütaliə mədəniyyətinin formalaşması,kitab fondunun tərkibinin müəyyənləşməsi müaliə məzmununun açılmasında, kitab təbliğinin forma və üsullarının müəyyənləşməsində, fondun məlumat-axtarış sisteminin təkmilləşməsində oxuculara geniş və hərtərəfli xidmət işini həyata keçirmişdir. Kitabxana xidməti - özündə "mütaliə" və "oxucu" məfhumlarının açılmasını tələb edən xidmət sahəsidir.

Mütaliə - şəxsiyyətin formalaşmasında özünəməxsus yer tutan,mənəvi tələbatın formalaşmasında rol oynayan sosial-psixoloji fəaliyyət sahəsidir. Bu, fəaliyyət prosesində kommunikativ əlaqə fəaliyyəti kimi hər hansı bir mətndə toplanmış məlumatları verən ictimai hadisədir. Sistemli şəkildə həyata keçən bu prosesdə müəllif, çap əsərləri,oxucu auditoriyası bir-birilə sıx təmasda olur. Mütaliə fərdi, psixoloji vəziyyətdən çıxaraq ictimailəşir. Bütün deyilənləri əsaslandıraraq, deyə bilərik ki, mütaliə ictimai hadisədir. İctimai xarakter daşıyan mütaliə aşagıdakı xüsusiyyətlərə malikdir:

1.Sosial tələbata çevrilməklə daim artmaqda olaraq davam edir;

2.Mütaliə-insanların intellektual səviyyəsinin artmasına,ictimai süurunun formalaşmasına təsir göstərməklə, ictimai sistemi kimi çıxış edir.

Mütaliə ictimai xarakter daşımaqla, həm də sosiallaşan bir proses kimi fəaliyyət göstərir.Yəni sosial xarakter daşıdıgı üçün sosial institut rolunu oynayır. Mütaliə özü-özlüyündə, həm də təlim-tərbiyə, tədris prosesində ictimai münasibətlərin cəmi kimi çıxış edir. Mütaliə prosesində kollektiv-yaradıcı proseslərinin formalaşdığı bir vaxtda oxucuların bu prosesdə olan fəallığı 3-qrupa bölünür:

- Birinci qrup oxucular: passiv oxucular;
- İkinci qrup oxucular: fəal münasibətdə olan oxucular;
- Üçüncü qrup oxucular: yaradıcı fəaliyyətdə olan oxucular.

Oxucu-tarixi dövrləşmə prosesində öz tələbatları, maraqları, mənəvi sorgularının məzmununa, dünyagörüşü və mütaliə mədəniyyətinin dərəcəsi və səviyyəsinə görə fərqlənən xüsusi bir təbəqədir. Kitabxana xidmətinin nəzəri əsaslarını oxuculara xidmətin məqsədi, prinsipləri, əsas vəzifələri təşkil edir.

İnformasiya xidməti - informasiya proseslərinin: sənədlərin toplanması, analitik-sintetik işlənməsi,informasiyanın axtarışı və yayılması prosesini özündə əks etdirən şəxs,qrup,bütövlükdə cəmiyyətin informasiya tələbatının ödənilməsinə xidmət edən xidmət növüdür. Özündə informasiya tələbatçılarını birləşdirən,informasiya istehsalını, informasiya - kommunikasiya vasitələrini birləşdirən bir prosesdir. İnformasiya xidmətinin özündə fərdi, kollektiv və kütləvi informasiya xidmətinə bölünən ən mükəmməl növü Onlayn (virtual) xidmət növüdür. Kitabxana-informasiya xidməti-müasir informasiya texnolo-

giyasından istifadə etməklə,elektron vasitələrdən istifadə edən geniş oxucu auditoriyası üçün informasiya imkanları açan xəyali-Virtual kitabxana növüdür. Məlumdur ki, kitabxana-informasiya xidmətinin məqsədi,istiqaməti sosial mühitdə istifadəçilərin (oxucuların) həyata,cəmiyyətə baxışları sistemindən asılıdır. Məhz istifadəçilərin mütaliə maragının xüsusiyyətlərindən asılı olaraq, kitabxana-informasiya xidmətinin mahiyyəti,məzmunu və inkişaf meyli müəyyənləşmişdir. Kitabxana-informasiya xidmətinin mahiyyəti və əlyetərlik dərəcəsi də istifadəçilərin informasiya tələbatının hansı səviyyədə və məzmunda ödənilməsinin dərəcəsindən asılıdır.

Kitabxana-informasiya xidmətinin obyekti, məqsəd və vəzifələrinin müəyyənləşməsi aşagıdakı vəzifələrin həllinə şərait yaradır:

1.İstifadəçilər (oxucular) lazımi informasiyanı əldə edərkən, müəyyən intellektual-psixoloji inkanlara malik olur; Fiziki, texniki, təşkilati, maliyyə, intellektual, şəxsiyyətlərarası;

2.İstifadəçilərin maraq dairələrini, sorgu və tələbatlarını öyrənərkən,oxucu və informasiya maraqlarının tam və dolgun şəkildə ödənilməsinə şərait yaradılır;

3.İstifadəçilərə xidmət prosesində xidmətin nomenklaturası (ixtisas dərəcəsinə görə ümumi siyahı) genişlənir;

4.Mütaliə səviyyəsini artırmaq, informasiya mədəniyyətini formalaşdırmaq;

5.İnformasiya proseslərinə qoşulma və iştiraketmə səviyyəsi artır.

Müasir dövrdə informasiyalaşdıırılmış cəmiyyətin xüsusiyyətlərindən asılı olaraq, informasiya-kommunikasiya texnologiysının yüksək surətdə tətbiqi, informasiya - məlumat bazasının yaradılmasının vacibliyi əsas tutulur. Beynəlxalq informasiya məkanlarına qoşulmaq, elektron sisteminə keçid - "informasiya xidməti"nin yeni növünün kitabxanada təbliginin həyata keçirilməsini asanlaşdırmış, oxucu yeni xidmət növü sayılan - "informasiya xidməti"növünün həyata keçirilməsində yaxından iştirak etmişdir. Belə ki, "kitabxana-informasiya xidməti" kitabxana xidmətinin forma və məzmunca davamı olub,onun daha da təkmilləşmiş formasıdır.

## *ƏDƏBİYYAT*

1. *Xələfov A.A. Kitabxana və cəmiyyət.- Bakı: Azərnəşr, 2013. - 360 s.*
2. *Rzayev S. Kitabxana xidməti : Dərs vəsaiti. - Bakı: BDU-nun nəşri,2012. - 320 s.*
3. *Kazimi P.F. İnformasiya mühəndisliyi.- Bakı: Mütərcim, 2018. - 280 s.*

**Zohra Javanshir gizi Jamalova**

## SCIENTIFIC-PRACTICAL ISSUES OF THE LIBRARY-INFORMATION SERVICE

***Summary****:The article discusses the library-information service, its duties, and the role of reading in personality formation.*

***Keywords:*** *library, information service, reading culture, reading, technology.*

**Зохра Джаваншир кызы Джамалова**

## НАУЧНО-ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ СЛУЖБЫ

***Резюме:*** *В статье рассматривается библиотечно-информационная служба, ее обязанности, роль чтения в формировании личности.*

***Ключевые слова:*** *библиотека, информационное обслуживание, культура чтения, чтение, технология.*

**Ceyhun Rafail oğlu Şirinov**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrası, müəllim***
csirinzade@mail.ru

# ELMİ KİTABXANALARDA KİTABXANA-İNFORMASİYA PROSESLƏRİNİN NƏZƏRİ ƏSASLARI

***Xülasə:*** *Məqalədə elmi kitabxanalarda kitabxana-informasiya proseslərinin təşkilində informasiyalaşdırmanın nəzəri amilləri nəzərdən keçirilmiş və müqayisəli təhlillər aparılmışdır.*

***Açar sözlər:*** *informasiya, informasiyalaşdırma, informasiyanın nəzəriyyəsi, informasiyanın maddi və qeyri maddi formaları.*

Bütün elmlərin, anlayışların əsasını onun nəzəriyyəsi təşkil edir. XXI əsr informasiya əsridir. Bu təsadüfi deyil. Cəmiyyətin inkişafı bir sıra mərhələlərdən keçir. XXI əsr öz aktuallığına görə ən önəmli mərhələ olan informasiya partlayışı ilə xarakterizə olunur. Əlbətdə cəmiyyətin həyatında belə sıçrayış fəlsəfi aspektdən baxılmamış, onun nəzəriyyəsi işlənməmiş mümkün deyil. İnformasiya çox mürəkkəb anlayışdı. Kitabxana-informasiya proseslərinin nəzəri əsasları olmadan bu işin mahiyyətini anlamaq, onun inkişaf perspektivlərini müəyyənləşdirmək çox çətindi.

Kitabxana-informasiya proseslərinin nəzəri əsasları informasiyanın fəlsəfəsini bilmədən mümkün deyil. İnformasiyanın fəlsəfəsi terminini ilk dəfə 1985-ci ildə Vu Kun tərəfindən işlədilsə də, Rusiyada 1965-ci ildən informasiyanın fəlsəfəsi öyrənilmişdi. Bu sahədə lider A.D.Ursul olmuşdur. 2005-ci ildən informasiyanın fəlsəfəsi yeni mərhələdə öyrənilir[3].

İnformasiyanın fəlsəfəsinə yanaşma 2 formadadır. 1-si atributiv konsepsiyadır. Buraya insan şüurundan asılı olmayaraq mövcud olan informasiya daxildir. 2-si isə funksional konsepsiyadı. Burada isə informasiyaya insan şüurunun fəaliyyəti kimi baxılır[4].

Müxtəlif illərdə müxtəlif ölkələrdə informasiyanın fəlsəfəsindən aid konfranslar, seminarlar keçirilib və bu işə xüsusi yer ayrılmışdı. İnformasiya fenomeninə fəlsəfi baxımdan xüsusi yanaşmalar tələb edilir.

Obyektlərin materiya və informasiya xüsusiyyətlərinin əlaqəsi. Bu fiziki informatika məhfumunu ortaya çıxarmışdı.

- Şüurun materia və informasiya əlaqələriin öyrənilməsi. Bu istiqamət isə psixoloji informatika anlayışını yaratmışdı;
- Şüurun ayrı-ayrı komponentlərinin material və informasiya xüsusyyətləri arasında əlaqənin öyrənlməsidir. Bu zaman informasiya kulturologiyası adlı yeni elmi istiqamət yaranır;
- İnsan təbiətinin informasiya konsepsiyası istiqamətindən öyrənilməsi informasiya antropologiyası adlı yeni elmi istiqamət yaradır;
- Etikanın informasiya əsaslarının öyrənilməsi[1].

Floridi informasiyanın fəlsəfəsi məsələsində bəzi problemləri işıqlandırmışdır:

1) İnformasiya nədir?
2) İnformasiyanın diamikası necədir?
3) İnformasiya nəzəriyyəsinin birləşməsi mümkündürmü?
4) Verilənlər necə məna kəsb edə bilər?
5) Fikri verilənlər necə həqiqi məna kəsb edə bilər?
6) İnformasiya həqiqəti izah edə bilərmi?
7) İnformasiya aspektindən ağıl və bədən münasibətləri izah oluna bilərmi?
8) İnformasiyanı necə yoxlamaq olar?
9) İnformasiyanın ontoloji statusu nədir?
10) Təbiət informsiyalaşdırıla bilərmi?
11) Fəlsəfi əsaslarla komputer etikası mövcuddurmu?

Bu problemlərin bəziləri müasir elmin nailiyyətləri çərçivəsində izah olunsa da bir qizmi hələ də problem olaraq qalır[5].

Ən çətin problem obyektlərin və sistemin həqiqi təbiətinin informasiya konsepsiyası istiqamətindən tədqiqidir.

İnformasiya abstrakt anlayış olub, eyni zamanda bilik məlumat deməkdir. Lakin bütün məlumatlar da informasiya demək deyil. Belə ki, məlumatın informasiya olması üçün bir sıra şərtlər ödənilməlidir.

Həmçinin bir sıra keyfiyyətlər vardır ki, onlar məlumatı informasiya edir. Bunlardan hər hansı biri ödənilmirsə, o artıq informasiya deyil.

“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinin 1-ci bəndində informasiyaya belə tərif verilir: “Informasiya - yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlardır”.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda informasiyaya belə tərif verilir: informasiya - təqdimat formasından asılı olmayaraq şəxslər, əşya, fakt, hadisə və proseslər haqqında məlumatlardır. Göründüyü kimi qanunun məğzi dəyişilməmişdir.

İnformasiya termininə adətən bir çox sahələrdə baxılır. Məsələn: informatikada, fizikada, riyaziyyatda və s.

Qeyd etdiymiz kimi informasiya termini fəlsəfi anlayış olub antik filosofları da düşündürən məsələlərdən biri idi. B.e.-nın 342-419-cu ilində yaşamış İeronima Vulqat tərəfindən “bütün daşlar” kimi tərcümə olunan və latın dilində "de saxis informibus" kimi adlandırılan söz deyilmişdir. "informem adhuc me" sözü isə “mənim rüşeymim” mənasına gəlir. B.e.-nın 354-430-cu illərində yaşamış İspovedi Avqustin tərəfindən işlədilən "adhuc informem" söz isə “ hələ formalaşmamış” mənasına gəlir. “Dantenin komediyası” əsərində verilən "informa" sözü isə yaranma, formalaşma mənasına gəlir[7].

İnformasiya hal-hazırda iki elmin kibernetika və informatikanın bir sahəsi kimi araşdırılsa da əslində informasiya qlobal bir anlayışdı və onu hansısa elmin sərhədləri çərçivəsində təqdim etmək doğru deyil.

Virtual mühitini formalaşması ilə birgə fəlsəfəyə inforasa anlayışı da daxil edildi. Fəlsəfədə informasiyaya abstrakt və məntiqi anlayış kimi baxılır. Semiotika adlandırılan kompleks bir nəzəriyyədə mövcuddur ki, burada informasiyanın bütünlükdə mənası araşdırılır. Semiotika və ya semiologiya ümumilikdə işarə və işarələr sisteminin xüsusiyyətlərini araşdıran elmdir.

İnformasiyanın ən önəmli xüsusiyyətlərindən biri hər bir elmin özü tərəfindən müxtəlif cürə izah olunmasıdır. İnformasiya üzə-

rində əməliyyatlar aparmaq üçün xüsusi informasiya sistemləri yaradılır. Bu sistem informasiya istifadəçilərinin informasiyaya olan tələbatlarını ödəmək üçün informasiyanın toplanmasını, emalını və saxlanmasını təmin edir. İnformasiya sistemi texniki-proqram vasitələr kompleksidi. Buraya həmçinin linqvistik və metodoloji vasitələr də aiddir.

İnsan sivilaziyasının ilk illərindən başlayaraq insanlar müxtəlif üsul və vasitələrdən istifadə etməklə bir-birinə müxtəlif məlumatları ötürmüşlər. İnformasiya fəlsəfəsi anayışı XX əsrdə meydana gəlsə də informasiyanın özünün tarixi çox qədimlərə dayanır. İlk qaya üzərində rəsmlər, müxtəlif səs formaları ilə insanların bir-birinə müraciəti informasiyanın tarixinin insanlığın tarixi ilə üst-üstə düşdüyündən xəbər verir.

Kompüterlərdə isə bu bir qədər fərqlidir. Belə ki, kompüterlər informasiyanı yalnız rəqəmsal formada qəbul edir. Komputerlər informasiyanı kodlaşdırır. Bu o deməkdir ki, kompüterə daxil olan bütün informasiyalar 2-lik say sisteminə çevrilir. Bizim qəbul elədiyimiz bütün rəqəmlər, hərflər, ümumilikdə bütün simvollar 0 və ya 1-ə çevrilir. Rəqəmsal informasiyanın əsas xüsusiyyətlərindən biri onun fasiləli olmasıdır. Yəni ki, səsin, rəngin və formaların sonsuz müxtəlifliyinin təsviri üçün ədədlər müəyyən və sonlu sayda olmalıdır.

Qısa şəkildə informasiyanın prosesləri haqqında məlumat vermək tam yerinə düşür. İnformasiya prosesləri dedikdə buraya informasiyanın toplanması, saxlanması, emalı, ötürülməsi aiddi. İlk öncə informasiya toplanmalıdır ki, bu həm insan, həm də avtomatlaşdırılmış sistemlər tərəfindən həyata keçirilə bilər. Toplanmış informasiya hər hansı informasiya daşıyıcısında saxlanılır. Buraya ən qədim informasiya daşıyıcıları, kağız, perfolent, perfokart, maqnit lenti, maqnit və lazer diskləri və kartlar daxildir. Toplanmış informasiya müxtəlif vasitələrlə ötürülür. Buraya ən müasir informasiya emalı ilə ixtisaslaşmış xüsusi qurğuları aid etmək olar. Ən müasir qurğular uzaq məsafəyə informasiyanın ötürülməsini və uzaq məsafədən informasiyanın qəbulunu həyata keçirir. Digər bir informasiya prosesinə isə informasiyanın axtarışı aiddir. İnformasiyanın axtarışı xüsusi proses olub özünəməxsus qanunauyğunluğu mövcuddur. İnformasiya prosesləri arasında informasiyanın emalı xüsusi əhəmiyyət kəsb edir. İnformasiyanın emalı dedikdə əvvəldən hazırlanmış alqoritmlərdən və proqramlardan istifa-

də etməklə qarşıya qoyulan məsələnin həlli başa düşülür. İnformasiyanın emalı avtomatlaşdırılmış üsulla həyata keçirilir. Lakin süni intellekt texnologiyasına əsasən informasiyanın emalı avtomatlaşdırılmış üsulla deyil, xüsusi alqoritimlə icra olunur. Bu zaman sistem ona lazım olan informasiyanı qəbul edə, lazım olmayanı isə müəyyən "seçmə" üsulla sistemin yaddaşından silə bilər. Emal olunmuş informasiya istifadəçilərə müəyyən periferiya qurğuları vasitəsilə çatdırılır.

İnformasiyanın fəlsəfəsi barəsində bir çox mənbələrdə rast gəlinir. İnformasiyalaşdırmanın fəlsəfəsindən danışarkən biz burada terminlərin mənşəyinə və mənasına fikir verməliyik. Terminlər özləri də bəzən mahiyyəti tam əks etdirir. İnformasiya terminə B.A.Ostreykovskiy belə tərif verir: "İnformasiya geniş mənada ətraf aləmin əksi, dar mənada isə saxlanılma, ötürülmə və dəyişdirilmə obyekti haqqında məlumatdır"[2].

İnformasiya anlayışı fəlsəfi kateqoriyaya aiddir və qeyri maddidir. İnformasiya termini mövcud olmasa da bəşəriyyət yarandığı gündən informasiya özü mövcud olmuşdur. İlk nitqin yaranması, insanların bir-birilərinə xəbər çatdırması, daha sonralar isə xəbərlərin qayalarda və müxtəlif vasitələrdə saxlanılması informasiyanın yaranması ilə başlamışdır. Leonida Lutkovskoqonun tərcüməsi olan "İohannın İncili" əsərində deyilir: "Birinci söz varıydı". Buradan göründüyü kimi ilk öncə sözün mövcudluğu bildirilir. Söz özlüyündə elə informasiyadır. Deməli, ilk öncə informasiya olub. Müasir informasiya termininin mahiyyətini araşdırarkən biz görürük ki, informasiya mahiyyətcə yarandığı gündən bu günə qədər dəyişilməyib. Sadəcə informasiyanın yaradılması, qorunması, ötürülməsi və redaktə edilməsinin üsul və vasitələri dəyişib. İnformasiya nəzəriyyəsinin müasir aspektinə K.Şennonun "Работы по теории информации и кибернетике" əsərində rast gəlirik [6]. K.Şennon müasir informasiyanın atası hesab olunur. Onun konsepsiyasına görə informasiya-qeyri müəyyənlikdir ki, toplanmış qeyri müəyyənlik istifadəçinin qeyri müəyyənliyi əldə edənə dərəcələrinin müəyyənləşdirilməsi, istifadəçinin lazımi obyekt barəsində yararlı məlumatlarla anlamasını genişləndirir.

Buradan bəzi məsələləri aydınlaşdırırıq ki, istifadəçi ona lazım olan məlumatları əldə etmək üçün mütləq məlumatların qeyri müəyyənləyini bilməlidir. İstifadəçi informasiyanın kəmiyyəti barəsində ilk öncə heç bir şey bilmir. Bu sırf təsadüfi bir hadisədir. Klod Şennona

görə informasyanın artımı qeyri-müəyyənliyin azalmasına bərabərdir[8].

Beləliklə, informasiya nəzəriyyəsində entropiya-müəyyən mənbədən alınan məlumatların qeyri müəyyənlik ölçüsüdür.

İnformasiya sahəsində rusiyalı alim A.D.Ursulun tədqiqatları xüsusi əhəmiyyət kəsb edir. Ursulun fikrincə, yaxın gələcəkdə fəlsəfə cəmiyyətin informasiya proseslərində inkişafının bazası olacaq. O, hətta informasiyanın mahiyyətini anlamaq üçün fəlsəfi kateqoriyalardan da istifadə edir. Ən çox işlətdiyi fəlsəfi kateqoriya əksetdirmə və fərqləndirmə kateqoriyasıdır. Ursula görə informasiyanın mahiyyətini yalnız fəlsəfi keqoriyalar açа bilər. O deyir ki, harda fərq var orda informasiya var, fərq olmayan yerdə informasiya yoxdur. İnformasiyanın kəmiyyəti fərq dərəcəsini xarakterizə edir. Əksetdirmə kateqoriyası isə daha çox informasiyanın qarşılıqlı əlaqəsi mexanizmini izah edir[3]. Beləliklə, fəlsəfənin digər kateqoriyaları və qanunlarını informasiyanın mahiyyətini izah etmək üçün tətbiq etmək olar. Məsələn, dialektikanın qanunlarını tətbiq etməklə informasiyanın yeni keyfiyyətlətini üzə çıxarmış olarıq.

Bütün bu deyilənləri nəzərə alaraq qeyd etməliyik ki, informasiyanın fəlsəfəsini, onun mahiyyətini dərk etməklə Elmi kitabxanalarda informasiyanın təşkilini düzgün həyata keçirə bilər, bəşəriyyətin parlaq gələcəyinin elmi əsaslar üzərində qurulmasını təmin edə bilərik.

## *ƏDƏBİYYAT*

*1.Колин К.К. Философия информации и современное научное мировоззрение/ Современные информационные технологии и ИТ-образование, 2014. – Электронный ресурс.*

*2.Острейковский В.А. Полякова И.В. Информатика. теория и практик: Dərslik.- M.: Oniks, 2008.-608s.*

*3.Урсул, А. Д. Природа информации: философский очерк. - 2-е изд. – Челябинск, 2010. – 8 с.*

*4.Саночкин.В.В. О возможности согласования различных представлений об информации // Метафизика: научный журнал. - 2013, No 4 (10). - с.49.*

*5.Хлебников Г.В. Философия информации Лучано Флориди // Метафизика-научный журнал. - 2013, No 4 (10). - с.35.*

*6.Шеннон.К. Работы по теории информации и кибернетике., Москва: Изд-во иностранной литературы, 1963.*
*7.https://ru.wikipedia.org/wiki/Информация*
*8.https://ru.wikipedia.org/wiki/Информационная_энтропия*

**Ceyhun Rafail oglu Shirinov**

## THEORETICAL BASICS OF LIBRARY-INFORMATION PROCESSES IN SCIENTIFIC LIBRARIES

***Summary:*** *In the article, the theoretical factors of informatization in the organization of library-information processes in scientific libraries were reviewed and comparative analyzes were conducted.*

***Key words:*** *information, informatization, philosophy of information, material and non-material forms of information.*

**Джейхун Рафаил оглы Ширинов**

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ ПРОЦЕССОВ В НАУЧНЫХ БИБЛИОТЕКАХ

***Резюме****: В статье рассмотрены теоретические факторы информатизации в организации библиотечно-информационных процессов в научных библиотеках и проведен сравнительный анализ.*

***Ключевые слова:*** *информация, информатизация, философия информации, материальные и нематериальные формы информации.*

**Nurlana Canpolad qızı Ağayeva**
***M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası,***
***BDU-nun Kitabxanaşünaslıq kafedrasının doktorantı***
nurlana.agayeva86@gmail.com
https://orcid.org/0000-0003-4596-9248

# QLOBAL İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ KİTABXANALARIN FORMALAŞMASINDA YENİ TEXNOLOGİYALARIN ROLU

***Xülasə****: Trenddə olan texnoloji irəliləyişlər kitabxana və informasiya xidmətində, o cümlədən kitabxanaçı/informasiya mütəxəssislərinin sosial gözləntilərində bir çox dəyişikliklərə səbəb olub. Beləliklə, kitabxanaçı/informasiya mütəxəssislərinin sistemlə dəyişməsi, bilik və bacarıqlarının yenilənməsi, kitabxana-informasiya xidmətində yeni veb texnologiyalardan istifadə olunmasını təmin etmək çox vacibdir. Bu fakta əsaslanaraq, məqalədə qlobal və trend olan problemlərə, kitabxana və informasiya elmi üçün yeni texnologiyalara, oxucular üçün effektiv kitabxana xidməti məsələlərinə xüsusi diqqət yetirilir.*

***Açar sözlər****: qlobal tendensiyalar, yeni texnologiyalar, kitabxanaşünaslıq , informasiya elmi, xidmət.*

## Giriş

Qlobal və milli iqtisadiyyat artıq biliklərə yönəlib. Bu faktla bağlı əsaslar, biliklərin ayrılması sonrakı iqtisadi inkişaf üçün əvəz olunmaz bir aktivə çevrildi. Yerli və beynəlxalq müəssisələr hazırda müəssisələrin inkişafı üçün zəruri olan yeni ideya, bilik və məlumat əldə etmək baxımından kitabxana və informasiya elmlərindən böyük fayda əldə edirlər. Ayrıca, kitabxanaçılar tərəfindən təqdim olunan peşəkar xidmətlər, bir çox iş, tədqiqatçılar, tələbələr, eləcə də məlumat mənbələrinin axtarışında, xüsusən də elektron resurslarla əlaqədar məlumat ehtiyatlarının əldə edilməsinə və istifadəsinə kömək edir.

## Məsələnin qoyuluşu

Həqiqətən, kitabxanaların mövcudluğu bir işin həlli üçün müəyyən bir cəmiyyətə və faydalı infrastruktur obyektlərinin strateji yerlərinə keçmək üçün bir işin həlli üçün vacib bir məkan adlandırıldı. Tədqiqatlar, işgüzar resursların kitabxana personalı eksperimental yar-

dımının köməyi ilə biznes-informasiya ehtiyatları daha dəyərli olduğunu göstərdi. Bundan əlavə, müasir demokratiya dünyanın bir təcrübəsidir və milli iqtisadi inkişafın bir çox proqramı, cəmiyyətdəki bütün vacib məsələlər barədə güc vəziyyətində olan kütlələr və insanların yaxşı məlumatlandırılmasını tələb edir. Bir çoxu məktəblərdə və seminarlardan keçərkən məlumat alsa da, kitabxanalar və məlumat mərkəzlərinin dəstəyi olmadan tam ola bilməzlər. Kitabxanalar və informasiya mərkəzləri rəsmi təhsil üçün əvəzolunmaz bir məkandır. Kitabxana bütün yaş qruplarına bütün məsələlərdə müəyyən bir müddətdə lazım olan məlumatlardan xəbərdar olmaq imkanı verməlidir. Kitabxananın komputerləşdirilməsi yüksək ixtisaslı kitabxanaçıların, informasiya mütəxəssislərinin birgə əməyi və düzgün təşkilati işlər nəticəsində yerinə yetirilən, müəyyən vaxt və maliyyə vəsaiti tələb edən bir prosesdir.

Bu, onlara məlumat təklifi ilə əldə edilir, bu da ziddiyyətli nöqtələri təmsil edir və öz fikirlərini formalaşdırmağa və ictimai işlərə aparan konstruktiv tənqidin bu cür münasibətini qorumağa imkan verir. UNESCO-ya (1961) görə, ətraf mühitdə həmişə dəyişiklik olacaq və bu dəyişikliklər rolu, məşğulluq, özünü, motivasiyası və hətta sağ qalması baxımından kitabxanaçılar və informasiya mütəxəssislərinə təsir göstərəcəkdir. Buna görə də, məlumat mütəxəssisləri ətrafdakı bu dəyişikliklərə uyğun hərəkət və rol vasitəsilə tendensiyalarla hərəkət etməlidirlər. Bu indi informasiya və kommunikasiya texnologiyaları və telekommunikasiya şəbəkələrinin inkişafının dəyişməsi və bütün peşə üçün zəruri olan bacarıqların (xüsusilə də informasiya peşəsi üçün) azad edilmədiyi bir informasiya cəmiyyətində yaşayırıq. Mövcud texnoloji dövr məlumat mübadiləsinin sürətli artması ilə bilik və bacarıqların müvafiq şəkildə sürətlənməsi ilə müşayiət olunur. Kitabxananaşünaslıq və informasiya elminin bu yeni mühiti, məlumatların axtarışı, emalı və paylanmasında yeni bacarıq, məhsul, avadanlıq və platformalar tələb edir.

**Məsələnin həlli**

Kitabxana və informasiya elminin cari və qlobal tendensiyaları. Əvvəlcə kitabxana və məlumatların rəhbərliyi ilə bağlı ən son ədəbiyyatda müzakirə olunan bəzi cərəyanları müəyyən etmək məqsədəuyğundur. Bu cari tendensiyalar bir şəkildə və ya daha çox, yeni iqtisadi dövrdə kitabxanaçıların və informasiya xidmətlərinin formalaş-

ması ilə əlaqəli olacaqdır. Ədəbiyyatda göstərildiyi kimi bu tendensiyalar aşağıdakı kimi ümumiləşdirilir:

➢ Qiymətləndirmə / sərişləyə əsaslanan sərişləyə əsaslanan təlim;
➢ Xidmətlərin göstərilməsində istifadəçiyə yönəlmiş bir yanaşma;
➢ Məlumatın qloballaşması;
➢ Elektron / İnternet resurslarının böyüməsi;
➢ İnformasiyanı idarəetmə vacib bir nizam kimi tanınır;
➢ İnteqrasiya olunmuş və geniş yayılmış İKT tətbiqləri;
➢ Bilik idarəetmə/ Təşkilatın istifadəsi;
➢ Biliklərə əsaslanan iqtisadiyyat;
➢ Liderlik bacarıqları;
➢ Kitabxanaçılar və rəqəmsal mühitdə dəyişikliklər genişləndirilir;
➢ Kitabxanaçılar kiber kitabxanaçı kimi təyin olunur;
➢ Kitabxanaçıların yeni idarəetmə bilikləri və bacarıqlarına ehtiyacı var;
➢ Məlumat İdarəetmə Sisteminə (IMS) ehtiyac;
➢ İnformasiya mütəxəssislərinin yeni nəsli (CIO, CKO, məsləhətçilər və analitiklər)
➢The Rəqəmsal / Elektron / Virtual Kitabxananın rolu;
➢Kitabxananı və məlumatları idarə etmək üçün ixtisaslaşdırılmış öyrənmə (ikiqat dərəcə - əsas konsepsiya);
➢ Strateji ittifaqlar, tərəfdaşlıq və əməkdaşlıq.

Girişin asanlaşdırılması üçün rəqəmsal məzmunu inkişaf etdirmək üçün tender. Bundan əlavə, rəqəmsal və ya virtual kitabxananın istifadəsi, məlumat xidmətlərinin göstərilməsində vacib amildir.

*Rəqəmsal Kitabxana:* Rəqəmsal Kitabxana bütün mətnlər və danışıq kitablarının nail olmaq üçün çox vaxt alacaq rəqəmsal fayllar kimi saxlandığı kimi müəyyən edilə bilər. Rəqəmsal və ya virtual bir kitabxana digər obyektlər tərəfindən təmin edilmiş bir onlayn girişdir və ya bir kataloqda və ya arxivləşdirmə sahəsində geniş məlumat saxlama ilə müxtəlif saytlara bağlantılar təklif edən bir veb sayt deməkdir. Termin internetdə mövcud olan hər hansı bir mövzu ilə əlaqəli bütün materiallarla əlaqəli ola bilər. Rəqəmsal kitabxana, bir qayda olaraq, digər kitabxanalarla əlaqələri olan şəbəkənin bir hissəsidir. Bu, resursların əhəmiyyətli bir hissəsinin oxunan bir maşın formatında, kompüter-

lərdən istifadə etməklə mövcud olan bir kitabxanadır. Rəqəmsal kitabxana və virtual kitabxana, insanların geniş şəkildə əldə etdikləri geniş məlumat toplusunu göstərmək üçün istifadə olunur. Yeni dövrün kitabxanaçıları və informasiya mütəxəssisləri, bu rəqəmsal informasiya sistemini idarə edə bilməlidirlər, çünki bu, ümumi səlahiyyətləri (bilik, bacarıq və münasibət), rəqəmsal məlumatların alınması və yayılması üçün zəruridir. Ənənəvi olaraq kitabxanalar kitablar, əlyazmalar, jurnallar və digər növ sənədləri özündə birləşdirən bir informasiya məkanıdır. Yeni iqtisadi dövr üçün kitabxana xidmətində yeni texnologiyalar mövcuddur.

Yeni texnologiyalar, istifadəçiyə yönəlmiş xidmətlərin, habelə kitabxanalar və onların istifadəçiləri arasında əməkdaşlığı asanlaşdırmaq və təbliğ etmək imkanı yaradır. Bunlara kitabxana xidmətləri və yeni mənbələrin yaradılması və kollektiv zəkadan istifadə edən mövcud istifadəçilərin yaradılması və s. məsələlər daxildir. Texnologiyanın mövcudluğu kitabxanalara müştərilərin tələbatlarının idarə olunan təkmilləşdirilmiş xidmətlər təklif etmək imkanı verir. Şəbəkə üstünlük təşkil edən ünsiyyət, əməliyyat və istehlakın bir yolu olduğu üçün, insan həyatının bütün sahələrini vurğulayır. Veb mühiti insan resurslarının informasiya tələbatının ödənilməsində əsas, əhəmiyyətli amil olaraq inkişaf etdi. Ali təhsil, insan resurslarının inkişafında əsas sahələrdən biridir, əlçatmaz və boşluqları aradan qaldırmaq üçün yeni texnologiyalar ilə işləmək qabiliyyəti olmalıdır. Kitabxanalar ən yüksək akademik qurumların mərkəzidir, həmişə bir sıra xidmətləri olan elm adamları arasında biliyin yayılmasında həmişə lider rol oynayır. Elektron ehtiyatlarda, məlumat mühitinin yaxşılaşdırılmasında ali təhsil müəssisələrinin kitabxanası sahəsində mütəxəssislər üçün çox sayda problem və imkanlar mövcuddur.

Aşağıda təsvir olunan Jagdish tərəfindən göstərildiyi kimi inkişaf etməkdə olan bir kitabxana mühiti üçün istifadə olunan alətlər və metodlar:

*İnstant Mesajlaşma (IM):* Ani mesajlaşma və ya IM, bir mətn formatından istifadə edərək iki və ya daha çox insan arasında demək olar ki, ani əlaqədir. Kitabxanalar artıq "İstinad Arayış" xidmətlərinin real vaxtda göstərilməsi üçün ziyarətçilərin kitabxanaçılarla fərdi istinad kontekstində olduğu kimi eyni şəkildə ünsiyyət qura biləcəyi üçün yerləşdirilir. "Yaşayış istinad xidmətləri" üçün kitabxanalarda istifadə

olunan proqram, sadələşdirilmiş IM tətbiqlərindən daha etibarlıdır. Bu proqram tez-tez, əvvəlki transkripsiyaların məlumat mübadiləsi, fayl mübadiləsinə imkan verir. Kitabxanalar bu texnologiyanı inkişaf etdirir, çünki kitabxananın ənənəvi istinad xidmətlərinə çox bənzər onlayn rejimdə istinad xidmətlərini asanlaşdırır.

*RSS Feeds:* RSS real sadə bir sindikasiya və ya saytın zəngin bir qısa təqdimatı deməkdir. Texnologiya, bir tərəfdən, veb saytına (və ya elektron nəşr), XML adlı texnologiyadan istifadə edərək ən son dərc olunan yeniləmələri (məsələn, jurnalların cədvəli, yeni məqalələrin cədvəli) siyahısına imkan verir; digər tərəfdən, veb istifadəçisini seçilmiş saytlarda yeni yeniləmələri izləmək üçün asanlaşdırır. Şəxsi axtarış köməkçisi kimi, RSS oxucuları əvvəlcədən müəyyən edilmiş veb saytlara daxil olur, yenilənmiş məlumatları axtarır və avtomatik olaraq istifadəçinin masaüstünə gətirir. Bu istifadəçiləri internetdə sindikat və yenidən çap etmək üçün bir yol təqdim edir. İstifadəçilər saytlarında və ya bloglarında digər məcmu tərkibindən məzmunu yenidən çap edirlər və fərdi istifadə üçün internetdən istifadə edirlər. Kitabxanalar, bu abunəçilərin məlumat bazalarında yeni xidmətlər və yeni məzmunda yeni elementləri və yeni məzmunu yeniləyə biləcəyiniz istifadəçilər üçün RSS kanalları tərəfindən yaradılmışdır. Həm də saytlarında məzmunu yenidən çap edirlər.

*HTML kanalları:* HTML kanalları əsasən tədqiqatçılar arasında bir sıra qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün HTML kodlarına çevrilir. HTML kodları veb saytlara yerləşdirilə bilər və nəticədə HTML kanalı bir səhifə üçün konfiqurasiya edilə bilər. HTML kanalları istifadəçilərə daha sürətli girməyə imkan verir. Elsevier elmi, sitat, verilənlər bazası üçün HTML kanallarını təqdim etdi.

*Axın mediası:* axın multimedia, təchizatçı tərəfindən çatdırıldığı üçün son istifadəçi üçün göstərilən bir kompüter şəbəkəsində multimedia məzmununun ardıcıl çatdırılmasıdır. Video və audio medianın axını internetdən əvvəl mövcud olan vacib bir tətbiqdir və həmçinin tətbiqini internetdə tapır. Kompüter və şəbəkə infrastrukturunun mövcudluğu, multimedia, kitabxana təlimatları, internetdə verilən statik dərsliklər multimedia əsaslanan interaktiv dərsliklərə çevrilir. Bir neçə tədris vəsaitləri flash proqramlaşdırma, ekran proqramı və ya axın səsi və ya video istifadə edərək, həmçinin operatorun təqdimatını interaktiv viktorina ilə birləşdirir; istifadəçilər suallara cavab verirlər

və sistem müsbət reaksiya verir. Dərsliklər, kompüter təlimatları sahəsindəki tətbiqlərinə əlavə olaraq, daha çox sosial zəngin bir internetə keçmək üçün ilk kitabxana tətbiqetmələri idi, bu da kolleksiyalarında axın mediası da mövcud olacaq. Mediya yaradıldıqca kitabxanalar arxivləşdirmək və onlara giriş təmin etmək üçün məsuliyyət daşıyacaqlar. Kitabxanalar artıq belə bir rəqəmsal aktiv idarəetmə texnologiyalarının təmin edilməsini öyrənməyə başlayır.

*Podcasting:* iki sözdən, yəni "yayım" və "iPod" (Apple MP3-Player) əldə edildi. COD tökmə, "RSS kanallarından istifadə edərək, portativ media oyunçuları, eləcə də kompüterlərdə portativ media kanallarından istifadə edərək internet vasitəsilə paylana bilən audio rəqəmsal-media faylları ələ keçirmə prosesi olaraq təyin olunur. İstifadəçilər bu cür kanallara abunə ola bilər və bu faylları avtomatik olaraq kompüterlərində səs- idarəetmə proqramına avtomatik yükləyə bilərlər. Podcast, Syndicaticate, abunə etmək və RSS formatlarını oxuya biləcək yeni məzmun əlavə edərkən sindikatlaşdırmaq, abunə olmaq və yükləmək üçün avtomatik olaraq istifadə olunur. Bir neçə kitabxana proqramlarını dəstəkləmək üçün podcastlardan istifadə edir. Kitabxana məzmunu və xidmətləri mediasının tədarükü kimi subcusting və digər istehlakçı texnologiyalarının istifadəsi kitabxana peşəsi üçün əla bir fürsətdir.

*Vodcasting:* Vodcasting-də "VOD" "istəklə bağlı video" deməkdir. Bu, subkastlama ilə eynidır. Subcasting səs sənədlərini çatdırmaq üçün istifadə edilərkən, Vodcasting video məzmunu çatdırmaq üçün istifadə olunur. Podcast məzmunu kimi, Vodcasts məzmunu ya bir noutbukda, ya da media köməkçisində (PMA) cihazında tətbiq edilə bilər.

*SMS sorğu xidmətləri:* Qısa mesajlar (SMS) - bu mobil şəbəkələrdə birləşmənin təhvil verilməsi mexanizmidir. Kitabxanada SMS sorğuları ziyarətçilərin mobil telefonlarından kitabxanaya sorğuları üçün istifadə etmələrinə icazə verir. Bu cür istəklərə baş vuranlar, dərhal cavab alırlar.

*Bloglar:* Bir blog ümumiyyətlə şöbə tərəfindən dəstəklənən bir veb saytdır, müntəzəm şərhləri, hadisələrin və ya digər materialların təsviri, məsələn, qrafika və ya video kimi bir veb saytdır. Qeydlər ümumiyyətlə tərs xronoloji qaydada göstərilir və onlar ümumiyyətlə asan nəşr vasitələri hesab olunur. Bloqlar məzmunun dərc edilməsi və

ya şərhinin yayımlanması üçün bir insana və ya bir qrupa nəzarəti təmin edir. Texnoloji cəhətdən, bloqların istifadəsi asandır, platformadan müstəqildir və internet vasitəsilə onlayn mövcuddur. Ümumiyyətlə, bloqların onlayn fabrikləri olduğunu söyləyə bilərik ki, minlərlə bloq, öz biliklərini, anlayışlarını və digər insanlarla fikirlərini bölüşməyə hazır olan müxtəlif mövzu sahələrində mütəxəssislər tərəfindən dəstəklənir. Kitabxanalar üçün bloqların ən aydın istifadəsi, tanıtım, reklam və s. xidmətləri üçün bir vasitə kimi rol oynayır. Kitabxanalar istifadəçilərinə məlumatı yaya bilir, bloqlarında yeni qaynaqlar və hadisələr ilə bağlı elanlar edilir. Bloqlar istifadəçilər və personal arasında mübahisə və qarşılıqlı əlaqə qurmaq üçün istifadə edilə bilər. Bundan əlavə, kitabxana və istifadəçilər arasında bir-biri ilə tanış olmaq və şəxsi səviyyədə qarşılıqlı əlaqə qurmaq üçün kitabxana bloqlarından istifadə etmək tövsiyə edilə bilər.

*Wiki:* Wiki, ona müraciət edən hər kəsə icazə vermək, sadələşdirilmiş işarələmə dilindən istifadə edərək məzmuna icazə vermək və ya dəyişdirmək üçün nəzərdə tutulmuş veb səhifələrin toplusudur. Wiki tez-tez birgə saytlar yaratmaq və cəmiyyətin veb saytlarını gücləndirmək üçün istifadə olunur (Wikipedia, 2008). Məsələn, Vikipediya. Wiki, həmçinin müəssisələrdə mövcud və effektiv intracetləri təmin etmək və bilikləri idarə etmək üçün istifadə olunur. Wiki, əslində, internet səhifələrinin açılışı ilə bərabərləşdirilə bilər, burada birinin qeydiyyata alındığı birinin onu dərc edə, ona əlavə edə, dəyişdirə və dəyişdirə bilər. Bloqlar vəziyyətində olduğu kimi, Wiki'nin ənənəvi qaynaqları qədər etibarlılığı yoxdur. Buna baxmayaraq, məlumat mənbəyi kimi onların dəyəri pozula bilməz. Kitabxanalar, kitabxanaçılar və qonaqlar arasında sosial qarşılıqlı əlaqəni təmin etmək üçün bir rabitə vasitəsi olaraq Wiki-dən istifadə edə bilərlər. İstifadəçilər məlumat mübadiləsi, sual vermək və cavab verə biləcəklər və kitabxanaçılar Wiki-də də eyni şeyi edə bilərlər. Üstəlik, bu əməliyyatların yazılması əbədiyyət üçün arxivləşdirilə bilər. Cavab sessiyasının belə bir sualının transkripti, bir link olaraq təmin etmək üçün kitabxana üçün bir qaynaq rolunu oynayacaqdır. Bundan əlavə, Wiki, nəticədə həm sinxron, həm də asinxron audio və video əməkdaşlığın baş verəcəyi bir multimedia mühitində inkişaf edəcəkdir.

*Sosial şəbəkələr:* Sosial Şəbəkə Xidməti, maraq və fəaliyyətləri bölüşən və ya başqalarının maraqlarını və fəaliyyətlərini öyrənmək-

də maraqlı olan insanlar üçün virtual sosial şəbəkələrin yaradılmasını asanlaşdıran bir veb proqramdır. Sosial şəbəkələrin əksəriyyəti, istifadəçi icmasının çoxu, istifadəçi cəmiyyətini söhbət, mesajlaşma, e-poçt, video çat, fayl mübadiləsi, bloq istismarı, müzakirə qrupları və s. YouTube, s. Facebook və Whats Appenable istifadəçiləri bir-biri ilə bölüşə bilsələr də (istifadəçilərin həyatının və şəxsiyyətinin ətraflı profilləri), YouTube istifadəçilərə veb resurslarında video mübadilə etməyə imkan verir. Sosial şəbəkələr kitabxanaçılara və ziyarətçilərə yalnız qarşılıqlı əlaqə qurmaq üçün deyil, həm də elektron mühitdə resurs və mənbələri dinamik olaraq bölüşməyə imkan verir. İstifadəçilər kitabxana şəbəkəsi xidmətindən istifadə edərək hesab yarada bilərlər, digər istifadəçilərin məlumat ehtiyacları üçün ortaq olduqlarını, bir-birlərinə qaynaqları tövsiyə edə bilər. Bundan əlavə, kitabxanalar, oxşar profillər, demoqrafiya, əvvəllər mövcud olan mənbələr və istifadəçilər tərəfindən təqdim olunan bir çox məlumat əsasında şəbəkə vasitəsilə istifadəçilərə imkanlar tövsiyə edə bilər.

*Taging:* TEG, məlumatların bir hissəsini təşkil edir (şəkil, coğrafi xəritə, bloq giriş, video klip və s. və axtarış məlumatları). Etiketlər ümumiyyətlə qeyri-rəsmi və şəxsən müəllif / yaradıcı və ya onun istehlakçısı / tamaşaçıları / icması tərəfindən seçilir. Etiketlər ümumiyyətlə kompüter sənədləri, veb səhifələr, rəqəmsal şəkillər və s. kimi mənbələr üçün istifadə olunur. Kataloqlaşdırma - kitabxanaçıların fundamental bacarığıdır, İstifadəçi məlumatın bu hissəsinin öz qavrayışı əsasında məlumatı müəyyənləşdirə və təsnif edə bilər. Kitabxanada istifadəçilər kitabxana kolleksiyasını qeyd edə və bununla da kataloqlaşdırma prosesində iştirak edə bilərlər. Kitabxana kataloqu istifadəçilərə daha rahat və ya istifadəçi üçün məna verdiyindən asılı olaraq həm standart, həm standartlaşdırıcı, həm də müdaxilə istifadəçilərinə tabe olmağa imkan verəcəkdir. Bu etiket kataloqu açıq bir kataloq rolunu oynayır.

*Sosial əlfəcinlər:* Sosial nişanlar, təsviri metadata istifadə edərək veb saytların əlfəcinlərinin saxlanması, təşkili, axtarışı və idarə edilməsi üsuludur. Əlfəcinlərin sosial sistemində istifadəçilər veb səhifəyə bağlantıları saxlamaq istədikləri və / və ya digər istifadəçilərlə bölüşən bağlantıları saxlaya bilərlər. Bu əlfəcinlər ictimai və ya konservativ ola bilər, yalnız bu insanlar və ya insanlar qrupları ilə bölünür. Səlahiyyətli insanlar ümumiyyətlə, bu əlfəcinləri xronoloji

cəhətdən kateqoriya və ya etiketləri axtarış vasitəsilə görə bilərlər. Əksər sosial əlfəcinlər, istifadəçilərə ənənəvi bir qovluq əvəzinə qeyri-rəsmi etiketlər, bəzi xidmətlər kateqoriyalar / qovluqlar / ya qovluqlar və etiketlərin birləşməsinə baxmayaraq, qeyri-rəsmi etiketlər sistemi ilə əlfəcinlərini qeyri-rəsmi etiketlər təşkil etməyə təşviq edir. Bu xidmətlər də seçilmiş etiketlə əlaqəli əlfəcinləri görməyə və əlfəcinlərə əlavə edən istifadəçilərin sayı haqqında məlumat daxil etməyə imkan verir. Bəzi sosial əlfəcinlər etiket qrupları və ya əlfəcinlər yaratmaq üçün etiket münasibətlərindən nəticə çıxarır. Tələbatçılar RSS kanallarından istifadə edərək fənlər və ya onlarla əlaqəli ixtisas sahələrindən istifadə edərək sosial əlfəcinlərin saytlarından istifadə edə bilərlər.

**Nəticə**

Məlumat paradiqmasının informasiya verən mənzərəsi, bu boşluğu aradan qaldırmaq üçün kitabxanaçılar üçün avtomatik olaraq yeni sahələri əldə edəcək yeni veb texnologiyalarından istifadə edərək xidmət təmin etmək üçün bir çox yeni yol yaradır. Trend və yeni texnologiyalardakı problemlər yalnız kitabxana və informasiya mütəxəssisləri üçün deyil, həm də istifadəçilər, qonaqlar, elm adamları, eləcə də nəşriyyat cəmiyyəti üçün də problem yaradır. Həqiqətən, yeni mühit bir çox görünməmiş funksiyanı və imkanları artırır və maraqla, onlardan nə qədər istifadə edəcəyimizi bilsək, bir çox imkanların olduğunu görürük və əksəriyyəti hətta pulsuzdur. Yeni texnologiyalar istifadəçiyə yönəlmiş xidmətlərin, habelə bu rəqəmsal dövrdə kitabxanalar və istifadəçiləri arasında əməkdaşlığı asanlaşdırmaq və təşviq etmək üçün kitabxanaçılara özünəməxsus imkanları təmin edir. Bu tendensiyalardan bəzilərinə uyğunlaşma və bəzi yeni veb texnologiyaların həyata keçirilməsi, yəqin ki, cəmiyyətdəki kitabxanaların nüfuzunu və vəziyyətini yaxşılaşdıracaqdır. Bu yeni xidmətlər və cari dəyişikliklər, ehtimal ki, kitabxanaların daha da təkmilləşməsinə şərait yaradacaqdır.

## *ƏDƏBİYYAT*


1. *Xələfov, A. Kitabxanaşünaslıq və informasiya elmlərinə giriş./A. Xələfov, E. Əhmədov.-Bakı: Füyuzat, 2022.-s.341-342.*
2. *İsmayılov, Xəlil. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti.-Bakı: Bakı Dövlət Universiteti, 2009.- 319 s.*
3. *Qurbanov, Azad. Elektron kitabxanalar: dərs vəsaiti /P. Kazımi, O.Quliyev; elmi red. A. M. Babayev,Bakı: MTM-İnnovation, 2018.-297,s.*
4. *Jagdish, A. Innovative technologies for building libraries of tomorrow. Book of Papers at a seminar Organised by Ahmedabad Library Network ,2018, 49-65.*
5. *Barathi, S., Loganathan, G., & Rajan, V. R. Emerging technological innovations in library knowledge management and services. Advances in Computational Sciences and Technology, 2017, 10(5), p.1479-1486 .*
6. *Creating a virtual library: a how-to-do-it manual for librarians. (1999)./Edt. F.Stielow, New York: Neal-Schuman, 184 p.*
7. *Saffady, William. Introduction to automation for librarians, Chicago: American Library Association, 1999.- VI. - 339 p.*


**Nurlana Janpolad gizi Aghayeva**

## THE ROLE OF NEW TECHNOLOGIES IN THE INFORMATION OF LIBRARIES IN THE CONTEXT OF THE GLOBAL INFORMATION SOCIETY

***Summary**: Recent technological advances have led to many changes in library and information services, including social expectations of librarians/information professionals. Thus, it is very important to ensure that librarians/information specialists change with the system, update their knowledge and skills, and use new web technologies in the library-information service. Based on this fact, the article pays special attention to global and trending problems, new technologies for library and information science, and issues of effective library service for readers.*

***Key words****: global trends, new technologies, library, information science, services.*

**Нурлана Джанполад кызы Агаева**

**ФОРМИРОВАНИЕ И НОВЫЕ ТЕХНОЛОГИИ БИБЛИОТЕКИ В ГЛОБАЛЬНОМ ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ**

***Резюме:*** *Недавние технологические достижения привели ко многим изменениям в библиотечных и информационных услугах, включая социальные ожидания библиотекарей/специалистов в области информации. Таким образом, очень важно обеспечить, чтобы библиотекари/информационные специалисты менялись вместе с системой, обновляли свои знания и навыки, использовали новые веб-технологии в библиотечно-информационном обслуживании. Исходя из этого, особое внимание в статье уделено глобальным и актуальным проблемам, новым технологиям в библиотеке и информатике, вопросам эффективного библиотечного обслуживания читателей.*

***Ключевые слова****: глобальные тенденции, новые технологии, библиотековедение, информационная наука, услуг.*

**Aysel Mustafa qızı Səmədova**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrasının magistrantı***
aysel.semeedova@gmail.com
ORCID: 0000-0002-2848-2887

# KİTABXANA- İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ BEYNƏLXALQ TƏCRÜBƏDƏ

***Xülasə:*** *Məqalədə informasiya texnologiyalarına istinad etməklə texnologiyada irəliləyişlərin gətirdiyi dəyişikliklər nəzərdən keçirilmiş, onların ümumi təsiri kitabxana sahəsi üçün transformasiya vəziyyəti kimi dəyərləndirilmiş və bu vəziyyətin müxtəlif aspektdən təhlili olduqca zəruri bir məsələ kimi qarşıya qoyulmuşdur. Uzunmüddətli perspektiv əsasında kitabxana mühitində informasiya texnologiyalarının tətbiqinin beynəlxalq səviyyədə nəzəri və təcrübi məsələləri metodoloji cəhətdən tətqiqata cəlb edilmişdir. Beynəlxalq kitabxana informasiya məkanı üçün prioritetlik təşkil edən kitabxana informasiya texnologiyalarının tətbiqinin kitabxana informasiya fəaliyyətinin innovativ metodlara yiyələnməsində rolu mühüm məsələ kimi nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *İnformasiya texnologiyaları, kitabxana informasiya texnologiyaları, informasiya texnologiyalarının kitabxanalara tətbiqi beynəlxalq təcrübədə, kitabxana informasiya texnologiyalarının üstünlükləri və çatışmayan cəhətləri.*

Konseptual çərçivədən nəzər yetirdikdə texnologiya mürəkkəb problemlərin həllinə yönəlmiş müxtəlif texnikaların, vasitələrin və proseslərin məcmusu hesab edilir. Amerikan iqtisatçısı Peter Thiel isə texnologiyanı "istənilən sahəyə tətbiq edilən yeni və daha yaxşı iş üsulu" kimi xarakterizə edirdi. Daha dəqiq desək, texnologiya insanın məqsədini reallaşdırmağa xidmət edən, müvafiq təcrübəyə əsaslanan vasitə və proseslərin məcmusudur. İnformasiya texnologiyalarına istinad etməklə texnologiyada irəliləyişlərin gətirdiyi dəyişikliklər o qədər geniş olmuşdur ki, onların ümumi təsirini qiymətləndirmək çətindir. Lakin qeyd edə bilərik ki, kitabxanalar üçün bu transformasiya vəziyyətidir və bu vəziyyətin müxtəlif aspektdən təhlili olduqca zəruri bir məsələ kimi diqqəti cəlb edir.

Bu gün müasir informasiya texnologiyaları Avropa məkanına daha çox inteqrasiya etmişdir, hansı ki, bu inteqrasiya meyillərinin inkişafı texnologiyaların innonvativ şəkildə fəallaşmasına şərait yaradır və bu innovativ imkanın əsas səbəbi beynəlxalq təcrübədə məhz həmin texnologiyaların tətbiqidir. Nebraska - Lincoln Universitet kitabxanasının 2018-ci ildə təqdim etdiyi tətqiqat nəticələrində belə bir fakt diqqəti cəlb edirdi. Belə ki, keçən əsrə qədərki dövr ərzində kitabxanalar yalnız kitabların saxlandığı bir müəssisə, başqa sözlə, nə zamansa kiminsə oxuması üçün nəzərdə tutulmuş "kitab yığınlarından" ibarət bir otaq hesab edilirdi. Eyni zamanda, kitabxanaçıların da vəzifəsinin yalnız həmin kitabların qoruyucusu kimi fəaliyyət göstərmək, onları mühafizə etməkdən ibarət olduğu qeyd edilirdi. Ötən əsrdə əsası informatika hesab edilən müasir informasiya texnologiyalarının yaranması nəticəsində bu fikirlərin də ömrü çox uzun sürmədi. Belə ki, informasiya kommunikasiya texnologiyalarının geniş bir əhatə dairəsinə nüfuzu kitabxana sahəsindən də yan keçməmiş və bunun işığında, XX əsr informasiya texnologiyalarının kitabxana sahəsində aktuallaşdırılması ilə xarakterizə edilən və onun imicini əsaslı surətdə dəyişdirən inqilab dövrü kimi çox əhəmiyyətli yer tutmuşdur.

Library İnformation Sicence Education Network - Kitabxana İnformasiya Elmləri Akademik Şəbəkəsində təhsil və kitabxana sahəsində baş vermiş yenilikləri tətqiq edən tədqiqatçılar, informasiya mütəxəssisləri və tədqiqat administrasiyası kitabxanalarda informasiya texnologiyalarının sürətlə təşəkkül tapması, habelə tətbiqini mübahisəli məsələ kimi dəyərləndirirdi. Xüsusilə, yeni texnologiyaların kitabxanaçıların fəaliyyətini zəbt etməsi, kitabxanaçı peşəsini sıradan çıxarması kimi bir məsəslə qarşıya qoyulurdu. Hətta bu səbəbdən Pakistanda 1980-cı illərə qədər kitabxanalarda informasiya texnologiyaları tətbiq edilməmişdir, belə ki, burada kitabxanaçılar öz rollarının minimuma endirilməsindən çəkinərək informasiya texnologiylarının tətbiqinə birmənalı yanaşırdılar. Əlbəttə, belə bir reallıq danılmazdır ki, kitabxana proseslərinin avtomatlaşdırılması onların yerinə yetirilməsində insan müdaxiləsi zərurətini minumuma endirməkdən ibarət idi və bunun nəticəsində hazırda beş nəfərin həyata keçirdiyi kitabxanadaxili iş prosesi artıq bir nəfər tərəfindən daha asan və sürətli yerinə yetirilir. Bu isə o demək deyil ki, kitabxanaçı peşəsi sıradan çıxır, əksinə informasiya texnologiyalarının tətbiqi ilə yorucu, uzun vaxt tələb edən kitabxanaçı əməyi yüngülləşir, zəhmətkeşlik və təkrarlanan işlər aradan qaldırılır. Tədqiqatçılar öz fikirlərini belə əsaslandırır ki, kitabxanaçı

peşəsi nə əvvəl, nə də indi yalnız kitab mühafizəsi vəzifəsini yerinə yetirmək üçün nəzədə tutulub. “Kitabxanaçı” məvhumu kitabxanaların yaranması ilə nüfuz qazanmış bir peşə sahəsi olub, kitabxana fəaliyyətinin əsas ünsürlərindən biri kimi uzun illər diqqət mərkəzində olmuşdur. Kitabxanalar yarandığı dövrdən onun varlığının əsas göstəricisi kimi mövcud olan kitabxanaçı peşəsi informasiya texnologiyalarının kitabxana sahəsinə tətbiqi ilə daha perspektivli bir sahəyə çevrilmişdir. Nəticədə, kitabxanada fəaliyyət göstərən vəzifəli şəxslərin məsuliyyəti daha da artmış, kitabxanadaxili iş prosesi müasir texnologiyanın tələbinə uyğun olaraq qurulmuşdur.

İnformasiya texnologiyalarının kitabxana sahəsinə tətbiqi birdən-birə olmamış mərhələli şəkildə, tədricən baş vermişdir. Kitabxanalara və informasiya mərkəzlərinə informasiya texnologiyalarının nüfuz etməsi 1940-cı illərdə ilk dəfə qərb ölkələrində müşahidə olunurdu. 1960-cı illərdən isə artıq digər inkişaf etmiş ölkələrin məşhur kitabxanalarında da informasiya texnologiyalarından istifadə mərhələli şəkildə həyata keçirilmişdir. Qərb ölkələrində ilk dəfə kitabxana sahəsində tətbiq edilən informasiya texnologiyalarının sürətli inkişafı kitabxana sahəsində informasiya mübadiləsi - informasiyanın alınması, saxlanılması və yayılması prosesinə öz əsaslı təsirini göstərmişdir. İnternetin ixtirası ilə də kitabxana fəaliyyətində və informasiya xidmətlərində informasiya texnologiyalarının tətbiqinin yeni mərhələsi başlanmışdır. Əlbəttə ki, bu inkişaf müxtəlif sahələrdə tədricən baş versə də, kitabxana xidmətlərində özünü daha qabarıq şəkildə göstərmişdir. İnformasiya texnologiyalarının kitabxanalarda sürətli təşəkkül tapması həmin dövr üçün olduqca mübahisəli məsələ idi və bir çox tətqiqatçılar bu yeni innovasiyanın kitabxanaya verdiyi töhfələri, eyni zamanda yeni xidmət üsullarının kitabxana üçün əlverişli olmayan cəhətlərini aşkar etməyə çalışırdı.

Hindistanın qabaqcıl təhsil müəssisələrindən biri olan Assam Universitet Kitabxanası müasir informasiya kommunikasiya texnologiyalarının kitabxanalarda tətbiqinin əsas cəhətlərini tətqiq etmiş, 2017-ci ildə “İnformasiya texnologiyaları və kitabxanalar” adlı məqalədə kitabxanalara informasiya texnologiyalarının gətirdiyi yenilikləri, onun kitabxana mühüti üçün əlverişli cəhətlərini təqdim etmişdir:

1. Təklif olunan xidmətlərin çeşidinin və keyfiyyətinin artması, bu xidmətlərə daha az zaman və işçi qüvvəsinin sərf olunması;
2. Müxtəlif kitabxana resurslarının toplanmasının asan və səmərəli həyata keçirilməsi;

3. Təşkilat daxilində inteqrasiya, əməkdaşlıq və kitabxana şəbəkələrinin yaradılması;
4. Müxtəlif mənbələrdən limitsiz məlumat əldə olunması, eyni zamanda lazım olan məlumatların operativ və cəld axtarışı;
5. İstifadəçilər tərəfindən uzaqdan giriş və 7x24 təklif edilən xidmət;
6. Kitabxanaların vəziyyətinin yaxşılaşdırılması, rabitə vasitələrinin təkmilləşdirilməsi [5].

Assam universiteti öz kitabxanalarında informasiya texnologiyalarının tətbiqində bir sıra çatışmayan cəhətləri də xüsusi olaraq diqqət mərkəzində saxlayırdı:

- ✓ İnfrastrukturun olmaması;
- ✓ İnformasiya texnologiyalarının avtomatlaşdırılmış mühitə tətbiq edilməsinin zəruriliyi;
- ✓ Müasir texnologiyalardan istifadə etmək üçün təlim keçmiş savadlı kadrlara ehtiyac duyulması.

İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiqi kitabxana sahəsinin inqilabı və bu inqilabın məhsulu isə rəqəmsal kitabxanalar hesab edilirdi. Ən yüksək səviyyəli WordPress.com saytı kimi tanınan Rosiebuckborough müasir dövrdə informasiya texnologiyalarının kitabxanalara tətbiqinin əsaslı naliyyətlərindən biri hesab edilən elektron, başqa sözlə rəqəmsal kitabxanaların Amerika, o cümlədən inkişaf etmiş digər Avropa ölkələrində fəaliyyəti ilə bağlı tədqiqatlar aparmışdır. Rosiebuckboroughda təqdim edilən tədqiqatlarda qeyd edilirdi ki, rəqəmsal kitabxanalar sənədlərin fiziki mövcudluğunu tamamilə əvəz etmək niyyətində deyil, lakin şübhəsiz ki, mövcud tələbatı ödəmək, qeyri-lokal istifadəni təmin etmək məqsədilə rəqəmsallaşdırma tətbiq edilməlidir. Rəqəmsallaşdırmanın ilkin dəyəri yüksək olsa da, tədqiqat və təcrübə göstərir ki, rəqəmsallaşdırma tətbiq edildikdən sonra onu idarə etmək üçün xərclər istənilən ənənəvi kitabxanalardan daha aşağı dəyərə malik olur [8]. Son olaraq qeyd etmək lazımdır ki, Rosiebuckborough rəqəmsal kitabxanaları ömürboyu öyrənmə, tətqiqat, elmi ünsiyyət, eləcə də, qeydə alınmış biliklərin qorunması və onların qorunmasını dəstəkləyən rəqəmsal kolleksiyalar, xidmətlər və infrastrukturlardan ibarət sistem kimi təqdim edirdi.

Syracuse Universitetinin professoru Dr.Jian Qin 2020-ci ildə OCLC (Onlayn Kompüter Kitabxana Mərkəzi) və Amerika Kitabxana Assosasiyasının bölməsi olan Kitabxana və İnformasiya Texnologiyaları Assosasiyası (LİTA) tərəfindən təhsis edilən Kitabxana və İnfor-

masiya Texnologiyalarında Tətqiqat üzrə Frederik Q. Kilgour Mükafatını informasiya texnologiyalarının inkişafı ilə bağlı, xüsusən də kitabxanalarda informasiyanın alınması, saxlanılması və yayılmasının hər hansı aspektində informasiya kommunikasiya texnologiyalarının təsirinin müsbət və çatışmayan cəhətlərinin aşkar edilməsində gördüyü işlərə görə almışdır. Bu tətqiqatın nəticələrinə əsasən, kitabxanalarda İT təşəkkül tapmasının kitabxana fəaliyyətində üstün cəhətlərini aşağdakı kimi qeyd edə bilərik.

1. Kitabxanadaxili lokal şəbəkələrin, habelə dünya məkanına inteqrasiyanı təmin edən qlobal kompüter şəbəkələrinin yaranması;
2. Kitabxanaçı əməyinin yüngülləşdirilməsi, iş yükünün azaldılması;
3. Müxtəlif mənbələrdən məhdudiyyətsiz, həmçinin aktual məlumatların əldə edilməsi;
4. Kitabxana tərəfindən göstərilən bütün xidmət növlərinin müasir dövrün tələbləri ilə ayaqlaşmasının təmin edilməsi [9];

Əlbəttə, İnformasiya texnologiyalarının kitabxana mühitinə tətbiqinin ilk dövrlərində hər bir müəssisədə olduğu kimi kitabxanada da, inkişaf etmiş yeni texnologiyaların ənənəvi mühitə nüfuzu bəzi problemlərə səbəb olmuşdur. Müasir dövrümüzdə bu problemlər tədricən aradan qaldırılmış, lakin iqtisadi cəhətdən hələ də bəzi nüanslar diqqət mərkəzində qalmaqdadır (Hindistan iqtisadçısı Vijaykamur, 2011):

1.İnformasiya kommunikasiya texnologiyaları avadanlıqlarının təmin edilməsi kitabxana büdcəsi üçün xeyli artıq bir məbləğdir. Belə ki, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi üçün çox hallarda kitabxana büdcəsindən əlavə gəlirə ehtiyac duyulur.

2.Kitabxanalar informasiya texnologiyalarının tətbiqi ilə əl üsulundan avtomatlaşdırılmış üsula keçdiyinə və artıq 10 kitabxanaçının yerinə yetirdiyi əməliyyatları bir nəfər tərəfindən idarə edilən maşınlar reallaşdırdığına görə kitabxanaçı kadrlarının ixtisarı gözlənilən bir nəticə olur. Bu isə işsizlik faktorunu bir daha göz önünə gətirir[6].

Beynəlxalq təcrübədə informasiya texnologiyalarının kitabxanalara tətbiqi təcrübi nöqteyi nəzərdən tətqiq olunmaqla yanaşı, eyni zamanda istər beynəlxalq səviyyədə, istərsə də ölkəmizdə bu prosesin nəzəri apektdən təhlilinə xüsusi yer verilmişdir. Belə ki, informasiya kommunikasiya texnologiyalarının kitabxanadaxili proseslərə nüfuzu, onun oxuculara xidmət işində mühüm vasitəyə çevrilməsi, informasi-

ya texnologiyalarının tətbiqinin əsas cəhəti kimi kitabxanaların kompüterləşdirilməsi, kitabxana proseslərinin avtomatlaşdırılması, elektron vasitələrin, elektron nəşrlərin, elektron kitabların yaranması, onlara əlyetərliliyi təmin edən elektron kataloq və elektron kitabxanaların təşkili elektron kitabxana işi və elektron kitabxanaşünaslıq ideyasının yaranması ilə nəticələndi. Elektron vasitələri öyrənən, təbliğ edən nəzəri bir elm sahəsi kimi elektron kitabxanaşünaslıq ilk dəfə XX əsrin sonu - XXI əsrin əvvəllərində ABŞ-da, daha sonra isə Qərbi Avropa ölkələrinin mətbuatında işlənmişdir. Elektron kitabxanaşünaslıq elmi ilə bağlı daha geniş fikirlərin müəllifi 2000-ci ildə ABŞ-ın Havay Universitetinin Informasiya və kompüter elmləri fakültəsinin kitabxanaçılıq-informasiya elmləri üzrə professor köməkçisi Piter Djakso olmuşdur [4, s.11].

Piter Djakso elektron kitabxanaşünaslıq anlayışını daha geniş tətqiq etmiş, belə ki, elektron və yaxud rəqəmsal kitabxanaşünaslığı ənənəvi kitabxanaşünaslığın bir forması kimi təqdim etmiş, lakin müasir dövrdə elektron kitabxanaşünaslıq elminin inkişafının əhəmiyyətini xüsusi olaraq vurğulamışdır.

İstər nəzəri, istərsə də təcrübi nöqteyi nəzərdən yanaşdıqda informasiya kommunikasiya texnologiyalarının tətbiqində Azərbaycan kitabxanalarının fəaliyyətini də xüsusilə qeyd etmək lazımdır. Belə ki, Azərbaycanın inkişaf etmiş kitabxanaları da bu təsirdən kənarda qalmamışdır. Çox əsrlik tarixə malik olan kitabxanalarımızın fəaliyyətində XX əsr xüsusi rol oynamış, XX əsrin 60-cı illərindən başlayaraq informasiya texnologiyalarının kitabxana sahəsinə tədricən nüfuz etməsi yeni dönüş nöqtəsi kimi avtomatlaşdırılma və kompüterləşdirilmə istiqamətində diqqətəlayiq işlər görülməsi ilə nəticələnmişdir. Bu proseslərin həyata keçirilməsində Azərbaycanın öncül kitabxanası hesab edilən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyətini xüsusilə qeyd edə bilərik. İnformasiya texnologiyalarının tətbiqi nəticəsində yaradılmış kompüter şəbəkəsi, elektron sənəd göndərişi xidmətləri, xüsusilə vaxt və zaman məhdudiyyəti olmadan xidmət göstərən viritual xidmətlər, elektron kitabxananın fəaliyyəti günü bu gündə inkişaf edir və yeni innovasiyaların yaranmasına sitimul verir. Eyni zamanda, informasiya texnologiyalarının tətbiqini fəaliyyətində əks etdirən universitet kitabxanaları sırasında Bakı Dövlət

Universitetinin Elmi Kitabxanasını da xüsusi qeyd edə bilərik. Elmi kitabxana istər universitetin professor və müəllim heyətinin, istərsə də tələblə kontingentinin sorğularını operativ şəkildə ödəmək məqsədilə beynəlxalq təcrübədə tətbiq edilən hər bir texnologiyanı öz fəaliyyət istiqamətinə çevirir.

## ƏDƏBİYYAT

1. Əhmədov E.Y. Azərbaycanda kitabxana informasiya işinin hüquqi bazası: Dərs vəsaiti. - Bakı: BUN, 2012.- 212 s.
2. İsmayılov.X. Kitabxana informasiya texnologiyaları: Dərs vəsaiti. - Bakı: Nurlar, 2009.
3. Xələfov A.A. Informasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və təcrübi jurnal. - Bakı, 2005. - № 2. - 152 s.
4. Xələfov A.A. Kitabxanaşünaslığın müasir problemləri// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və təcrübi jurnal.- Bakı, 2013. - №1(10). - s.7 - 27.
5. Momoh Emmanuel Omeiza. Information Technology and the Future of Librarianship // Lincoln Library Philosophy and Practice. - e-journal, 2018
6. Vijayakumar A. Application of Information technologies in Libraries: an overview // International Journal of Digital Library Studies, 2011.
7. Thiel P. Zero to One: Notes on How to Build the Future, 2014.
8. Few Disadvantages of Digital Library | rosiebuckborough (wordpress.com)
9. https://www.librarianshipstudies.com/2020/05/frederick-g-kilgour-award-for-research.html
10. https://www.lisedunetwork.com/
11. http://news.bbc.co.uk/1/hi/programmes/click_online/9421996.stm

**Aysel Mustafa gizi Samadova**

## THE APPLICABILITY OF LIBRARY INFORMATION TECHNOLOGIES IN INTERNATIONAL PRACTICE

***Summary:*** *In the article, referring to information technologies, the changes brought about by advances in technology were considered, their overall effect was evaluated as a transformation situation for the*

*library field, and the analysis of this situation from various aspects was put forward as a very necessary issue. Based on a long-term perspective, theoretical and practical issues of the application of information technologies in the library environment at the international level were methodologically involved in the research. The role of the application of library information technologies, which is a priority for the international library information space, in the acquisition of innovative methods of library information activity is considered as an important issue.*

***Keywords:*** *Information technologies, library information technologies, application of information technologies to libraries in international practice, advantages and disadvantages of library information technologies.*

**Айсель Мустафа кызы Самедова**

## ВНЕДРЕНИЕ МЕЖДУНАРОДНОГО ОПЫТА В БИБЛИОТЕЧНЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЯХ

***Резюме:*** *В статье, относящейся к информационным технологиям, были рассмотрены изменения, вызванные достижениями в области технологий, их общий эффект был оценен как трансформационная ситуация для библиотечной сферы, а анализ этой ситуации с различных аспектов был выдвинут как очень необходимый. проблема. Исходя из долгосрочной перспективы, в исследование были методологически вовлечены теоретические и практические вопросы применения информационных технологий в библиотечной среде на международном уровне. В качестве важного вопроса рассматривается роль применения библиотечных информационных технологий, являющихся приоритетными для международного библиотечного информационного пространства, в освоении инновационных методов библиотечной информационной деятельности.*

***Ключевые слова:*** *информационные технологии, библиотечные информационные технологии, применение информационных технологий к библиотекам в международной практике, преимущества и недостатки информационных технологий*

## DİLÇİLİK

==========

**Jalə Tofiq qızı Abdullayeva**
***Azərbaycan Dillər Universitetinin müəllimi***
jalaadu25@gmail.com

# ALMAN DİLİNİN TƏDRİS METODİKASI VƏ METODOLOGİYASININ MÜASİR PROBLEMLƏRİ

***Xülasə:*** *Məqalə alman dilinin tədris metodikası və metodologiyasının müasir problemlərinin araşdırılmasına həsr olunmuşdur. Aparılmış araşdırmalar onu göstərir ki, əksər regional ölkələrdə alman dilinin tədrisi sahəsində yeni metodlar tətbiq olunmaqdadır. Müvafiq təcrübənin ölkəmizin ali məktəblərində öyrənilərək tətbiqi zəruridir. Məqalədə ölkəmizin təhsil müəssisələrində alman dilinin tədrisi sahəsində nəzərə çarpan mövcud problemlər müəyyənləşdirilmiş, onların aradan qaldırılması istiqamətləri müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *təhsil, ali məktəb, alman dili, tədris, inkişaf, metod.*

Son illər Almaniya dövləti ilə ölkəmiz arasında iqtisadi, siyasi və mədəni əlaqələrin genişlənməsi tendensiyası müşahidə olunmaqdadır. Avropa Birliyi, xüsusilə Almaniya ilə Azərbaycanın qarşılıqlı olaraq təhsil və mədəniyyət sahəsində əlaqələrinin inkişaf etdirilməsi ölkəmizin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Almaniya ilə təhsil əlaqələrinin genişləndirilməsi son dövrlər qarşılıqlı olaraq tələbə mübadiləsinin intensivləşməsinə səbəb olmuşdur.

İnkişaf etmiş ölkələrdə xarici dillərin tədrisi metodikasında ciddi elmi yeniliklər tətbiq olunmaqdadır. Xarici dillərin əlaqələndirilməsi problemlərinə regional dövlətlər tərəfindən daha çox diqqət ayrılmaqdadır. Nəzərə almaq lazımdır ki, qohum olan və qohum olmayan dillərin fonetik, leksik və qrammatik quruluşunun qarşılaşdırılmasına dilçilik elmində ciddi fikir verilir. Eyni zamanda məntiqi anlayışların müxtəlif sistemli dillərdə fərqli və ya eyni, oxşar şəkildə ifadəsi xarici dil universitetləri və bu statusu qazanan istənilən dil vahidlərini müəyyənləşdirməyə şərait yaradır.

Qeyd edək ki, tərcümə nəzəriyyəsi və təcrübəsi sahəsində, xarici dillərin tədrisində dillər üzrə eyni məfhumun müxtəlif izahına

geniş yer ayrılır. Ümumiyyətlə, iki fərqli dil sisteminin müqayisəsinə əsasən demək olmaz ki, dillərin qrammatik strukturu eyni formada təşəkkül tapmalıdır. Xarici dillər üzrə tədrisi asanlaşdırmaq üçün fərqli dil sistemləri arasında müqayisə həyata keçirilməlidir. Qeyd olunanları Avropa dil ailəsinə, xüsusən alman dili və onun tədrisindəki çətinliklərin, tərcümədəki leksik problemlərin aradan qaldırılmasına və s. aid etmək olar.

Ölkədə vətəndaşların doğma dilində mükəmməl yazıb oxumağı bilməsi, öz fikrini ədəbi dildə səlis ifadə etməyi bacarması vacibdir. Bu ziyalılığın və yüksək intellektin əsas əlamətlərindəndir. Müvafiq xüsusiyyətləri gənc nəsildə tərbiyə etmək üçün dövlət tərəfindən xüsusi tədbirlər həyata keçirilir. Eyni zamanda müəllim və tələbələrin xarici dilləri öyrənməsi sahəsində geniş imkanlar yaranmaqdadır. Ümumiyyətlə, millət, xalq, fərd təkcə öz ana dilini bilməklə dünya mədəniyyətindən məlumatlı ola bilməz. Bu zaman onlar informasiya mənbələrindən uzaq ola bilərlər. Postsovet məkanında, o cümlədən Azərbaycanda dövlətin təhsil sistemində xarici dillərin öyrənilməsinə xüsusi tədris saatları, dərs vəsaitləri və digər müvafiq vasitələr ayrılır. Son ilər bütün dünyada yüksək iqtisadi və siyasi nüfuza malik olan Azərbaycanda da, onun təhsil sistemində xarici dillərin tədrisi prosesi təkmilləşməkdədir. İnkişaf etmiş Avropa ölkələrinin dillərinin öyrənilməsi dövrün tələbi kimi qiymətləndirilir. Bu baxımdan, alman dilinin tədris metodikası və metodologiyasının müasir problemlərinin öyrənilməsi zəruri hesab olunur. İstənilən xarici dilin tədrisi dövlət dilinin yüksək səviyyədə tədrisi ilə əlaqəlidir. Orta və ali təhsil müəssisələrində müqayisəli tədrisin səmərəsi daha yüksəkdir. Ölkəmizdə alman dili fənninin tədrisinə nəinki müstəqil Azərbaycan Respublikasının təhsil sistemində, hətta sovet Azərbaycanının orta və ali məktəblərində xüsusi önəm verilmişdir.

Proseslərə tarixi baxımdan yanaşsaq, deyə bilərik ki, hər dövrün, hər onilliyin aktual xarici dilinə həsr olunmuş dərsliklərin nəşrinə xüsusi yer ayrılmışdır. Alman dili üzrə ölkəmizdə dərsliklər hər il təkmilləşdirilir. Yəni verilən təlim materiallarının izahı sadələşdirilir, çalışmaların şərtləri myənləşdirilir. Bütün bunlar tam olaraq tədrisin yaxşılaşmasına təsir göstərir. Bu dərsliklərin yaxşı cəhətlərindən biri də odur ki, xarici dilin orta və ali məktəb proqramları arasındakı olna əlaqə bərpa edilmişdir. Nətcədə orta və ali məktəblərin xarici dil dərs-

likləri arasındanı fərqlər tamamilə aradan götürülmüşdür. Son illər ölkəmizdə tədris sahəsində geniş istifadə edilən test və interaktiv təlim üsullarının çox böyük əhəmiyyəti vardır. Məsələn, orta məktəb dərsliklərində yardımçı vəsait kimi təqdim olunan test kitabçalarının tərtibçiləri həm ali məktəb, həm də orta məktəb müəllimləri olur. Həmmüəllifin həm ali, həm də orta məktəbdə dərs deməsi dərsliklər arasında olan fərqi aradan götürür.

Orta məktəb dərsliklərində alman dili dərsliklərində tədrisi çətinləşdirən bir sıra çətinliklər mövcuddur. Bunlardan bir məqam diqqəti xüsusilə cəlb edir. Məsələn, ali və orta məktəb alman dili dərsliyində Azərbaycan dilində olan mətnlərə, izahatlara, demən olar ki, az yer verilir. Bəzən də, bu çalışmaların sayı az olur. Bu kitablar üzrə tədris edən müəllim tələbələr üçün başa düşülməyən, çətin mövzuları asand izah edə bilir. Qeyd edək ki, bəzən, bu dili sərbəst şəkildə öyrənmək istəyən vətəndaşlar da tapılır və onların ilkin olaraq müraciət etdikləri mənbə məhz bu dərsliklər olur. Bu vətəndaşlar öyrənmək istədiyi dilin qrammatikası haqqında məlumatı ətraflı almaq istəyir. Onlar həmin dil haqqında müxtəlif dil səviyyələrini əhatə edən informasiyanı ana dilində alırlar. Bəzən bu dərsliklər xarici dil öyrənmək istəyində olan şəxsləri qane etmir. Məsələn, ali və orta məktəb dərsliklərində qrammatik məlumatlar yalnız alman dilində şərh edilir. Azərbaycan dilində isə heç bir məlumat verilmir. Qeyd edək ki, əksər dərsliklərdə Azərbaycan dilində izahlı yazıya az yer verilir. Son illər ölkəmizdə tədris olunan xarici dil dərsliklərinin əksəriyyətində eyni bir hal qeydə alınır.

Aparılmış müşahidələr onu göstərir ki, alman dilinin ali və orta məktəblərdə tədrisində istifadə edilən metodlar müxtəlifdir. Bu metodu əsasən iki hissəyə bölmək mümkündür:

İlkin hissəyə didaktikanın müəyyən etdiyi ümumi metodiki yollar aiddir [2]. Müvafiq hissəyə müəllimin tədris materialları üzrə şərhi, müsahibə, çalışmalar və dərslin üzərində aparılacaq iş növləri aiddir. Növbəti üsul alman dili fənninin öz xüsusiyyətləri ilə əlaqədar olan metodiki yollar hesab olunur. Qeyd edilən metodiki yola qrammatik təhlil, imla və üzdən nöçürmə yazılar, üslubiyyat üzrə təhlil, inşa və ifadə yazılar və s. daxildir. Məsələn, birinci növ metodik yollarda alman dili fənninin bütün bölmələri - qrammatina, fonetika, orfoepiya, orfoqrafiya, durğu işarələri və nitq inkişafı tədrisdə istifadə olu-

nur. İkinci növ metodik istiqamət hər hansı bölmənin müəyyən mövzusunun - həm əsas, həm də köməkçi nitq hissələrinin tədrisində tətbiq edilir. Son illər alman dilinin tədrisində mühüm metodiki yollardan, biri də qrammatin təhlil hesab olunur. Bura ilk öncə leksiologiyanın tədrisi, orfoqrafiyanın, durğu işarələri, yaxud elmi qaydaların öyrədilməsi daxildir.

Aparılmış təhlillər onu göstərir ki, son dövrlərə qədər xarici dil dərslərində müəllimin tədris vəsaitləri üzrə mövzunun izahına geniş yer verilirdi. Lakin, daha bu üsuldan o qədər də geniş istifadə edilmir. Dərs prosesində müəllim ətraflı mövzu üzrə izahı ilə auditoriyada fəallıq göstərir.

Müzakirə əsnasında tələbələr və şagirdlər obyekt rolunu oynayırlar. Bu zaman tələbə və şagirdlər dinləyici kimi passiv mövqedə olurlar. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, tədris o zaman səmərəli alınar ki, tələbə və ya şagird tədris prosesində subyekt kimi çıxış etmiş olsun. İnkişaf etmiş ölkələrin iş təcrübəsi göstərir ki, müəllimin mövzu barədə çox çıxış etməsi dərsdə tələbələri çox zaman passivləşdirir. Bu proses tələbələrə onların elmi baxımdan fəallığını təmin etməyə imkan vermir. Tələbələrə biliyin mənimsədilməsi prosesində müəllimin izahatı, tələbələrin suallara verdiyi cavablar müəllimin şərhini daha səmərəli edir. Müəllimin mövzu üzrə izahına heç də dərsdə çox vaxt tələb edən, tələbələri passivləşdirən bir metodiki yol kimi nəzərdən keçirmək olmaz. Tələbələr müəllimlərin alman dili üzrə izahatlarını, məlumatlarını çox maraqla dinləyirlər. Onlardan bir çox məlumatları mənimsəyirlər. Əlverişli metodik yoldan düzgün və səmərəli istifadə etmək vacibdir. Bildiyimiz kimi fənnin məqsədi dilin düzgün tədrisidir. Əlbəttə, dili öyrənmək istəyən tələbəyə geniş imkanlar verilməlidir. Tələbə tədris prosesində qazandıqlarını təcrübədə tətbiq edə bilməlidir. O, daima elmi biliklərini möhkəmləndirməlidir.

Xarici dillərin, o cümlədən, alman dilinin tədrisində tələbələri fəallaşdıran müsahibə üsulundan geniş istifadə olunmalıdır. Hər bir dilin nəzəriyyə ilə təcrübənin vəhdətində öyrədilməsi müsbət səmərə verir. Tələbə özü nəticəyə gəldiyi üçün onun əldə etdiyi cavab daima yaddaşında qalır.

Xarici dillərin ali məktəblərdə tədris edilmə prosesində köməkçi nitq hissələrinin tədrisinə xüsusi yer ayrılır. Tədris ilinin böyük his-

səsi əsas və köməkçi nitq hissələrinin öyrənilməsinə həsr olunur. Bu təsadüfi deyil. Müəyyən amillərə bağlı olan bir məqsəd hesab olunur[3]. Digər dillərdən fərqli olaraq alman dilində köməkçi nitq hissələrinin müəyyənləşdirilməsi əsas nitq hissələrinə nisbətən bir qədər çətin yadda qalır. Tələbələr çox vaxt köməkçi nitq hissələrini bir-birindən və eləcə də əsas nitq hissələrindən fərqləndirməkdə çətinlik çəkirlər. Bəzən onların yazılışında bir sıra cümlə səhvinə yol verirlər. Əsas səbəblərdən biri KÖməkçi sözlərin hələ də müasir alman dili qrammatikasında tam şəkildə sistemləşdirilməməsidir. Alman dilinin bu vahidləri bəzən əsas nitq hissələri sırasında, bəzən də köməkçi söz funksiyasında təqdim olunur. Ümumiyyətlə, alman dilində köməkçi sözlərin çətin mənimsənilməsinin bir səbəbi də həmin sözlərin məna və vəzifələrinin müstəqil olaraq müəyyən məna ifadə etməmələri ilə bağlıdır. Yaranmış çətinliyin başqa bir səbəbi isə, köməkçi sözlər haqqında orta məktəblərdə şagirdlərə, demək olar ki, mövzuların zəif izah edilməsidir. Orta məktəblərdə xarici dilin tədrisi zamanı şagirdlər ibtidai siniflərdə alman dilinin əsas nitq hissələrinin hamısı ilə tanış olur. Bu istiqamətdə bir sıra mövzular haqqında, qədər geniş məlumatlar alırlar.

Alman dilinin orta məktəblər üzrə yuxarı siniflərdə tədrisi zamanı sistematik qrammatika kursunun tədrisi sayəsində aşağı siniflərdə keçilmiş bir sıra mövzular şagirdlər üçün çətin olmur. Köməkçi nitq hissələrinin tədrisində vəziyyət bir qədər fərqlidir. Modal sözlər köməkçi nitq hissələri sırasında xüsusi bir mövqe tutur. Bağlayıcı, qoşma kimi köməkçi nitq hissələri haqqında şagirdlər aşağı siniflərdə məlumat alırlar. Bu sözlərin cümlədə tez-tez işlədilməsi həmin nitq hissələrinin də dil sistemində olmasını, mühüm yer tutmasını göstərir. Eyni zamanda alman dilində modal sözlər cümlələrdə sırf emosionallıq məqsədi daşıyır. Orta məktəblərdə cümlənin qrammatik strukturu xüsusi bir əhəmiyyət kəsb etmədiyindən bu vahidlərin öyrənilməsinə aşağı siniflərdə o qədər də əhəmiyyət verilmir. Alman dilində köməkçi sözlərin tədrisində ən məsul mərhələlərdən biri həmin nitq hissələri haqqında əsas anlayışların orta məktəblərin ibtidai siniflərində verilməsidir. Lakin, köməkçi sözlərin tədrisi prosesində hər iki dil arasında aparılan müqayisə üsulundan geniş formada istifadə edilməlidir. Alman dilində əsas nitq hissələri müəyyən suala, köməkçi sözlər isə heç bir suala cavab vermir. Orta məktəblərdə şagirdlər həmin dil vahidləri-

nin ana dilindəki oxşarını də asanlıqla təyin edə bilərlər.

Xarici dillərin tədrisində, o cümlədən ana dilin tədrisində yaranmış bir hal özünü daha geniş şəkildə göstərir. Tələbə yaxud şagird mətni oxuyarkən mənası ona məlum olmayan sözlərə fikir vermir. Tələbə, yaxud şagird xarici dillə məşğul olduqda ona elə gəlir ki, o, mətndəki bütün sözlərin mənasını yaxşı bilir. Alman dili müəllimi hər bir sözün, hər bir ifadənin semantik mahiyyətini, məzmununu, onun ifadə etdiyi anlayışı düzgün izah edərsə, onda şagird, yaxud tələbə nitqinin də inkişaf etdirilməsinə nail ola bilər. Tələbə də də məsuliyyət daşıyır. Tələbə fikirləşir ki, mövzu üzrə bütün sözlərin mənasını bilir. Bilmədiyi sözlərin mənasını bilmək məqsədi ilə sual vermir. Bu halda müəllim hansı sözün tələbələrə məlum olduğunu, hansı sözün məlum olmadığını təyin edə bilmir. Tədris prosesində müəllim bu cür çətinlikləri aradan qaldırmaq üçün, cümlədəki və mətndəki sözləri ayrı-ayrılıqda leksik və qrammatik baxımdan izah etməlidir. Nəticədə tələbə daha yaxşı xarici dili mənimsəyir.

Alman dili üzrə morfologiya qrammatikanın birinci bölməsi hesab olunur. Tədris prosesində sözün yəni qrammatik mənası bu bölmədə öyrənilir. Nəzərə alaq ki, sözün birinci mənası onun ifadə etdiyi lüğət üzrə mənasıdır, yəni sözün leksik mənasıdır. Əksər dillərdə sözün leksik mənası dilçiliyin ən dinamik və ən fəal bölmələrindən olan leksiologiyada öyrənilir. Dərs prosesində modal sözlərin leksik mənası haqqında danışmaq məqsədəuyğundur. Ümumiyyətlə, köməkçi nitq hissələrinə aid edilən modal sözlər də həmin nitq hissəsinə verilən ilkin tərifin birinci prinsipinə aid olunur. Yəni köməkçi nitq hissələri, o cümlədən modal sözlər müstəqil leksik mənaya malik deyildir[5]. Bu sözlərin lüğət mənası vardır. Sözün leksik mənası onun qrammatik mənasının müəyyənləşdirilməsinə imkan verir. Müasir morfologiyada nitq hissələrinin təsnifatlaşdırılmasında leksik-qrammatik üsula da yer verilir. Bu zaman sözün leksik mənası nəzərə alınmaqla, onun qrammatik mənası, yəni hansı nitq hissəsinə aid edilməsi təyin edilir. Müasir morfologiya elmində modal sözlərin yerinin müəyyənləşdirilməsi, onların məhz köməkçi nitq hissələrinə aid edilməsi Azərbaycan və alman dili morfologiyası üçün mütləq formada uyğun gəlmir.

Bu halda alman dilinin ölkəmizdə tədrisi prosesində müqayisəli qrammatikanın uyğunsuzluğu müşahidə olunur. Bu da alman dili

fənninin tədrisində bir qədər çətinlik yaradır. Yarnmış problemin aradan qaldırılması üçün alman dilində Azərbaycan dilinin qrammatikasında modal sözlər adı altında qruplaşdırılan dil vahidlərinin qarşılığı kimi işlənən sözləri tapmaq lazımdır. Məhz bu sözlər vasitəsi ilə həmin dilin modal sözlərini ifadə etmək mümkündür.

Alman dilinin ölkədə ali məktəblərdə tədrisi zamanı nitqin inkişafı üzrə aparılan işlərin mühüm elementlərindən biri kimi tələbələrin ifadəli oxu texnikasını daha da təkmilləşdirmək zəruridir[4]. Bu zaman tələbələrə düzgün tələffüz vərdişləri mənimsətmək lazımdır. Ali və orta məktəblərdə tədris edilən bütün fənlərin tələbə və şagirdlərin nitqinin və təfəkküründün inkişaf etdirilməsində əhəmiyyəti böyükdür. Həm, Azərbaycan dili, həm də xarici dil dərslərinin qarşısında duran əsas prioritet, danışıq nitqi və onunla sıx bağlı olan təfəkkürü inkişaf etdirməkdir.

Milli dilimizin zənginliyi, linqvistik bazası alman dilinin ali və orta məktəblərdə tədrisini sadələşdirməyə tam imkan verə bilər. Məhz buna görə də alman dilinin tədrisi sahəsində müasir metodların tətbiqi zəruridir.

## *ƏDƏBİYYAT*


1. *Сакбаева М. Современные методы преподаваниянемецкого языка как иностранного // Academic research in educational sciences. - Ташкент: Наука, 2021, №2 (4), – с.142-147.*
2. *Яковлева Т.А. Современные методы преподавания немецкого языка (по материалам стажировки в Институте Международной Коммуникации в Дюссельдорфе) / Т.А. Яковлева // Филологические науки в МГИМО. Сборник научных трудов. – М.: МГИМО. - № 48. - 2012.- [электронный ресурс]. - https://mgimo.ru*
3. *Соловова Е.Н. Методика обучения иностранным языкам. - Москва: Просвещение, 2015. - 239 с.*
4. *Репнякова Н. Теория и методика обучения немецкому языку как второму иностранному: Учебное пособие.- Москва: Издательство: Флинта, 2019. - 255 с.*
5. *Бредхина И.А. Методика преподавания иностранных языков (Учебное пособие). - Екатеринбург: Наука, 2018. - 108 с.*

**Jala Tofiq gizi Abdullayeva**

# MODERN PROBLEMS OF THE TEACHING METHOD AND METHODOLOGY OF THE GERMAN LANGUAGE

***Summary:*** *The article is devoted to the study of modern problems of methods and methods of teaching German. The conducted research shows that new methods are used in the field of teaching German language in most countries. It is necessary to apply the relevant experience in higher educational institutions of our country. The article identifies current problems in the field of German language teaching, as well as the directions of their elimination.*

***Keywords:*** *education, higher school, German language, training, development, method.*

**Жала Тофиг кызы Абдуллаева**

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ОБУЧЕНИЯ МЕТОДИКИ И МЕТОДОЛОГИИ НЕМЕЦКОГО ЯЗЫКА

***Резюме:*** *Статья посвящена изучению современных проблем методики и методики преподавания немецкого языка. Проведенные исследования показывают, что новые методы применяются в области преподавания немецкого языка в большинстве стран. Необходимо применить соответствующий опыт в высших учебных заведениях нашей страны. В статье определены актуальные проблемы в области обучения немецкому языку, а также определены направления их устранения.*

***Ключевые слова:*** *образование, высшая школа, немецкий язык, обучение, развитие, метод.*

**Elnurə Seyfulla qızı Əhmədzadə**
***Xəzər Universiteti***
***Karyera İnkişaf Mərkəzi, koordinator***

# UNİVERSİTET-MÜƏSSISƏ ƏMƏKDAŞLIĞININ TƏLƏBƏLƏRİN KARYERA İNKİŞAFINDA ROLU (Xəzər Universiteti təcrübəsi)

***Xülasə:*** *məqalədə universitet-müəssisə əməkdaşlığının önəmindən, hər iki tərəfin qazanacağı faydalardan, Xəzər Universiteti Karyera Mərkəzinin gətirdiyi nümunədən bəhs edilir.*

***Açar sözlər:*** *universitet, karyera, tələbə, idarəetmə, tərəfdaşlıq.*

Ali məktəbləri yeni bitirən məzunlar davamlı olaraq dəyişən əmək bazarı və iş mühiti ilə üzləşirlər. Ali təhsildə Karyera Mərkəzlərinin əsas məqsədi tələbələrin bu çətinliklərlə üzləşməsinin qarşısını almaq və onların karyera inkişafını təmin etməkdir. Karyera Mərkəzləri universitet ilə müəssisələr arasında əməkdaşlığın qurulmasında, eyni zamanda davamlı olaraq dəyişən əmək bazarında və iş mühitində tələbələrin iş və karyera idarəetmə bacarıqlarının inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır (Brown və b., 2013).

Universitet-müəssisə əməkdaşlığı müəssisə-əsaslı öyrənmə olaraq bilinən tərəfdaşlığa yol açır. Bu tərəfdaşlıq proqramı çərçivəsində universitetlər öz tələbələrini yeni bacarıqlar öyrənmək və iş təcrübəsi əldə etmək məqsədilə tərəfdaş olduğu müəssisələrə göndərir. Tərəfdaş olan müəssisələr də bu proqramdan tam bacarıqlı məzunlar yetişdirməyə kömək edərək faydalana bilir. Bu tam bacarıqlı məzunlar iş mühitinə tam hazır potensial işçilərə çevrilir (Del və b., 2014)

Universitetlər və müəssisələr arasında əməkdaşlıq bilik və bacarıqların əldə edilməsi və inkişafı üçün çox vacibdir. Bu əməkdaşlıq formal və ya qeyri-formal, tədqiqat və təlim, tərəfdaşlıq və insan kapitalını inkişaf etdirmək məqsədli ola bilər. Eyni zamanda qısa və uzun müddətli ola bilər. Tələbata uyğun olaraq, qısa müddətli əməkdaşlıq tədqiqat yönümlü, uzun müddətli əməkdaşlıq isə birgə layihələr və tərəfdaşlıq yönümlü ola bilər. Universitet-müəssisə əməkdaşlığı hər iki tərəfin maraqlarını və hədəflərini dəstəkləməli və əks etdirməlidir.

Universitetlər üçün müəssisələr ilə əməkdaşlıq qurulmasında maraqlar tədrisin inkişafı, maliyyələşmə imkanı, nüfuzun artırılması, müəssisələrdən gələn təcrübə əsaslı məlumatlara çıxış olaraq göstərilə bilər. Müəssisələr üçün bu maraqlar əlavə texnoloji biliklərə çıxış, ixtisaslı işçilər əldə edə bilmə imkanı, mövcud və ya gələcək işçilərə təlimlər vermək, universitetin avadanlıqlarına və imkanlarına çıxış, dövlət maliyyəsinə çıxış və universitetlərin ümumi tədris və tədqiqat məsələlərinə təsir kimi göstərilə bilər. Universitetlə tərəfdaşlıq etməklə müəssisələr yeni yanaşmaların inkişafına və qabaqcıl təcrübələrə çıxış əldə edirlər. Eyni dərəcədə, bu əməkdaşlıq universitetlərə tədqiqatları real iş mühitində təcrübədən keçirmək imkanı verir. Həmçinin universitet-müəssisə əməkdaşlığı müəssisələr arasında rəqabətin artmasına da təsirsiz ötüşmür. Bu rəqabətin artması davamlı olaraq müəssisələrin özlərini inkişaf etdirməsinə də şərait yaradır (Guimón, 2013).

Müasir iqtisadi mühitdə biznes və dövlət sektoru təşkilatları üçün məhsullar, servislər və prosesləri davamlı olaraq yeniləmək çox vacibdir. Universitet-müəssisə əməkdaşlığı sözügedən yeniliklər üçün əla zəmin yaradır. Məlumdur ki, xüsusilə informasiya texnologiyaları, istehsal və inşaat sənayesi davamlı şəkildə öz məhsullarını inkişaf etdirir. Universitet-müəssisə əməkdaşlığı vasitəsilə universitet sənaye problemlərinin həlli və innovativ məhsulların dizayn edilməsində önəmli rol oynaya bilər. Mühəndislik kimi bəzi ixtisas və tədqiqat sahələrində praktiki sənaye təcrübəsinə ehtiyac olur. Bu əməkdaşlıq vasitəsilə habelə ixtisas və tədqiqat sahələri də faydalana və inkişaf edə bilir.

Bir çox ölkələr “bilik iqtisadiyyatı” vasitəsilə global iqtisadi rəqabəti gücləndirmək məqsədi güdür. Bunun üçün də ən tanınmış yanaşma universitet-müəssisə əməkdaşlığının gücləndirilməsidir. Universitet-müəssisə əməkdaşlığı tədqiqat fondlarına, real həyat problemlərinə, tədqiqatlarla bağlı məsələlərə və kurrikulumun inkişafına yeni perspektivlər gətirir. Eyni zamanda bu əməkdaşlıq yeniliklər yaradır və milli iqtisadiyyata töhfələr verir. Qeyd etmək lazımdır ki, universitet-müəssisə əməkdaşlığı əmək bazarının tələbinə uyğun yüksək ixtisaslı və bacarıqlı məzunların yetişməsinə şərait yaradır. Bu baxımdan universitetlər adətən inkişaf üçün təkanverici rol oynayırlar.

Universitet-müəssisə əməkdaşlığının regional inkişafa təsiri daha önəmlidir çünki ali təhsil ocaqları ənənəvi üsul hesab edilən təd-

qiqat və təlim üsulundan innovativ və məhsuldar üsula keçirlər. Yeni üsula əsasən universitetlər müəssisələr və dövlət ilə birlikdə iqtisadi inkişafın və rəqabətliliyin artırılması məqsədilə işləyirlər. Sözügedən əməkdaşlıq eyni zamanda akademiklərə tədqiqatda yeni yanaşmaların yaranmasına və öz tədqiqatlarını, eləcə də teoriyaları praktiki olaraq tətbiq etməyə də şərait yaradır.

1980-ci illərdən bəri bir çox ölkələr universitet-müəssisə əməkdaşlığını dəstəkləmək və gücləndirmək məqsədli siyasət həyata keçirməyə başlamışlar. Amerika Birləşmiş Ştatlarında 1980-ci illərdən əvvəl intellektual mülkiyyətin kommersiyalaşdırılması /ticarətləşdirilməsi bir çox universitetlər üçün nadir rast gəlinən bir məsələ idi. 1980-ci ildə Bayh-Dole Aktının qüvvəyə minməsi ilə Birləşmiş Ştatlar Konqresi universitetlərə və kiçik biznes müəssisələrinə tədqiqatda potent əldə etməyə icazə verdi. Bu da akademiya ilə müəssisələr arasında əməkdaşlıqda inqilab oldu.

1970-ci illərin sonu 1980-ci illərin əvvəli sənayeləşmiş xalqlarda məhsuldarlığın aşağı düşməsinə cavab olaraq Avropa Komissiyası tərəfindən yeni, innovativ yanaşma qəbul edilməyə başlandı. Birləşmiş Krallıqda tədqiqat əsaslı universitetlər ticarətləşdirmə, texnoloji lisenziyalaşdırma və transfer baxımından biznes sahələri və müəssisələr ilə daha "işgüzar" əməkdaşlığa başladılar. Universitet-müəssisə əməkdaşlığı Birləşmiş Krallıq təhsil sisteminin vacib bir hissəsi oldu (Mgonja, 2017).

**Xəzər Universiteti təcrübəsi**

Azərbaycanda da universitet-müəssisə əməkdaşlığının inkişaf etdirilməsi üçün ayrı-ayrı universitetlərdə bir sıra işlər görülür.

Hazırda Azərbaycanda Xəzər Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Avropa Universitetlərinin Davamlı Təhsil Şəbəkəsinin (EUCEN) koordinatoru olduğu "XXI əsrdə universitetdən əmək bazarına iş əsaslı yerləşdirmələrdə bir addım irəli" – UniLab adlı Erasmus + layihəsinin tərəfdaşıdır. Avropa Universitetlərinin Davamlı Təhsil Şəbəkəsinin – EUCEN koordinatorluq etdiyi UniLab (universitet-əmək bazarı) üç tərəfdaş ölkədə - Azərbaycan, Belarusiya və Rusiyada – müəssisə və ali təhsil müəssisələri arasında tərəfdaşlığın genişləndirilməsi və böyüməsi üçün AB Program tərəfdaşları ilə yaxınlaşaraq cəmiyyət daxilində ali sektorunun modernləş-

dirilməsinə töhfə vermək məqsədi daşıyır. Layihənin universitetlərdə karyera mərkəzinin inkişafına, xüsusilə də müəssisə və ali təhsil ocaqları arasında tərəfdaşlığın genişləndirilməsi və daha da inkişafına müsbət təsir etməsi gözlənilir (Unilab, 2019).

Xəzər Universiteti Karyera İnkişaf Mərkəzi 1 noyabr 1999-cu ildə Avrasiya Fondu, ABŞ tərəfindən maliyyələşdirilən "Xəzər Universitetində 1999-2001-ci illərdə Karyera Mərkəzinin İnkişafı Layihəsi" çərçivəsində yaradılmışdır. Hər il Karyera İnkişaf Mərkəzi tərəfindən müxtəlif vörkşoplar, təlimlər və karyera sərgiləri təşkil edilir. Mərkəzin əsas məqsədi universitetin tələbələr və işəgötürənlərlə əlaqə yaratmaq, tələbələrin iş imkanlarını artırmaq və bir çox şirkətlərlə yaxından tanış edərək ixtisasları ilə əlaqəli təcrübə programlarına necə baş vurmağın yollarını göstərməkdir.

2022-ci ilin sentyabr ayında Xəzər Universiteti Karyera İnkişaf Mərkəzi Karyera Səfirləri proqramına start verdi. Proqramın məqsədi tələbələrin karyera ilə bağlı fəaliyyət və tədbirlərdə fəal iştirakını təmin etməkdir. Karyera səfirləri Karyera İnkişaf Mərkəzi ilə tələbələr arasında körpü rolu oynayır. Hazırda müxtəlif ixtisaslar üzrə 20 tələbə bu proqramda fəal iştirak edir. Seçilmiş tələbələr proqrama başlamazdan əvvəl təlim keçdilər. Tələbələr Karyera İnkişaf Mərkəzinin fəaliyyətini öz ixtisaslarında təhsil alan tələbələrə təbliğ edir, həmçinin bu ixtisaslar üzrə təhsil alan tələbələrin karyera ilə bağlı maraqlarını Karyera İnkişaf Mərkəzi ilə bölüşürlər. Karyera Səfirlərinin tələbələr olduğunu nəzərə alsaq, tələbələrin birbaşa öz yaşıdları ilə əlaqə yaratması, onların maraqlarını əks etdirməsi Karyera Mərkəzinin tələbələrin maraqlarına uyğun xidmət göstərməsinə şərait yaradır. Bundan əlavə, Karyera Səfirləri proqramında iştirak etmək tələbələrin şəbəkələşmə, ünsiyyət, əməkdaşlıq, komanda işi və təqdimat bacarıqlarını inkişaf etdirir. Hal-hazırda karyera səfiri təcrübəsi yaşayan tələbələrin bəzilərinin bu proqramda iştirakları ilə bağlı fikirlərini və onlara olan faydasını öyrəndik. Mühasibatlıq və marketinq ixtisası üzrə karyera səfiri olan tələbə proqramla bağlı təcrübələrini bölüşərkən bildirir ki, *"mənim üçün netvörkinqi inkişaf etdirmək və gələcək karyeramda daha dəqiq hədəfləri müəyyən etməyə kömək oldu"*. Riyaziyyat və İnformatika müəllimliyi ixtisası üzrə karyera səfiri isə qeyd edir ki, *"netvörkinq bacarığımı inkişaf etdirməyə, universitetin əməkdaşlarını daha yaxşı tanımağa kömək edir və universitet daxilində keçirilən bütün*

*tədbirlərdən xəbərim olur".* Tərcümə (İngilis dili) üzrə karyera səfiri isə bildirir ki, *"Universitet daxilində və xaricində keçirilən mühüm tədbirlərdən ən birinci məlumatım olur, sosial mühitimi genişləndirməyimə, universitetin əməkdaşları ilə işləyərək təcrübə qazanmağıma kömək edir"*. Biznesin İdarəolunması ixtisası üzrə karyera səfiri fikirlərini bölüşərək qeyd edir ki, *"Xəzər Universitetinin Karyera İnkişaf Mərkəzinin Karyera Səfiri proqramında iştirak etməklə bir çox şirkət nümayəndələri ilə birbaşa və daha peşəkar profildə tanış olmaq fürsəti əldə etmişəm. Netvörkinqimizin yalnız universitet xaricində deyil, universitet daxilində də artmasına dəstək olub. Həmçinin bu təcrübə bizim yumşaq bacarıqlarımızın inkişaf etməsinə də bir növ kömək etmişdir. Belə ki, kommunikasiya, qrupda işləmək və s. kimi bacarıqlarımız daha da təkmilləşmişdir".* Kimya və biologiya müəllimliyi ixtisasının karyera səfiri qeyd edir ki, *"Xəzərin digər tələbələrindən +1 daha öndəyəm karyera səfiri olduğuma görə. Niyə? Çünki təlimlərdə təkcə iştirakçı kimi deyil, həm də təşkilatçı kimi iştirak edirəm və həmçinin netvörkinq bacarığımı inkişaf etdirirəm".* Kimya mühəndisliyi ixtisasının karyera səfiri *"Karyera səfirləri olaraq universitetin Karyera Mərkəzi ilə tələbələr arasında körpü rolu oynayırıq. Karyera səfirləri tələbələrə və universitetə tələbələri fəaliyyətlərdə aktiv iştirak etməyə cəlb etməkdə kömək edir"* deyir. Filologiya ixtisasının karyera səfiri isə vurğulayır ki, *"Xəzər Universitetinin Karyera İnkişaf Mərkəzində Karyera Səfiri olmağın mənim üçün bir çox müsbət tərəfi var. Məsələn: universitet və şirkət heyəti ilə birbaşa əlaqə şəraiti yaradır və təlimlərdən ilk bizim xəbərimiz olur tələbələri təlimlərə dəvət edirik, həm də özümüz iştirak edirik. Bundan əlavə ünsiyyət bacarığımızın inkişafına da kömək edir".* Radiotexnika və elektronika ixtisasının karyera səfiri *"Xəzər Universitetinin Karyera Mərkəzi mənə, şəxsi inkişafıma və gələcək karyeramın ilkin addımlarına böyük dəstək göstərir. Keçirilən seminarlar, məlumat sessiyaları, şirkətlər və onların əməkdaşlarının iştirakı ilə həyata keçirilən tədbirlərdə karyera səfiri olaraq iştirak etmək kommunikasiya, əməkdaşlıq, sosial aktivlik bir sözlə qazanılması mühüm olan bacarıqları əldə etməyimdə əvəzsiz rol oynayır"* deyir. Təsviri incəsənət və dizayn ixtisasının səfiri isə vurğulayır ki, *"Xəzər universitetinin Karyera İnkişaf Mərkəzinin karyera səfiri olmağın müsbət cəhətləri mənim fikrimcə çoxdur. Onlardan mənim üçün ən əsası şirkət rəhbərləri ilə birbaşa əlaqə yaratmaq şansını qa-*

*zanıram və bundan əlavə yeni dostlar əldə edirəm bu da ünsiyyətimiz üçün çox faydalıdır".*

Göründüyü kimi, müxtəlif ixtisasdan olan karyera səfirlərinin fikirlərini qeyd edərək Karyera Səfirləri proqramının əslində universitet-müəssisə əməkdaşlığında kifayət qədər önəmli rol oynadığını, eyni zamanda tələbələrin də bu prosesin inkişafında ayrılmaz bir parçaya çevrildiyini göstərmiş oluruq. Xəzər Universiteti Karyera İnkişaf Mərkəzinin başlatdığı proqram həm tələbələrin aktivliyinə, iş qabiliyyətinin artmasına da töhfə verməkdədir. Təqdiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, onun universitet-müəssisə əməkdaşlığını araşdıran və inkişaf etdirmək istəyən insanlar və ya qurumlar tərəfindən istifadə oluna bilər.

## *ƏDƏBİYYAT*


1. *Christopher T. Mgonja (2017), Enhancing the University - Industry Collaboration in Developing Countries through Best Practices, International Journal of Engineering Trends and Technology (IJETT) – Volume 50*
2. *Farouk Dey, Christine Y. Cruzvergara (2014), Evolution Of Career Services In Higher Education, New Directions For Student Services, No. 148, Winter 2014 © 2014 Wiley Periodicals, Inc. Published Online In Wiley Online Library (Wileyonlinelibrary.Com) • Doi: 10.1002/Ss.20105*
3. *Jason L. Brown., Michael Healy., Tessa McCredie & Peter McIlveen (2019), Career services in Australian higher education: aligning the training of practitioners to contemporary practice*
4. *José Guimón World Bank, (2013), Promoting University-Industry Collaboration in Developing Countries*
5. *Unilab, 2019 (http://khazar.org/az/item/10064)*

**Elnura Seyfulla gizi Ahmedzade**

# THE ROLE OF UNIVERSITY-INSTITUTION COOPERATION IN THE DEVELOPMENT OF STUDENTS CAREER (THE EXPERIENCE OF THE KHAZAR UNIVERSITY)

***Summary:*** *the article talks about the importance of university-institution cooperation, the benefits to be gained by both sides, and the example given by the Khazar University Career Center.*

***Keywords:*** *university, career, student, management, partnership.*

**Ахмедзаде Эльнура Сейфулла кызы**

# *РОЛЬ ВУЗОВСКОГО СОТРУДНИЧЕСТВА В КАРЬЕРНОМ РАЗВИТИИ СТУДЕНТОВ (опыт Университета Хазар)*

***Резюме:*** *в статье говорится о важности сотрудничества между университетом и вузом, преимуществах, которые могут быть получены обеими сторонами, и на примере Центра карьеры Университета Хазар.*

***Ключевые слова:*** *вуз, карьера, студент, управление, партнерство.*

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| E.Y.ƏHMƏDOV | DÖVLƏTİN KİTABXANA SİYASƏTİ | 6 |
| KNYAZ ASLAN | XURŞİDBANU NATƏVANIN ƏDƏBİ İRSİ HAQQINDA SƏNƏD İNFORMASİYA MƏNBƏLƏRİ | 12 |
| S.F.QULİYEVA | HEYDƏR ƏLİYEV VƏ KİTAB NƏŞRİ | 26 |
| Ş.İ.İSLAMOVA | ÖLKƏLƏRARASI QARŞILIQLI MƏDƏNİYYƏT ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA KİTABXANA SİSTEMİNİN TƏSİR İMKANLARI | 34 |
| Ə.Ş.NƏCƏFOV | AZƏRBAYCAN ELMİNİN İFTİXARI | 40 |
| M.Ə.MƏMMƏDOV, G.S.MUSAYEVA | RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASINDA YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ | 45 |
| N.Ə.HƏSƏNOVA, F.A.ƏLİYEVA | MÜASIR KİTABXANALARIN RƏQƏMSAL İNFORMASİYA FƏZASINA İNTEQRASİYASI | 55 |
| A.S.ƏLİYEVA | FASİLƏSİZ PEŞƏ TƏHSİLİ SİSTEMİNİN YARADILMASI | 66 |
| Z.C.CAMALOVA | KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN ELMİ-TƏCRÜBİ MƏSƏLƏLƏRİ | 72 |
| C.R.ŞİRİNOV | ELMİ KİTABXANALARDA KİTABXANA-İNFORMASIYA PROSESLƏRİNİN NƏZƏRİ ƏSASLARI | 76 |
| N.C.AĞAYEVA | QLOBAL İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ KİTABXANALARIN FORMALAŞMASINDA YENİ TEXNOLOGİYALARIN ROLU | 83 |
| A.M.SƏMƏDOVA | KİTABXANA - İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ BEYNƏLXALQ TƏCRÜBƏDƏ | 94 |
| J.T.ABDULLAYEVA | ALMAN DİLİNİN TƏDRİS METODİKASI VƏ METODOLOGİYASININ MÜASİR PROBLEMLƏRİ | 102 |
| E.S.ƏHMƏDZADƏ | UNİVERSİTET-MÜƏSSİSƏ ƏMƏKDAŞLIĞININ TƏLƏBƏLƏRİN KARYERA İNKİŞAFINDA ROLU (XƏZƏR UNİVERSİTETİ TƏCRÜBƏSİ) | 110 |

# C O N T E N T S


| | | |
|---|---|---|
| **E.Y.AHMADOV** | **LIBRARY POLICY OF THE GOVERNMENT** | **6** |
| **KNYAZ ASLAN** | **SOURCES OF INFORMATION ABOUT THE LITERARY HERITAGE OF KHURSHIDBANU NATAVAN** | **12** |
| **S.F.GULIYEVA** | **HAYDER ALIYEV AND BOOK PUBLICATION** | **26** |
| **SH.I.ISLAMOVA** | **THE POSIBILITIES OF INFLUENCE OF THE LIBRARY SYSTEM IN THE FORMATION OF THE CROSS-COUNTRY MUTUAL CULTURAL RELATIONS** | **34** |
| **A.SH.NAJAFOV** | **PRIDE OF AZERBAIJAN SCIENCE** | **41** |
| **M.A.MAMMADOV, G.S. MUSAYEVA** | **THE APPLICABILITY OF NEW INFORMATION TEXNOLOGIES IN THE REBUBLIC SCIEN-TIFIC-TECHNICAL LIBRARY** | **45** |
| **N.A.HASANOVA, F.A.ALIYEVA** | **INTEGRATION OF MODERN LIBRARIES IN THE DIGITAL INFORMATION SPACE** | **55** |
| **A.S.ALIYEVA** | **CREATION OF CONTINUOUS VOCATIONAL EDUCATION SYSTEM** | **66** |
| **Z.J.JAMALOVA** | **SCIENTIFIC-PRACTICAL ISSUES OF THE LIBRARY-INFORMATION SERVICE** | **72** |
| **C.R.SHIRINOV** | **THEORETICAL BASICS OF LIBRARY-INFORMATION PROCESSES IN SCIENTIFIC LIBRARIES** | **76** |
| **N.C.AGHAYEVA** | **THE ROLE OF NEW TECHNOLOGIES IN THE INFORMATION OF LIBRARIES IN THE CONTEXT OF THE GLOBAL INFORMATION SOCIETY** | **83** |
| **A.M. SAMADOVA** | **THE APPLICABILITY OF LIBRARY INFOR-MATION TECHNOLOGIES IN INTERNATIONAL PRACTICE** | **94** |
| **J.T.ABDULLAYEVA** | **MODERN PROBLEMS OF THE TEACHING METHOD AND METHODOLOGY OF THE GERMAN LANGUAGE** | **102** |
| **E. S.AHMADZADE** | **THE ROLE OF UNIVERSITY-INSTITUTION COOPERATION IN THE DEVELOPMENT OF STUDENTS CAREER (THE EXPERIENCE OF THE KHAZAR UNIVERSITY)** | **110** |

# С О Д Е Р Ж А Н И Е


| | | |
|---|---|---|
| **Е. Ю. АХМЕДОВ** | **ПОЛИТИКА ГОСУДАРСТВЕННОЙ БИБЛИОТЕКИ** | **6** |
| **КНЯЗЬ АСЛАН** | **ИСТОЧНИКИ ИНФОРМАЦИИ О ЛИТЕРАТУРНОМ НАСЛЕДИИ ХУРШИД-БАНУ НАТАВАН** | **12** |
| **С. Ф. ГУЛИЕВА** | **ГЕЙДАР АЛИЕВ И КНИЖНОЕ ИЗДАНИЕ** | **26** |
| **Ш.И.ИСЛАМОВА** | **ВОЗМОЖНОСТИ ВЛИЯНИЯ БИБЛИОТЕЧНОЙ СИСТЕМЕ В ФОРМИРОВАНИИ ВЗАИМНЫХ КУЛЬТУРНЫХ СВЯЗЕЙ МЕЖДУ СТРАНАМИ** | **34** |
| **А.Ш.НАДЖАФОВ** | **ГОРДОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ НАУКИ** | **41** |
| **М.А.МАМЕДОВ, Г.С. МУСАЕВА** | **ВНЕДРЕНИЕ НОВЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИИ В РЕСПУБЛИКАНСКОЙ НАУЧНО-ТЕХНИЧЕСКОЙ БИБЛИОТЕКЕ** | **45** |
| **Н.А.ГАСАНОВА, Ф.А.АЛИЕВА** | **ИНТЕГРАЦИЯ СОВРЕМЕННЫХ БИБЛИОТЕК В ЦИФРОВОЕ ИНФОРМАЦИОННОЕ ПРОСТРАНСТВО** | **55** |
| **А.С.АЛИЕВ** | **СОЗДАНИЕ СИСТЕМЫ НЕПРЕРЫВНОГО ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ** | **56** |
| **З.ДЖ.ДЖАМАЛОВА** | **НАУЧНО-ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ СЛУЖБЫ** | **72** |
| **Ч.Р.ШИРИНОВ** | **ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ ПРОЦЕССОВ В НАУЧНЫХ БИБЛИОТЕКАХ** | **76** |
| **Н.ДЖ.АГАЕВА** | **ФОРМИРОВАНИЕ И НОВЫЕ ТЕХНОЛОГИИ БИБЛИОТЕКИ В ГЛОБАЛЬНОМ ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ** | **83** |
| **А. М. САМЕДОВА** | **ВНЕДРЕНИЕ МЕЖДУНАРОДНОГО ОПЫТА В БИБЛИОТЕЧНЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЯХ** | **94** |
| **Ж.Т.АБДУЛЛАЕВА** | **СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ОБУЧЕНИЯ МЕТОДИКИ И МЕТОДОЛОГИИ НЕМЕЦКОГО ЯЗЫКА** | **102** |
| **Э.С.АХМЕДЗАДЕ** | **РОЛЬ ВУЗОВСКОГО СОТРУДНИЧЕСТВА В КАРЬЕРНОМ РАЗВИТИИ СТУДЕНТОВ (ОПЫТ ХАЗАРСКОГО УНИВЕРСИТЕТА)** | **110** |

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

**“Kitabxana.az” jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:**

1. Məqalənin adı, müəllifin adı və soyadı, çalışdığı qurum, vəzifəsi, elmi dərəcəsi, elektron poçt ünvanı göstərilməlidir.
2. Məqalə azərbaycan, ingilis və rus dillərində qəbul olunur.
3. Məqalədə 50 sözdən artıq olmayan xülasə, 4-dən az olmayan açar sözlərə malik olmalıdır.
4. Məqalə A4 formatında, Microsoft Word proqramında (şrift - Times New Roman – 12; interval - 1,5; səhifənin parametrləri - yuxarı – 2 sm, aşağı – 2 sm, soldan - 2,5 sm, sağdan – 2,5 sm) yığılmalıdır.
5. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məsələn, [1] və ya [1, s.15] kimi işarə olunmalıdır. Mətndə və ya başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
6. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
7. Jurnala təqdim olunan məqalələr:
   - əvəllər çap olunmamalı;
   - heç bir digər jurnala çap olunmaq üçün təqdim edilməməlidir.
8. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.
9. Müəlliflər məqalələri elektron şəkildə shafaq.ace@gmail.com ünvanına göndərə bilərlər.

"Kitabxana.az" elmi-nəzəri və təcrübi jurnalı
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 2492.
16.01.2008.

* * *

"Kitabxana.az" jurnalına abunə yazılmağı
rəsmiləşdirmək üçün "Ziya" MMC, "AVİSTA" KM,
"QASİD", "QAYA" yayım şirkətlərinə və redaksiyanın özünə
müraciət edə bilərsiniz.

* * *

"Füyuzat MMC" Nəşriyyat və Poliqrafiya Mərkəzində
çap edilmişdir.

Çapa imzalanmışdır: 23.12.2022

Sayı: 100 nüsxə. Həcmi 15 ç.v.

Formatı 70x100$^{1/8}$